# Xalq qəzeti

Xalqın qəzeti!

№ 237 (30353) 29 oktyabr 2023-cü il, bazar

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az


## Günün sözü

**Prezident İlham ƏLİYEV:**

Bir əsr bundan əvvəl Türk dünyasının böyük oğlu, mahir sərkərdə və dahi lider Qazi Mustafa Kamal Atatürk Türkiyə xalqını vahid bir ideal ətrafında birləşdirməyə müvəffəq olmuş, özünün ən möhtəşəm əsəri olan Türkiyə Respublikasını qurmaqla istiqlal mübarizəsini uğurla sona çatdırmışdı. Bu müstəsna gündə Ulu öndər Atatürkün, onun silahdaşlarının və qəhrəman şəhidlərimizin əziz xatirəsini dərin ehtiramla yad edirik.

# Qoşa bayrağın kölgəsində türk qardaşlığı

## *100 yaşlı Türkiyə Cümhuriyyəti Turana gedən yolumuzda lokomotivdir*



**Bu gün – oktyabrın 29-da Türkiyə Cümhuriyyətinin 100 yaşı tamam olur. Anadolu türkləri bu cümhuriyyəti böyük Türk dünyasına bəxş etmiş Mustafa Kamal Atatürk haqqıda yazırlar ki, o, Osmanlı imperiyasının külü altından, xarabalıqları içərisindən qüdrətli, demokratik, Avrasiyada söz sahibi olan Türkiyə Cümhuriyyətini yaratmışdır.**

Dünya tarixçiləri hələ də heyranlıqla qeyd edirlər ki, o, çox mümkünsüzləri mümkün edən tarixi şəxsiyyət idi. Atatürk Osmanlı imperiyasının yerində Türkiyə dövlətini quranda türklərin torpağına, sərvətinə, mədəni və mənəvi irsinə qənim kəsilənlərin, ona düşmənçilik edən qüvvələrin, ərazilərinə göz dikən dövlətlərin sayı-hesabı yox idi. Amma Atatürk son iki minillik tarixdəki çoxsaylı türk bədxahlarına qarşı təkbaşına mübarizə aparmaq təcrübəsinin yeni nümunəsini yaratdı və qalib gəldi.

Həmin illərdə Anadolu türklərinin yaşadığı məşəqqətlər də bizə yaxşı tanışdır, göstərdikləri şücaətlər də. Çünki Türkiyə Cümhuriyyətinin yaranmasından beş il əvvəl biz də öz müstəqil dövlətimizi yaratmışdıq. Ancaq düşmənlər çox olduğuna görə, həmin dövləti qoruya bilmədik. Həm də ona görə qoruya bilmədik ki, həmin illərdə bizim Atatürkümüz də yox idi, Heydər Əliyevimiz də. Ancaq 70 ildən sonra dövlət müstəqilliyimizi bərpa edəndə artıq bizim Heydər Əliyevimiz var idi və o, Atatürkün Anadolu türklərinə etdiyi liderliyi, önderliyi Azərbaycan müstəvisində təkrar edərək, bizim gənc müstəqil dövlətimizin bugünkü uğurlarının təməlini qoymuşdur. Əminliklə deyə bilərik ki, Ümummilli liderin Naxçıvana rəhbərlik etdiyi illərdə muxtar respublikanın xilas edilməsinin çıxış yolunu Türkiyədə görməsi və 1992-ci il mayın 28-də "Ümid körpüsü" adlı tarixi fakta imza atılması da məhz həmin təməl daşlarından biri idi.

*(ardı 7-ci səhifədə)*

# Türkiyə Respublikasının Prezidenti Zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana

**Hörmətli cənab Prezident,**
**Əziz Qardaşım,**

Əlamətdar tarix – Türkiyə Respublikasının yaranmasının 100-cü ildönümü münasibətilə Sizi və Sizin simanızda qardaş Türkiyə xalqını şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik etməkdən və ən xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Bir əsr bundan əvvəl Türk dünyasının böyük oğlu, mahir sərkərdə və dahi lider Qazi Mustafa Kamal Atatürk Türkiyə xalqını vahid bir ideal ətrafında birləşdirməyə müvəffəq olmuş, özünün ən möhtəşəm əsəri olan Türkiyə Respublikasını qurmaqla istiqlal mübarizəsini uğurla sona çatdırmışdı. Bu müstəsna gündə Ulu öndər Atatürkün, onun silahdaşlarının və qəhrəman şəhidlərimizin əziz xatirəsini dərin ehtiramla yad edirik.

İstiqlalına şəhidlərinin canı və qanı bahasına, çox mürəkkəb və ziddiyyətli beynəlxalq vəziyyətdə qovuşan Türkiyə Respublikası yüz il sonra qlobal siyasi xəritədə mühüm mövqeyə malik, dünyada əsas söz sahiblərindən biri olan, hər cəhətdən güclü və qüdrətli dövlətdir. Atatürkün əmanəti olan qardaş Türkiyənin son iyirmi ildə inkişaf tempi, dünya çapında ən öndə duran ordudan tutmuş yüksək texnologiya və innovasiyalara qədər bütün sahələrdə əldə etdiyi möhtəşəm nailiyyətləri, beynəlxalq aləmdə qazandığı etibarı və yüksək nüfuzu Sizin sarsılmaz iradənizin, yorulmaz fəaliyyətinizin və qətiyyətlə həyata keçirdiyiniz müdrik siyasətinizin nəticəsidir. Sizin əzmlə yürütdüyünüz strateji inkişaf xəttinə xalqınızın birmənalı dəstəyi, Sizə olan sonsuz inam və etimadı Türkiyənin gələcək uğurlarını və nailiyyətlərini təmin edəcək ən mühüm amillərdir.

Gündən-günə güclənən, ən qabaqcıl dövlətlərlə bir sırada layiqli yerini tutan müasir Türkiyəni görməkdən qardaş ölkə olaraq böyük qürur və fərəh hissi duyuruq. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamı xalqlarımızın qardaşlığını, birliyini, həmrəyliyini ifadə etməklə yanaşı, ikitərəfli münasibətlərimizin əsl mahiyyətini əks etdirir. Fəxrlə qeyd etmək istəyirəm ki, bu fəlsəfənin sübutu olaraq hazırda Azərbaycan və Türkiyə dünya miqyasında bir-birinə ən yaxın olan ölkələr və müttəfiqlərdir.

Tarixən olduğu kimi, xalqlarımız bu gün də bir-birinin yanındadır, sevincini də, kədərini də birgə yaşayırlar. Azərbaycan xalqı Vətən müharibəsi zamanı və ondan sonrakı dövrdə Siz başda olmaqla qardaş Türkiyə dövləti və xalqının Azərbaycanın haqq işinə, ərazi bütövlüyünə göstərdiyi birmənalı siyasi dəstəyini və qətiyyətli mövqeyini heç zaman unutmayacaq.

Biz Şuşa Bəyannaməsi ilə müttəfiqlik səviyyəsinə yüksələn Azərbaycan-Türkiyə əlaqələrini bundan sonra da bütün sahələrdə gücləndirmək əzmindəyik. Ortaq mənəvi dəyərlər, dini-mədəni köklər kimi sarsılmaz təməllər üzərində qurulmuş dövlətlərarası münasibətlərimiz həm də bölgədə sabitliyin, əmin-amanlığın, inkişafın və təhlükəsizliyin zaminidir.

Əminəm ki, ən böyük sərvətimiz olan Azərbaycan-Türkiyə qardaşlığını və birliyini əbədiyyətədək yaşatmaq və daha da möhkəmləndirmək, hərtərəfli əməkdaşlığımızı inkişaf etdirmək yolunda üzərimizə düşən şərəfli missiyamızı bundan sonra da birgə və uğurla yerinə yetirməyə davam edəcəyik.

Bu tarixi gündə Sizin və qardaş Türkiyə xalqının sevincinə qoşulur, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, ali dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər, Türkiyə Respublikasına daim rifah, firavanlıq və yüksəliş arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 26 oktyabr 2023-cü il**



# Sənaye zonaları qeyri-neft sektorunu gücləndirir

**Prezident İlham Əliyevin qarşıya qoyduğu dayanıqlı iqtisadiyyat və inklüziv cəmiyyət hədəfləri günümüzün reallığına çevrilib. Məhz bunun nəticəsidir ki, 2003-cü ildən başlayaraq ötən zaman ərzində reallaşdırılan strategiya sayəsində milli iqtisadiyyatın real xərci 4 dəfə, ixrac 15,6 dəfə artıb. İqtisadiyyatın orta artım tempi dünya üzrə orta səviyyədən 4 faiz yüksək olub.**

Son illərdə qeyri-neft sektorunun inkişafında mühüm rol oynayan sənaye zonalarının yaradılması da diqqət mərkəzində saxlanılıb. Bunun nəticəidir ki, indiyədək respublikada 7 sənaye parkı və 5 sənaye məhəlləsi istifadəyə verilib. Həmin sənaye zonalarında ümumi investisiya dəyəri 7,18 milyard manat olmaqla 131 sahibkarlıq subyektinə rezident statusu verilib və onlardan 68-i, yaxud 51,9 faizi istehsal fəaliyyətinə başlayıb. Sənaye zonalarına 6,56 milyard manat investisiya yatırılıb və 10 min 600-dən çox daimi iş yeri açılıb.

*(ardı 9-cu səhifədə)*

# Makronun minnət dolu Orta Asiya turnesi

**Yelisey sarayının rəhbəri, sözün həqiqi mənasında, özünün yaratdığı bataqlıqdan çıxmaq üçün yollar aramaqdadır. Parisin uzaq Afrika ölkələrində burnunun ovulması az imiş kimi, köhnə rəqibi Rusiya ilə münasibətləri də son dərəcə gərginləşib. Vaxtilə Azərbaycanın işğal edilmiş ərazilərindəki təbii sərvətlərin qarətində yaxından iştirak edən başqa ölkələr kimi, fransız şirkətləri də "oyundankənar vəziyyətdə" qalıblar. Çirkin əllərini uzadaraq, sahib çıxmaq istədiyi Ermənistanın isə "adaxlıları" olduqca çoxdur. Bir tərəfdən də ölkə daxilindəki qeyri-sabitlik Makron iqtidarının durmunu xeyli ağırlaşdırıb. Yəni Emmanuel Makronun indi vurnuxmaqdan başqa yolu qalmayıb.**



İş o yerə çatıb ki, hakimiyyətdə olduğu illərdə türk dünyasına və İslam ölkələrinə qarşı açıq düşmənçilik edən bu zat indi Orta Asiya türklərinin ayağına gedir. Yelisey sarayından verilən məlumatlarda bildirilir ki, Makronun Qazaxıstan və Özbəkistana səfəri dostluq, tərəfdaşlıq və əməkdaşlıq təşəbbüslərinin göstəricisidir: "Fransa islahatlar və modernləşmə yolunda bu iki ölkəni dəstəkləməyə, beynəlxalq əlaqələrin şaxələndirilməsinə, eləcə də onların Avropa ilə münasibətlərini gücləndirmək niyyətinə töhfə verməyə hazırdır. Qazaxıstan və Özbəkistanı Fransaya yaxınlaşdırmaqda məqsəd iqtisadi sahədə, xüsusilə enerji sektorunda, mühüm materialların tədarükü, nəqliyyat, səhiyyə, kənd təsərrüfatı və müdafiə sahələrində əməkdaşlıqdır".

*(ardı 4-cü səhifədə)*

# Yaxın Şərq: Yerüstü hərbi əməliyyatlara start verilib



Səhifə ⇨ 11

# İrəvanın yeni biznes-şousu: "Qaçqınlar"

**Xankəndidəki separatçı rejimin işbaz liderləri İrəvandakı şərikləri ilə əlbir olub Qarabağda yaşayan erməni sakinlərin sayını süni şəkildə artırmaqla məşğuldur. Onlar özəl maraqlarına xidmət edən bu "biznes proje"ni Fransada, ABŞ-da, eləcə də digər ölkələrdəki zəngin erməni diasporuna sırımaqla onlardan yüz milyonlarla dollar həcmində ianələr, humanitar yardımlar qoparıblar.**

İndi "caylarını Bakının həbsxanalarında içən" separatçı "bizmesmənlərin" sərfəli bazarı və "canlı xammalı" əllərindən çıxmış və onların İrəvana qaçmış şərikləri pul qazanmağın yeni üsulundan yararlanmağa çalışırlar. Onlar bu dəfə Ermənistana köçmüş Qarabağ ermənilərinə "qaçqın" statusu təşkil etməklə bizneslərini davam etdirmək barədə düşünürlər. Əsas məqsədləri "qaçqınların" sayını süni şəkildə çoxaltmaqla yenə xaricdəki milyarder hay "xeyriyyəçilərin" göndərəcəyi, eləcə də Ermənistanın dövlət büdcəsindən ayrılacaq maliyyə vəsaitini mənimsəməkdir.



*(ardı 4-cü səhifədə)*

# Prezident İlham Əliyev Türkiyənin milli bayramı – Respublika Günü münasibətilə paylaşım edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının yaranmasının 100-cü ildönümü münasibətilə rəsmi sosial şəbəkə hesablarında paylaşım edib.**

Dövlət başçısı Azərbaycan və Türkiyə bayraqlarının əks olunduğu foto paylaşıb.




# Qazaxıstan Respublikasının Prezidenti Zati-aliləri cənab Kasım-Jomart Tokayevə

**Hörmətli Kasım-Jomart Kemeleviç.**

Qazaxıstanın Karaqanda vilayətindəki şaxtada baş vermiş yanğın nəticəsində çox sayda insanın həlak olması barədə xəbər bizi olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Qazaxıstan xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, xəsarət alanlara şəfa diləyirəm.

**Allah rəhmət eləsin!**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 28 oktyabr 2023-cü il**

# “Xarici ölkədə çətin həyat şəraitində olan yetkinlik yaşına çatmayan Azərbaycan Respublikası vətəndaşlarının repatriasiyası və reabilitasiyası Qaydaları”nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Xarici ölkədə çətin həyat şəraitində olan yetkinlik yaşına çatmayan Azərbaycan Respublikası vətəndaşlarının repatriasiyası və reabilitasiyası Qaydaları” təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 28 oktyabr 2023-cü il**

# Baş nazir qazaxıstanlı həmkarına başsağlığı verib

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov oktyabrın 28-də Qazaxıstanın Baş naziri Alixan Smailova başsağlığı məktubu göndərib.**



Nazirlər Kabinetinin mətbuat xidmətindən verilən məlumata görə, Ə.Əsədov Karaqandada şaxtada baş verən qəza nəticəsində çoxsaylı insan itkisi xəbərini kədər hissi ilə qəbul etdiyini bildirib.

Məktubda Qazaxıstanın Baş nazirinə, eləcə də həlak olanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı ifadə edilir.

# Azərbaycanın və Rusiyanın XİN başçılarının regionda sülh məsləhətləşməsi

**Oktyabrın 28-də Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramov ilə Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov arasında telefon danışığı olub.**




Xarici İşlər Nazirliyinin Mətbuat Xidməti İdarəsindən bildiriblər ki, söhbət zamanı nazirlər Azərbaycanla Rusiya arasında əməkdaşlıq məsələləri, Azərbaycan–Ermənistan sülh prosesinin perspektivlərini, eləcə də bölgədəki cari vəziyyəti müzakirə ediblər.

Eyni zamanda, Azərbaycan ilə Ermənistan arasında suverenlik, ərazi bütövlüyü çərçivəsində münasibətlərin normallaşdırılmasının və bölgədə davamlı sülhün bərqərar edilməsinin vacibliyi vurğulanıb.

Telefon danışığı zamanı, həmçinin digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Milli Məclis Sədrinin qazaxıstanlı həmkarlarına başsağlığı

**Milli Məclisin Sədri Sahibə Qafarova Qazaxıstanın Karaqanda vilayətindəki şaxtada baş vermiş faciə ilə əlaqədar bu ölkə Parlamenti Senatının Sədri Maulen Aşimbayevə və Parlament Məclisinin sədri Yerlan Koşanova başsağlığı məktubları ünvanlayıb.**

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildiriblər ki, Milli Məclisin Sədri şəxsən öz adından və deputatlar adından hər iki spikerə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Qazaxıstan xalqına dərin hüznlə başsağlığı verərək yaralılara şəfa diləyib.

# Rəsmi Bakının Makronun əsassız və qərəzli iddialarına cavabı

**Oktyabrın 27-də Fransa prezidenti Emmanuel Makronun Avropa İttifaqı Şurasının Brüsseldə keçirilmiş iclası çərçivəsində Azərbaycana qarşı səsləndirdiyi əsassız və qərəzli iddialarını qətiyyətlə pisləyir və rədd edirik.**

Bu barədə Xarici İşlər Nazirliyinin açıqlamasında bildirilib.



Diqqətə çatdırılıb ki, onilliklər ərzində vasitəçi olarkən ölkəmizin 20 faiz ərazisinin Ermənistan tərəfindən işğalına göz yuman və ərazilərimizdə separatizmi təşviq edən Fransanın Azərbaycan tərəfini Ermənistanın ərazi bütövlüyü və suverenliyinə təhdid yaratmaqda ittiham etməsi gülünc və qəbuledilməzdir. Fransa heç vaxt uğurlu vasitəçilik səyləri aparmayıb və onun keçmiş Ermənistan-Azərbaycan münaqişəsinin həlli üzrə vasitəçiliyi Minsk qrupu ilə birlikdə başa çatıb.

Eynilə, beynəlxalq öhdəliklərə, o cümlədən, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə uyğun olaraq Azərbaycanın dəfələrlə Ermənistan silahlı qüvvələrinin çıxarılmasına, qondarma erməni rejiminin ləğvinə dair çağırışlarına baxmayaraq, Fransa tərəfi Ermənistanı beynəlxalq hüququn norma və prinsiplərinə uyğun hərəkət etməyə təşviq etmək üçün heç bir iş görməyib. Fransa Ermənistana yalan vədlər vermək əvəzinə, Ermənistana düzgün istiqamət versəydi Azərbaycana qarşı olan təhdidi güc yolu ilə həll etməyə ehtiyac olmazdı və məsələ sülh yolu ilə həll olunardı.

Fransa bölgəmizdə sülh və sabitliyə mane olan təcavüzkar Ermənistanı dəstəkləmək və silahlandırmaq məqsədi daşıyan məkrli siyasətinə son qoymalıdır.

# Hikmət Hacıyev Seyid Abbas Musəvi ilə görüşüb

**Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri üzrə şöbə müdiri Hikmət Hacıyev İranın Azərbaycandakı səfiri Seyid Abbas Musəvi ilə görüşüb.**

Bu barədə İranın Azərbaycandakı səfirliyi məlumat yayıb.

Görüşdə ikitərəfli münasibətlər, Cənubi Qafqaz regionunda baş verən proseslər və Azərbaycan–Ermənistan sülh danışıqları müzakirə edilib.

***XQ***

# Milli Məclisin deputatları PAİ-nin 147-ci Assambleyasında



**Anqolanın paytaxtı Luandada oktyabrın 23-dən 27-dək davam edən Parlamentlərarası İttifaqın (PAİ) 147-ci Assambleyası işini başa çatdırıb. Milli Məclisin deputatları tədbirdə iştirak ediblər.**

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildiriblər ki, oktyabrın 25-də PAİ-nin 147-ci Assambleyası çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin (QHPŞ) növbəti görüşü keçirilib. İclasda Azərbaycanın sədrliyi ilə Qoşulmama Hərəkatının institusional inkişafı istiqamətində həyata keçirilən mühüm tədbirlər barədə məlumat verilib, qurumun gələcək institusional inkişafı, beynəlxalq əlaqələri, üzv ölkələr arasında əməkdaşlığın təşviq olunması istiqamətində çoxşaxəli fəaliyyət istiqamətləri və digər maraq doğuran məsələlər barədə danışılıb.

Azərbaycan parlamenti tərəfindən təşkil olunan görüşdə 30 ölkədən 80-ə yaxın nümayəndə iştirak edib. İclasda çıxış edən üzv ölkələrin parlament nümayəndə heyətlərinin təmsilçiləri Azərbaycanın QHPŞ-də sədrliyinin fəaliyyətini yüksək qiymətləndirərək, Parlament Şəbəkəsinin qlobal parlament dialoqunun təşviqində, parlament diplomatiyasının inkişafında oynadığı mühüm rolundan danışıblar.

Xatırladaq ki, Parlamentlərarası İttifaqın 147-ci Assambleyasında 130-dan artıq ölkə parlamenti və 20-dən artıq beynəlxalq təşkilatın nümayəndələri iştirak edib.

Nümayəndə heyətinin üzvləri PAİ-nin daimi komitələrinin və digər qurumların iclaslarında da iştirak ediblər, gündəlikdə duran mövzulara dair münasibət bildiriblər, bir sıra məsələlərlə bağlı ölkəmizin mövqeyini təqdim ediblər.

Deputatlar Sevil Mikayılova, Kamran Bayramov, Əminə Ağazadə, Səbinə Xasayeva qurumun müxtəlif bürolarına, Şahin İsmayılov isə Gənc parlamentarilər Forumunun idarə heyətinə üzv seçilib.

Oktyabrın 27-də PAİ-nin yeni prezidenti vəzifəsinə seçkilər keçirilib və Tanzaniya Milli Assambleyasının sədri Tulia Akson qalib olub.

# Kolumbiyada “Qarabağa həyat qayıdır” mövzusunda təqdimat

**Kolumbiyanın nüfuzlu təhsil ocağı olan Santo Tomas Universitetində Türkiyə Respublikasının 100 illiyinə həsr olunmuş beynəlxalq simpozium çərçivəsində “Qarabağa həyat qayıdır: Nailiyyətlər və çağırışlar” mövzusunda təqdimat keçirilib. Azərbaycanın və Türkiyənin Kolumbiyadakı səfirliklərinin, o cümlədən, Maarif Vəqfinin təşkilatçılığı ilə baş tutmuş tədbirdə bu ölkədə akkreditə olunmuş diplomatik korpusun təmsilçiləri, akademik dairələrin nümayəndələri və tələbələr iştirak ediblər.**



Azərbaycanın Meksikadakı səfirliyindən bildiriblər ki, təqdimat zamanı Azərbaycanın dövlətçilik tarixinə qısa nəzər salınıb, cəmi 23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin müsəlman Şərqində demokratiya ənənələrinin formalaşmasına əhəmiyyətli təsir göstərdiyi qeyd edilib. Bildirilib ki, 1991-ci ildə müstəqilliyinin bərpasından sonra müxtəlif sosial-iqtisadi problemlər, siyasi qarşıdurmalar və xüsusilə erməni işğalının ağır nəticələri ilə üzləşən Azərbaycan Ümummilli lider Heydər Əliyevin zəkası, uzaqgörən daxili və xarici siyasəti nəticəsində bütün çətinlikləri dəf edərək, yeni inkişaf dövrünə qədəm qoyub, bu gün mühüm beynəlxalq nəqliyyat-enerji qovşağına çevrilib. Müasir Azərbaycan tarixinin Ulu öndərin adı ilə bağlı olduğu və xalqımızın öz xilaskarının yüzillik yubileyini böyük ehtiram və təntənə ilə qeyd etdiyi, 2023-cü ilin Azərbaycanda “Heydər Əliyev İli” elan olunduğu diqqətə çatdırılıb.

Təqdimatda Azərbaycan ərazilərinin işğalına son qoyulması və suverenliyimizin tam bərpası ilə regionda sülh üçün unikal tarixi imkan yarandığı, iki ölkə arasında sülh sazişinin bağlanması və dövlət sərhədlərinin müəyyənləşdirilməsi, eləcə də Zəngəzur dəhlizinin açılmasının bölgədə əmin-amanlığın təminatını şərtləndirəcəyi və iqtisadi dividendliyi artıracağı vurğulanıb.

# Fransa şeytanlığının “Mələk sifəti” və ermənipərəst Petel

## Parisin erməni avantürizminə “mədəni dəstək” məntiqinə sözardı

**Fransadan Ermənistana gediş-gəliş intensivləşib. Axı, həssas zamandır, Ermənistanın çaşmasına imkan vermək olmaz. Avantürizmi diri saxlamaq lazımdır ki, Paris özünün neokolonializmini Cənubi Qafqaz müstəvisinə daşıya bilsin, Afrikada itirdiklərinin yaşadığımız coğrafiyada bərpasını bacarsın.**

Görünür, elə buna görə də Fransanın xarici işlər naziri Ketrin Kolonnadan sonra ölkənin Livan əsilli mədəniyyət naziri Rima Abdul Mələk də İrəvana səfər edib. Onunla eyni təyyarədə isə Fransa Milli Assambleyasının deputatı Ann-Laurens Petel olub. O Petel ki, qatı ermənipərəstliyi bir yana, həm də Fransadakı erməni lobbisinin sözçüsüdür. Yəqin bu səbəbdəndir ki, Fransa – Ermənistan parlamentlərarası dostluq qrupunun da rəhbəridir. Hər halda, bu posta xanım Peteldən “layiqli” namizəd tapıla bilməzdi.

Zarafat deyil, fransız deputat ermənipərəstlikdə can qoyub. Necə deyərlər, həftə səkkiz, mən doqquz İrəvandadır. O, axırıncı dəfə ölkədə bu ilin oktyabrında olmuşdu. Daha əvvəl isə sentyabrda İrəvana baş çəkmiş və özünün “İnstagram” səhifəsində “təsirli” paylaşım edərək bildirmişdi ki, Qarabağdan qaçqın düşmüş şəxslərlə görüşüb: “…Arzu edənlər evlərinə qayıda bilməlidirlər. Bu, xarici işlər naziri Ketrin Kolonnanın Senatda elan etdiyi kimi, Fransanın Dağlıq Qarabağ (?) ermənilərinin geri qayıtmaq hüququnu təmin etmək üçün BMT Təhlükəsizlik Şurasına təqdim edəcəyi səsdir”.

Göründüyü kimi, xanım Petel kiçik paylaşımında belə təhrikçi mövqe tutur. Əslində, bu təhrikçilik yox, sadəcə erməni məsələsini gündəmdə saxlamaqdır. Yəni, təhrikə ehtiyac yoxdur… Deputat özünün “İnstagram” səhifəsində Azərbaycan rəhbərliyinə qarşı hədyanlar yağdırmaqdan da çəkinməyib. Bildirib ki, Bakı Qarabağdan sonra Zəngəzura keçəcək. Sanki Qarabağ Ermənistan ərazisi imiş və ölkəmiz oranı zəbt edib…

Ann-Laurens Petel ölkənin təhlükəsizliyini təmin etmək üçün Avropa İttifaqının sərhədin Ermənistan tərəfindəki mülki missiyasının sayının və əhatə dairəsinin genişləndirilməsini təklif edib. Nəzərə alsaq ki, artıq Ermənistanla Fransa arasında hərbi-texniki əməkdaşlıq haqqında yeni müqavilə var, xanım Petel sözügedən missiyanın silahlandırılmasının vacibliyini bildirsə, qətiyyən təəccüblənmərik. Hər halda, ermənipərəstliyin siyasi anarxizm doğurduğu labüd qanunauyğunluqdur.

Bəli, indi də fransız deputat çox güman, eşidib ki, ölkəsinin mədəniyyət naziri Rima Abdul Mələk Ermənistana yollanır, onunla birgə gəlməyə qərar verib. O da mümkündür ki, Peteli müsəlman nazirin yanına Fransa Prezidenti Emmanuel Makron özü salıb. Hər halda, ermənipərəst deputatın parlamentdə Makronun partiyasını təmsil etdiyi, dövlət başçısının ona sözünün keçdiyi aşkardır.

Yeri gəlmişkən, Makron-Petel yaxınlığını ikincinin “İnstagram” səhifəsindəki şəkillərdən də görmək mümkündür. 53 yaşlı xanım deputat gənc sevgililər kimi durmadan dövlət başçısı ilə foto görüntülər paylaşmaqla məşğuldur. O, ilk baxışdan Briccit nənəni – Makronun həyat yoldaşını xatırladır. Hərçənd, Briccit Peteldən nə az nə çox, düz 19 yaş böyükdür. Yəqin E.Makron artıq gənclərə üstünlük verməkdədir. Gənc də deyirik, Fransanın dövlət başçısı Peteldən beş yaş kiçikdir. Nə etmək olar, Makronun bəxtinə həmişə özündən böyüklər düşür. Elə şəkil çəkdirməkdə də. Kiçiklər isə bir qayda olaraq, Fransa prezidentini şillə-şapalağa “qonaq edirlər”. Əlqərəz, iki xanım – Ann-Laurens Petellə Rima Abdul Mələk əl-ələ verib Ermənistana dəstək göstərməyə gəliblərmiş. Onu da deməyə əsas var ki, mədəniyyət nazirini İrəvana gətizdirən erməni lobbisinin özüdür. Hər halda, harada Petel varsa, orda lobbinin olduğu aşkardır.

***

Beləliklə, Fransanın mədəniyyət naziri Ermənistana gəlib ki, Qarabağda erməni mədəni mirasının məhvini gözləri ilə görsün. Yəni, məsələni yerində araşdırsın. Diqqətli oxucularımız yəqin anladılar ki, hazırkı fransız siyasi leksikonunda faktı gözü ilə görmək, yerində araşdırmaq nə deməkdir. Bilməyənlər üçün arayış verək: araşdırmaq, faktı görmək İrəvan küçələrində beş-altı adamla, hazırda isə üç-dörd Qarabağ ermənisi ilə söhbətləşmək, Sünikə, daha doğrusu, Zəngəzura gedib iki-üç çobanı danışdırmaq, ən yaxşı halda isə durbinlə Azərbaycan tərəfə baxmaqdır. Heç narahat olmağa dəyməz, hesabatları, bir qayda olaraq, yazılı formada Parisdə iş otaqlarındakı stolun üstündə hazır vəziyyətdədir. İrəvanda isə konyak içmək, stresi atmaq və sair “vacib vəzifələr” var…

Yekun nəticə etibarilə deyə bilərik ki, nazir Rima Abdul Mələk Ermənistana erməni avantürizminin, belə demək mümkünsə, mədəni tərəflərini alovlandırmaq üçün təşrif buyurubmuş. Ona görə də Qarabağ bölgəsindəki tarixi və mədəni abidələrin təhlükə altına düşməsi ilə bağlı iddialar qaldırıb və həmin abidələri qorumaq üçün müxtəlif mexanizmlərin yaradılmasına çağırış edib. Görünür, ermənipərəst Petelin yanında olması nazir Mələyi əməlli başlı cuşa gətirib ki, belə sərsəmləmələrə yol verir. Sual olunur: Bu cür yaramaz iddialar səsləndirmək üçün İrəvana gəlmək çoxmu vacib idi? Digər tərəfdən, maraqlıdır, fransız nazir hansı beynəlxalq mexanizmlərdən bəhs edir? Mümkündürmü elə bir şey?

Deyəsən, fransalı dövlət rəsmiləri, deputatlar erməni avantürizminin içini illüziyalarla doldurmağı yaxşı bacarırlar. Bu gedişlə mədəniyyət nazirindən sonra növbə Fransanın ekologiya nazirinə çatacaq. Yəqin o da deyər ki, Qarabağda azərbaycanlıların nəfəs almaları ətraf mühitə ziyandır. Ermənilər də bundan sevincək olub bayram edərlər. Bu miskin mənzərəni tamamlamaq üçün Fransadakı kanalizasiya idarələrindən birinin rəhbərinin də Ermənistana səfəri təşkil olunmalıdır. O da gəlib desin ki, bəs Qarabağda kanalizasiyalar təmizlənmir. Bunlardan nə desən gözləmək olar. Təki Azərbaycan əleyhinə nə isə guruldasınlar. Əlbəttə, obrazlı desək, yalnız guruldamaqları var, yağa bilməyəcək qədər qısırdırlar.

***

Qayıdaq Petelə. Daha doğrusu, Petellə Rimaya. Fransız nazirin aşkar ermənipərəst mövqe tutan bir deputatla eyni təyyarədə Ermənistana səfəri, əlbəttə ki, utancverici durumdur. Ancaq nə fransızlarda, nə də ermənilərdə utanan sifət var. İkinciləri bir kənara qoyuruq, Fransanın dövlət rəsmilərində utanan sifət olsaydı,



ilk növbədə, Afrikada törətdikləri qətliamlara, insanlıq əleyhinə cinayətlərə görə üzr istəyərdilər. Hər halda, Azərbaycan yox, Afrikanı, Cənub-Şərqi Asiyanı, Sakit Okean regionunu və Latın Amerikasını müstəmləkəyə çevirən, işğala məruz qoyan Fransadır. Həmin ərazilərin təbii sərvətlərini talayan da, tarixini və mədəniyyətini silməyə çalışan da bu ölkədir. İndi fransız şeytanlığı mələk sifəti ilə Azərbaycanı ittiham yolu tutur. Bu miskinlik səhnəsini tamamlayan isə rəzillikdir. Həqiqətən də Fransa dövləti rəzil durumdadır.

***

Sonda Fransanın mədəniyyət naziri Rima Abdul Mələyin anti-Azərbaycan fikirlərindəki bir məqamın üzərində dayanaq. Bildirdiyimiz kimi, o, Qarabağda erməni mədəni mirası kimi təqdim etdiyi abidələrin qorunması üçün mexanizmlərin yaradılmasından dəm vurur. Əlbəttə ki, söhbət beynəlxalq mexanizmlərdən gedir. Yada salaq ki, oxşar “ideya” Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyi kontekstində də irəli sürülməkdədir. Bu avantürist düşüncəni tirajlayan isə həm erməni iqtidarıdır, həm də Qərbdəki ermənipərəstlər. Hər iki cinah var gücləri ilə çalışırlar ki, qaldırdıqları məsələ Azərbaycan – Ermənistan münasibətlərinin nizamlama prosesində özünə yer tapsın.

Fikrimizin təsdiqi üçün Avropa Siyasi Birliyinin bu il oktyabrın 5-də Qranadada keçirilmiş zirvə toplantısına diqqət yetirək. Tədbir çərçivəsində Ermənistanın baş naziri Nikol Paşinyanın, Fransa prezidenti E.Makronun, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin və Almaniya Kansleri Olaf Şoltsun imzaladıqları sənəd də məhz sözügedən məqamı nəzərdə tuturdu. Həmin sənədin Makronun patronajlığı ilə ərsəyə gəldiyini nəzərə alsaq və hazırda Qarabağdakı erməni mirası adı ilə göstərilən abidələr üçün “yaşam paradiqmasının” özəlliklərinə diqqət yetirsək, deyə bilərik ki, Paris bütün istiqamətlərdə Qarabağla bağlı beynəlxalq təminatın əldə olunmasına çalışmaqdadır. Deməli, məqsəd bölgənin Azərbaycana məxsusluğunu şübhələndirməkdir. Sonra da baş nazir N.Paşinyan bütün platformalarda sülhdən, ölkəmizin ərazi bütövlüyünə hörmətdən danışır. Budurmu hörmət?! Bəlkə Fransanın neokolonializm siyasətinin alətinə çevrilib Azərbaycanı ittiham etməkdir hörmət?!

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Erməni bloger açdı sandığı, tökdü pambığı

## Bako Saakyanın cinayətlərinin sayı-hesabı yox imiş

**Azərbaycanın sentyabrın 19-dan başlanan və bir sutkadan az davam edən lokal xarakterli antiterror tədbirləri təkcə ərazi bütövlüyümüzün təmin olunması, suverenliyimizin tam bərqərar olması və Qarabağ iqtisadi rayonundakı qondarma separatçı rejimin tarixin arxivinə göndərilməsi ilə nəticələnmədi. Antiterror tədbirlərinin digər mühüm nəticəsi azərbaycanlılarla ermənilər arasında millətlərarası münaqişənin qızışdırılmasında, etnik separatizmin baş qaldırmasında müstəsna rol oynayan, habelə ötən müddət ərzində qanunsuz silahlı birləşmələr yaradaraq və ya onların fəaliyyətində iştirak edərək terror əməlləri həyata keçirən, terrorçuluğu maliyyələşdirən, sülh və insanlıq əleyhinə cinayətlər törədən bəzi şəxslərin ölkəmizin hüquq-mühafizə orqanları tərəfindən həbs edilməsi oldu.**



1991-ci il dekabrın 22-də Xocalı rayonunun Meşəli kəndində azərbaycanlılara qarşı soyqırımı törətməkdə, onları deportasiya etməkdə ittiham olunan və hazırda məhkəməsi keçirilən Vaqif Xaçatryanın iyulun 29-da Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları tərəfindən saxlanılmasını da nəzərə alsaq, hazırda Azərbaycanda belə əməllər törətməkdə təqsirli bilinən 9 nəfər həbsdədir. Bunlar sentyabrın 27-də saxlanılmış Ruben Vardanyan və Davit Manukyan, sentyabrın 29-da saxlanılmış Davit Babayan və Lyova Mnatsakanyan, həmçinin oktyabrın 3-də saxlanılmış Arkadi Qukasyan, Bako Saakyan, Arayik Arutyunyan və Davit İşxanyandır.

Onların hər biri barəsində müvafiq məhkəmələr tərəfindən həbs-qətimkan tədbiri seçilib. Hazırda Dövlət Təhlükəsizliyi Xidmətinin istintaq təcridxanasında saxlanılırlar və müstəntiqlər tərəfindən sorğu-sual olunurlar. Proses başa çatdıqdan sonra müttəhimlər ədalətli şəkildə mühakimə olunacaqlar.

Biz hər kəsin təqsirsizlik prezumpsiyasının olduğunu da nəzərə alırıq. Lakin tanınmış erməni bloger Roman Bağdasaryan “YouTube” videohostinqindəki kanalında Qarabağda mövcud olmuş separatçı xunta rejiminin ikinci “qlavarı” Bako Saakyan haqqında elə təkzibedilməz faktlar açıqlayıb ki, həmin faktlar Saakyanı məhkəmə qərarı olmadan da cinayətkar adlandırmağa əsas verir.

Qeyd olunub ki, B.Saakyan 1960-cı ildə Azərbaycan SSR-in keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin mərkəzi Xankəndi şəhərində anadan olub. 1977-ci ildə şəhərdəki 1 saylı orta məktəbi bitirib. 1978–1980-ci illərdə sovet ordusu sıralarında müddətli xidmət keçib. Xidməti başa vurduqdan sonra 1981-ci ildə Xankəndi 9 saylı mexanikləşdirilmiş istehsalat kombinatında çilingər-mexanik işləyib, 1982-ci ildə Xankəndi tikinti materialları zavoduna keçirilib. 1983–1987-ci illərdə qədim abidələrin bərpası elmi idarəsinin Xankəndi filialında usta-restavrator, 1987–1990-cı illərdə vilayət təchizat idarəsində tədarükçü işləyib.

B.Saakyan separatçıların 1988-ci ildə Qarabağın Azərbaycandan ayrılması istiqamətində başladıqları qanlı hərəkatın fəallarından biri kimi tanınıb. O, 1990-cı ildə “dqr özünümüdafiə qüvvələri” sıralarına qoşulub. 1992–1993-cü illərdə “özünümüdafiə qüvvələri” komitəsinin arxa cəbhə üzrə rəis müavini, 1993–1995-ci illərdə maddi-texniki təchizat üzrə qərargah rəisi, 1995–1996-cı illərdə “dqr müdafiə ordusu” komandanının xarici əlaqələr üzrə müavini, 1996–1997-ci illərdə 10-cu dağ-atıcı diviziyasının arxa cəbhə üzrə komandirinin müavini olub. 1997–1999-cu illərdə Ermənistan daxili işlər və milli təhlükəsizlik nazirinin köməkçisi olub. 1999–2001-ci illərdə “dqr”in “daxili işlər”, 2001–2007-ci illərdə “milli təhlükəsizlik naziri vəzifəsində” çalışıb.

2007-ci il iyulun 19-da Qarabağ separatçıları onu özlərinə yeni “qlavar” seçiblər. Beş il sonra – 2012-ci il iyulun 19-da o, “ikinci müddətə” “dqr”ə başçılıq etməyə başlayıb. Saakyan 2017-ci il iyulun 19-da 33 “parlament üzvü”ndən 28-nin səsini alaraq daha 3 il müddətinə “vəzifə kürsüsünü” əlində saxlamağı bacarıb. Beləliklə, heç bir hərbi təhsili olmadan general rütbəsi daşıyan, heç bir ali məktəbdə oxumayan (çox sonralar “Artsax dövlət universiteti”ndən diplom alıb– S.H.) Saakyan separatçı rejimə hamıdan çox – düz 13 il rəhbərlik edib.

Onun xunta rejiminə başçlıq etdiyi dövrdə bir sıra cinayətlər törədilib ki, R.Bağdasaryan da həmin cinayətlərdən bəhs edib. Qeyd edib ki, B.Saakyan cinayətkar Qarabağ klanının “ən görkəmli” nümayəndələrindən biridir: “Qarabağ klanının bütün üzvləri namusu və vicdanı olmayan oğrular və fırıldaqçılardır. Onlar Azərbaycanın işğal olunmuş ərazilərini talamaqla kapital qazanaraq, Ermənistanı və erməni ordusunu da talayıblar. Bako Saakyan 2020-ci ilədək yalan və fırıldaq yolu ilə “hakimiyyətini” qoruyub saxlayıb. Bütün bu illər ərzində o, arzuolunmaz adamları həbsdə çürüdüb, biznesmenlərə ağır işgəncələr verib. Onun cangüdənləri çox sayda insanları döyərək öldürüblər. O, Qarabağda quldarlıq rejimi tətbiq etmişdi. İnsanlar onun mütəşəkkil cinayətkarlığın girovuna çevrilmişdi. Saakyan Qarabağı bütün yaxşı və layiqli insanların öldürüldüyü qara zonaya çevirmişdi”.

R.Bağdasaryan qeyd edib ki, B.Saakyan biznesmen Levon Ayrapetyanı aldadaraq, onun pullarını mənimsəmiş adamdır: “Ayrapetyan bütün obyektlərin inşasını ona etibar etmişdi. Demək olar ki, inşaat üzrə bütün tenderlərə Saakyanın mafiyası nəzarət edirdi. Tenderlərdə Saakyanın öz adamları “qalib gəlirdilər” və tikinti işləri zamanı ayrılan vəsaitin 40 faizi Saakyanın cibinə axırdı. Bütün bu illər ərzində Bako Ermənistanın büdcəsindən Qarabağa ayrılan vəsaiti talan edirdi və erməni vergi ödəyicilərinin, necə deyərlər, üzünə tüpürürdü. Saakyanın idarə etdiyi illərdə kəndlilərdən brüsselyoz xəstəliyinə yoluxduğu adı ilə inəkləri müsadirə etdilər. Bununla da o, öz inhisarını yaratdı. Kəndlilərin ümid yeri mal-qara idi, Saakyan isə onları quldur kimi müsadirə etdi”.

R.Bağdasaryan qeyd edib ki, Şuşa həbsxanasında və Qarabağdakı digər həbsxanalarda əsl cəhənnəmi məhz B.Saakyan yaratmışdı: “Burada insanları döyür və öldürürdülər. Saakyanın diktaturası dövründə Ermənistandan olan xeyli sayda əsgər burada və hərbi hissələrdə öldürülüb”.

Bloger B.Saakyanın ABŞ-a səfər etdiyini və orada “Artsax xalqı” adına hər il telemarafonlarda pul topladığını bildirib: “Artıq hamıya məlumdur ki, Saakyan həbs ərəfəsində bütün hesabatları yandırıb. O, erməni diasporunu da aldadıb və talan edib. Saakyan oğru və yaramazdır. Onun üçün müqəddəs heç nə yoxdur. İnsanların iztirabları üzərində nəhəng sərvət toplayıb. O, ağıllı, güclü və dürüst adamlara həmişə nifrət edirdi. Çünki belə insanlar qarşısında heç kim olduğunu dərk edirdi. O, bütün situasiyalarda özünü qorxaq çaqqal kimi aparırdı. 2016-cı ilin aprel döyüşləri zamanı Qarabağın bütün “özünümüdafiə ordusu”nu rüsvay etdi. Həmin hadisələr zamanı Saakyan 4 gün zirzəmidə gizlənmişdi”.

Bloger B.Saakyanın narkotik vasitələrdən istifadə etdiyini də qeyd edib. Bildirib ki, B.Saakyan 2018-ci ildə Ermənistanda baş tutan “məxməri inqilab”a və baş nazir Nikol Paşinyana nifrət etsə də onların üzünə gülüb, arxada isə onların əleyhinə fəaliyyət göstərib.

R.Bağdasaryan B.Saakyanın İrəvanda çox sayda obyektə malik olduğunu vurğulayıb. Qeyd edib ki, bunlar Moskovyan küçəsindəki ticarət mərkəzi, “Ramada” oteli və digərləridir. Ancaq onun oteli Qarabağdan Ermənistana köçən bir nəfəri belə öz otaqlarında yerləşdirməyib. Bloger sonda bildirib ki, B.Saakyan indi həbsdədir və azərbaycanlılara qarşı törətdiyi cinayətlərlə yanaşı erməni xalqının başına gətirdiyi bəlalara görə də cavab verməlidir.

***Səxavət HƏMİD***
***XQ***

### Ekspert rəyi



**İlyas HÜSEYNOV,**
**politoloq**

**– Roman Bağdasaryan Bako Saakyanla bağlı ifşaedici materialda həqiqətləri çatdırır. Amma Saakyanın Qarabağ ermənilərini öz məqsədləri üçün istismar etməsini, onları girovluqda saxlamasını biz illərdir ki, deyirdik. Biz uzun illər deyirdik ki, Qarabağ erməniləri rəhbərlikdə olan saxtakar, terrorçu, cinayətkar ünsürləri aradan götürməlidir. Azad, sərbəst, Azərbaycan vətəndaşı kimi yaşamalıdırlar. Əlbəttə, biz çox yaxşı bilirdik ki, Saakyan burada 13 il ərzində hansı cinayətləri törədib, hansı sifarişləri yerinə yetirib, hansı mərkəzlərdən təlimatlar alıb. Arayik Arutyunyanın təyinatı zamanı Saakyan böyük zərbə aldı. Lakin elə sərt tabeçilik sistemi qurmuşdu ki, hələ də bir sıra sahələri idarə edir, onları inhisarında saxlayırdı. O, postundan getdikdən sonra da Qarabağda vacib fiqur olaraq qalmaqda idi. Çünki onun başçılığı təkcə 13 illə məhdudlaşmır. Saakyan Qarabağın işğalında yaraqlıların komandiri kimi iştirak etmişdi. Müxtəlif sahələrə öz adamlarını yerləşdirmiş, korrupsiya sistemi qurmuş, dünya erməniliyindən milyonlarla dollar vəsait cəlb etmiş, daha sonra onu mənimsəmiş, Ermənistanın dövlət büdcəsindən Qarabağa axan pulların çoxunu da ələ keçirmişdi.**

**Bu gün onların həbs olunması Azərbaycan dövlətinin böyük uğurudur. İstintaqın bizim bilmədiyimiz, təxmin etmədiyimiz məlumatları da üzə çıxarması mümkündür. Amma açıq mənbələrdə olan təkzibedilməz faktlar da onların cinayətkar əməllərinin ifşası baxımından mühüm əhəmiyyət daşıyır. Onlar qanuni şəkildə mühakimə olunacaqlar. Bütün bu proses, onların cəzalarına çatdırılması haqqı-hüququ pozulan şəxslərin də ürəyincə olacaq.**

# İrəvanın yeni biznes-şousu: “Qaçqınlar”

## Bu “çirkli biznes”in təşkilatçısı Ermənistan hakimiyyətidir



(əvvəli 1-ci səhifədə)

“Ermənistan Qarabağı tərk edən ermənilərə həm ölkə daxilində güzəştli şərlərlə yaşamaları, həm də beynəlxalq müstəvidə hüquqlarının qorunması üçün onlara status verməyə hazırlaşır”. Bunu dörd gün əvvəl Ermənistan baş naziri Nikol Paşinyan parlamentin iclasında ənənəvi hökumət saatında deputatların suallarını cavablandırarkən deyib. Baş nazir Azərbaycan Ordusunun həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən sonra könüllü şəkildə bölgəni tərk edərək Ermənistanda yaşamağa qərar verən ermənilərə “müvəqqəti müdafiə” statusu veriləcəyini söyləyib. Amma bu zaman statusun əsas mahiyyəti və onun hansı kriteriyalarla müəyyən ediləcəyini açıqlamayıb. Hayastanın baş naziri onu da parlamentarilərin nəzərinə çatdırıb ki, bu məsələ ilə bağlı yekun qərar Ermənistan hökumətinin növbəti iclasında veriləcək. Onun sözlərinə görə, artıq işlənib hazırlanmış həmin qərar layihəsi bir neçə dəfə müxtəlif formatlarda müzakirə olunub.

Paşinyan açıq mətnlə bildirməsə də, Qarabağı tərk edərək, Ermənistanda yaşamağı seçən ermənilərə “qaçqın statusu” verməyi düşünür. Baş nazir “müvəqqəti müdafiə” adı altında nəyi nəzərdə tutduğunu açıqlamasa da, söhbətin Qarabağ ermənilərinə məhz “qaçqın statusu”-nun verilməsindən getdiyi aydındır. Guya, bu addım həm milli, həm də beynəlxalq səviyyədə onların hüquqlarının maksimum dərəcədə müdafiəsinə imkan verəcək. “Hər halda, bizim hüquqşünaslarımız belə bir qənaətə gəliblər”, – Paşinyan bunu parlamentdəki çıxışında bildirib.

Baş nazirin ardınca ədliyyə naziri Qriqor Minasyan da hökumətin Qarabağdan köçmüş erməniləri rəsmən “qaçqın” olaraq tanıdığını bəyan edib. Onun sözlərinə görə, “müvəqqəti mühafizəyə” götürülməsi və qaçqın kimi tanınması üçün Qarabağ erməniləri 3 meyarla təyin edilib: 1) Qarabağda əhalinin reyestrində qeydiyyatda olan şəxslər (yəni sovet dönəmindən orada yaşayan yerli ermənilər- red.); 2) Ermənistan ərazisində və ya onun hüdudlarından kənarda yaşayan, son qeydiyyat ünvanı Qarabağ olan şəxslər (1988-ci il fevral ayından sonra əhalinin sayını artırmaq məqsədilə ora yerləşdirilən ermənilər – red.); 3) Qarabağın erməni əhalisinin reyestrində qeydiyyata alınmayan, amma “Dağlıq Qarabağda” (?) yaşamış və 2023-cü il sentyabrın 19-da “hərbi əməliyyatlar” (?) nəticəsində məcburi köçkün kimi Qeydiyyat xidməti tərəfindən qeydə alınmış şəxslər (sonuncu qrup Ermənistan hökümətinin Livan, Suriya, İraq ərazisindən Qarabağa gətirib, onlar üçün qəsəbələr tikib məskunlaşdırdığı ermənilərdir -red.). Q.Minasyan vurğulayıb ki, layihənin qəbulu onların hüquq və qanuni mənafelərini qorumaq məqsədilə “Dağlıq Qarabağdan” (?) məcburi köçkünlərin müəyyən qrupunun “müvəqqəti mühafizəyə” götürülməsinə imkan yaradacaq.

Oxucuların nəzərinə çatdıraq ki, Qaçqınların statusu haqqında 1951-ci il Konvensiyasında “qaçqın” anlayışı təsbit olunur və digər məqamlarla yanaşı, “beynəlxalq sərhədi keçən insan” anlayışı qabardılır. Bu, o deməkdir ki, indi Qarabağdan köçmüş şəxslərə qaçqın statusu verməklə Ermənistan onların gəldiyi ərazilərin başqa dövlətə, yəni Azərbaycana məxsusluğunu, eləcə də dövlətlərarası sərhədi keçdiyini rəsmən etiraf edir. İndi Hayastan hökuməti 100 min “qaçqından” danışır. Amma, əslində, əvvəlcə bu ərazidə yaşamış şəxslərin kateqoriyaları müəyyən edilməlidir. Qarabağda məskunlaşmış insanların xeyli hissəsi xarici dövlətlərin vətəndaşlarıdır. Bu gün rəsmi İrəvan bəyan edir ki, Qarabağdan Ermənistana köçənlərin 10 mini xaricə gedib. Elə bu faktın özü onu təsdiqləyir ki, həmin sakinlərin cibində vaxtilə gəldikləri xarici ölkələrin pasportları var. Və onlar indi İrəvandan aldanıb çıxdıqları “ilkin vətənlərinə” dönməkdə çətinlik çəkmirlər.

Hazırda Bakıda istintaq altında olan separatçıların keçmiş “silahdaşlarının” verdikləri ifadələrlə bir daha təsbit olunur ki, Qarabağda Ermənistan ordusunun 15 minə yaxın hərbi qulluqçusu olub. Onların ailə üzvlərini də saysaq, ortaya 30-40 minlik rəqəm çıxır. Bunların üzərinə işğaldan sonra əraziyə köçürülən, qanunsuz məskunlaşma yolu ilə oraya yerləşdirilən təxminən, 20 min “qonağı” da gəlmək lazımdır. Qanunsuz məskunlaşma cinayət sayıldığına görə, gəlmələrin mülkiyyət hüququ kimi qaçqın statusu da tanınmır. Belə məlum olur ki, 30 il əvvəldən Qarabağda yaşayan yerli ermənilərin sayı, təxminən, 30-35 minə yaxındır. Məntiqlə qaçqın statusu yalnız bu şəxslərə verilə bilər. Amma burada da bir “əmma” var. Qarabağı tərk edərək Ermənistanda yaşamağı seçən ermənilərə qaçqın statusu veriləcəyi halda ortaya belə bir sual çıxacaq: həmin ermənilər hansı dövlətdən qaçıblar? Ermənilər üçün bu sualın iki cavabı ola bilər: Azərbaycandan, yaxud “Artsax”dan. Birinci variantda onlar müstəqil Azərbaycanın vətəndaşlığını qəbul etməyiblər. Əgər qəbul ediblərsə və bunu pasportları ilə təsdiq edə bilirlərsə, onlara qaçqın statusu verilə bilər. İntəhası, Qarabağı könüllü tərk etmiş ermənilərin heç biri nə faktiki, nə də hüquqi cəhətdən Azərbaycan vətəndaşı olmayıb. Belə olan halda onlara Azərbaycan ərazisindən qaçqın düşmüş şəxs statusu verilə bilməz. Bunun heç bir beynəlxalq hüquqi əsası yoxdur. İkinci varianta gəldikdə isə dünyada “Artsax” adında dövlət olmayıb və yoxdur. Hətta, rəsmi İrəvanın özü bu qondarma “respublikanı” tanımır. Yəni, “Artsax respublikasının vətəndaşı” kimi dünyaya təqdim etməyə çalışdıqları ermənilərə qaçqın statusu verilə bilməz.

Hayastan mediası və rəsmi orqanları son günlərədək Qarabağı könüllü tərk etmiş erməniləri “məcburi köçkün” kimi qeyd edirdilər. İndi isə guya, onların hüquqlarını qorumaq, beynəlxalq səviyyədə təminatlarını təşkil etmək üçün “qaçqın statusu” variantını ortaya atıblar. Nə beynəlxalq hüquq, nə də siyasi məntiq baxımından heç yerə sığmayan bu avantüranı da İrəvanın Bakıya təzyiq üsulu kimi düşündüyü gedişdir. Amma, bundan əvvəlkilər kimi, siyasi rəng verməyə çalışdıqları “qaçqın statusu” biznes-şousunun da tezliklə iflasa uğrayacağı indidən məlumdur.

***İmran BƏDİRXANLI***
***XQ***

### Ekspert rəyi



**Zaur MƏMMƏDOV,**
**politoloq:**

**Qarabağdan Ermənistana, oradan isə xaricə köçən ermənilər bəlli məsələdir ki, yaxşı həyat yaşamağı qarşılarına məqsəd qoyublar. Onlar 30 il ərzində Qarabağda separatçıların girovuna çevrilmişdilər. Əhali ilə doğru-düzgün rəftar olunmurdu. Qarabağdan könüllü çıxan ermənilər beynəlxalq hüquqa görə qaçqın sayılmır.**

**Qarabağda yaşayan ermənilərin orada qalmasının əsas səbəbi ondan ibarətdir ki, yerli sakinlər müxtəlif vədlərlə aldadılıblar. Hazırda onların böyük qismi Ermənistandadır. Məlumatlara görə, həmin şəxslər gələcəkdə harada yaşayacaqlarını götür-qoy edirlər. Harada yaşayacaqlarından asılı olmayaraq, onlar qaçqın kimi qəbul edilməyəcəklər. Xarici ölkələrlə yanaşı, Ermənistanın özündə də qaçqın statusu ala bilməyəcəklər. Beynəlxalq hüquqa görə, Qarabağdan köçən ermənilər qaçqın sayılmır. Çünki Azərbaycan onları qovmayıb, güclə çıxartmayıb. Könüllü şəkildə bölgəni tərk ediblər. Bununla bağlı Azərbaycanın əlində kifayət qədər dəllil var. Onlardan götürülən müsahibələrdə ermənilər bildiriblər ki, bu addımı könüllü şəkildə atırlar. Separatçıların bölgədə qurduqları mühit ona gətirib çıxardı ki, ermənilər Qarabağdan, faktiki olaraq bu separatçıların əlindən qaçdılar. Düzdür, indi hər hansı yalan və bəhanələr uydura bilərlər. Hər halda, bu, zorla qovulma və etnik təmizləmə deyil.**

### Ekspert rəyi



**Asif NƏRİMANLI,**
**siyasi analitik:**

**Ermənistan hakimiyyəti Qarabağdan qayıdan ermənilərə vətəndaşlıq yox, “qaçqın statusu” verir. Burada iki məqsəd güdülür: birincisi, siyasi hədəfdir ki, “qaçqınların qayıdışını” Bakıya qarşı təzyiq aləti kimi ehtiyatda saxlamaq. Həm də Qərbi Azərbaycandan deportasiya olunan soydaşlarımızın geri qayıtması məsələsində “ermənilərin də Qarabağa qayıdışı” iddiasını irəli sürmək. İkincisi, əlbəttə ki, iqtisadi maraqdır: Qərbdən “erməni qaçqınlara yardım” adı ilə milyonlarla avro maliyə vəsaiti almaq. Hərçənd, ermənilərin “qaçqın statusu” beynəlxalq hüquqda özünün təsbitini tapmır.**

**Həmin hüquqa görə, “qaçqın “irqi, dini, milli mənsubiyyətə, mənşəyinə görə təqib olunacağından qorxduğu üçün ölkəsinə qayıda bilməyən, yaxud qayıtmaq istəməyən şəxsə” deyilir. Bu səbəbdən, Qarabağdan Ermənistana köçən, daha doğrusu, qayıdan ermənilər “qaçqın” statusu ala bilməz. Qarabağ ermənilərinin “qaçqın statusu” alması üçün onların “öz ölkələrini” tərk etmələri lazımdır. Onların “ölkə” dediyi ərazi isə beynəlxalq hüquqa əsasən Azərbaycan ərazisidir. Yəni, hayların “ölkə” adlandırdıqları qondarma separatçı rejimi beynəlxalq hüquq tanımır. Qarabağın keçmiş erməni sakinlərinin bir qisminin mənsub olduğu hüquqi sənəd separatçıların onlara verdiyi qondarma pasportdur ki, o da kağız parçasından başqa bir şey deyil. Əksəriyyəti Ermənistan pasportu daşıyıb. Bu fakt isə ermənilərin “öz ölkələrini” tərk etmədiyini, sadəcə, vətəndaşı olduqları ölkəyə qayıtdığını sübut edir.**

### Ekspert rəyi



**Fərhad MEHDİYEV,**
**beynəlxalq hüquq**
**üzrə professor:**

**Qondarma “dqr” tanınmadığı üçün Qarabağda yaşayan ermənilər xaricə Ermənistan pasportu ilə gedirdilər. Beləliklə, Qarabağdakı ermənilərin böyük əksəriyyəti xaricdə de-yure Ermənistan vətəndaşı kimi qəbul edilir. Axı Ermənistan vətəndaşına hansı hüquqla qaçqın statusu verilə bilər?**

**Digər tərəfdən, Ermənistan özü də pasport verdiyi və hətta vermədiyi Qarabağdan köçən ermənilərə qaçqın statusu verə bilməz. Çünki bu status yaşadığı yerdən məcburi şəkildə köçən şəxslərə verilir. Amma ermənilər bu əraziləri məcburi yox, könüllü şəkildə tərk ediblər. Məlum məsələdir ki, Azərbaycan həmin şəxsləri qovmayıb, əksinə, bölgədə qalmalarını təklif edib. Ona görə də onlara qaçqın statusunun verilməsinin doğru olmadığını düşünürəm. Həmin statusu almaq üçün beynəlxalq tribunallara müraciət etmək mümkün deyil. Amma nümunə kimi deyək ki, Almaniya həmin şəxslərə qaçqın olaraq viza vermək istəsə, bunu edə bilər. Fransanın təşəbbüsü ilə BMT-nin İnsan Hüquqları Şurasında Qarabağdan Ermənistana köçən erməni əhalisinə “qaçqın statusu”nun verilməsi ilə bağlı Azərbaycan əleyhinə bəyanat qəbul olunub. Fəqət bu qərardan öncə nəzərə alınmalı idi ki, ermənilər Qarabağdan könüllü və təhlükəsiz şəraitdə, bir nəfər yaralanmadan, oğurlanmadan, evləri yandırılmadan köçüblər. Onlar sadəcə olaraq Azərbaycan ərazisində yaşamaq istəməyiblər...**

# Makronun minnət dolu Orta Asiya turnesi

## Əgər onun məqsədi urandırsa, Azərbaycana da üz tutacaq...

*(əvvəli 1-ci səhifədə)*

Maraqlıdır, niyə bu təşəbbüslər bir il, iki il əvvəl yada düşmürdü? Cavab sadədir: çünki o vaxta qədər Afrikadan istədiyi qədər uran gətirə bilirdi. Bəli, bu, həqiqətdir. Bəzi ekspertlər yazırlar ki, Emmanuel Makron Afrikada itirdiyi uran ehtiyatlarının əvəzini Orta Asiyada bərpa etmək istəyir. Çox əcəb! Qazax və özbək qardaşlarımız öz ölkələrinin təbii sərvətlərini kiməsə satmalıdırlar. Belə bir müştərini isə axtarmağa ehtiyac olmayıb, özü öz ayağı ilə gəlib çıxıb. Türk qardaşlarımıza “bazar olsun!” – deyirik. Makrona isə xüsusi xatırlatmamız var.

Cənab Makron yəqin unutmayıb ki, beynəlxalq aləmdə mövcud olan aviasiya daşımaları haqqında qanun



və əsasnamələrə görə, uran adlı materialın hava yolları ilə daşınması qadağandır. Yəni bu vasitələr əlinizdən çıxıb. Odur ki, siz Orta Asiyadan almaq istədiyiniz malları ya Rusiya ərazisindən, ya da Azərbaycandan keçməklə aparmalı olacaqsınız. Moskva ilə münasibətləri hansı səviyyəyə gətirdiyinizi hamıdan yaxşı özünüz bilirsiniz. Dövri olaraq səsləndirdiyiniz anti-Rusiya bəyanatları və açıq düşmənçilik səviyyəsində olan addımlarınız sizin üçün Rusiya yolunu birdəfəlik bağlayıb. Ona görə də çıxış yolu ancaq Azərbaycandan xahiş etməkdədir. Yəni “bazarlığınızı” Orta Dəhlizə – Xəzər dənizindən keçərək Azərbaycan üzərindən Avropaya gedən yola “etibar” edə bilərsiniz. Ancaq siz Azərbaycan yollarına etibar etsəniz də, son beş-altı ildəki məzmunsuz və mənasız düşmənçilik münasibətlərinizə görə Azərbaycanın sizə etibar edəcəyi o qədər də gözlənilən deyil. Hər halda, cəhd eləmək hələ heç nəyi itirmək demək deyil. Odur ki, əgər Daşkənddə və Astanada bazarlığınız alınarsa, onda Azərbaycan qarşısında üzrxahlıq etməkdən çəkinməyin.

Xatırlayırsınızsa, siz onsuz da Cənubi Qafqaza gəlmək, Ermənistandan alət kimi istifadə etmək yolunu tutmuşdunuz. İndi həmin yol da bağlanıb, o alətdən isə başqaları istifadə edəcəklər. Azərbaycanın yol imkanları isə çoxdur, lap çox.

Əlavə edək ki, Fransa Prezidenti Emmanuel Makron noyabrın 1-də Qazaxıstana, noyabrın 2-də Özbəkistana gedəcək.

Mövzuya bir əlavəmiz də var. Bu sətirləri qələmə alarkən elektron informasiya vasitələrindən birində oxuduq: “Makronun Misirdə hücuma məruz qalması, yumurta “yağışına” tutulması da ümummüsəlman münasibətlərinə görədir… Fransa prezidenti Emmanuel Makron Misirdə naməlum şəxsin hücumuna məruz qalıb. Bu barədə görüntülər sosial şəbəkələrdə yayılıb. İsraildən sonra Misirə səfər edən Makrona naməlum şəxs tərəfindən yumurta atılıb. Mühafizəçilər Makronu növbəti zərbədən qorumaq üçün onu tutublar”.

İndi iş elə gətirib ki, özbək və qazaxlar da Makronun illər boyu təhqir etdiyi və təzyiq göstərməyə çalışdığı müsəlmanıların və türklərin təmsilçiləridir.

Türklər də, müsəlmanlar da tarix boyu ayaqlarına gələn çox günahkarı bağışlayıblar. İndi zəmanə dəyişib. Bunun da günahkarı müsyö Makron özüdür.

***İttifaq MİRZƏBƏYLİ***
***XQ***

# Heydər Əliyev: Gürcüstanda yaşayan azərbaycanlılar aborigen xalqdır

*Müsahibimiz Borçalının tanınmış ziyalısı, ədəbiyyatşünas Mahmud Kamaloğludur*



**Onunla ötən il Türkiyənin Ərzincan şəhərində keçirilən "Türk Dünyası: Kecmişdən gələcəyə" beynəlxalq simpoziumunda tanış olmuşduq. İş elə gətirdi ki, bir il sonra Tbilisidəki görüşümüz də Ərzincan səfərimdən qayıtmağıma təsadüf etdi.**

Ərzincan toplantısı zamanı sadəliliyi və səmimiyyəti ilə tədbir iştirakçılarının könlünü fəth edən Mahmud müəllim yaddaşımda elə ilk görüşdən də doğma bir insan kimi qaldı. Sanki, min illərin tanışları idik. Gürcüstanın Marneuli (tarixi adı Sarvan olub) rayonunun Keşəli kəndində doğulan Mahmud Kamaloğlu Hacıxəlilov Tbilisi Pedaqoji İnstitunun filologiya fakültəsini bitirdikdən sonra doğma kəndlərində müəllim, "Sovet Gürcüstanı" (indi "Gürcüstan") qəzetində müxbir, şöbə müdiri vəzifələrində çalışıb. Sonra elmi-pedaqoji fəaliyyətlə məşğul olub. Filologiya üzrə fəlsəfə doktoru, professordur. Gürcüstanın bir sıra ali təhsil ocaqlarında dekan, prorektor vəzifələrində çalışıb. Hazırda Ukrayna – Gürcüstan Beynəlxalaq Elmi-Tədris İnstitunun prorektordur.

Tbilisidə azərbaycanlıların əsas ünsiyyət yeri olan mərkəzi meydanda – Ümummilli lider Heydər Əliyevin büstünün yerləşdiyi parkda görüşdük. Söhbətə onunla balşadıq ki, Ulu öndər sağlığında olduğu kimi, bu gün də bizi birləşdirir:

– Bura Tiflisdə soydaşlarımızın əsrlər boyu məskunlaşdığı yeridir. Ulu öndərin büstünün burada qoyulması da bu baxımdan rəmzi məna daşıyır. Əvvəllər bu yerə "Meydan" deyilirdi. İndi isə Heydər Əliyev parkı kimi tanınır. Burada başını qaldırıb hansı səmtə baxsan qoca tariximizin silinməyən izlərinə şahid olursan. Bütün bunların bu günə gəlib çatması Ulu öndərin adı ilə bağlıdır. Heydər Əliyev Azərbaycanda hakimiyyətə gələnədək Tbilisidə bir sıra milli abidələrimiz sistemli şəkildə məhv edilib.

Yeri gəlmişkən deyim ki, bir zaman Xan qızı Natəvanın incə təxəyyülünü və ilhamını çoşduran Tiflis mənzərələrindən onun öz əlləri ilə çəkdiyi "Kür qırağı", "Metex qalası", "Narınqala", "Müctəhid bağı", "Şeyx Sənan dağı" kimi tarixi abidələrin əksi bizə gəlib çatıb. Şah Abbas kimi türk hökmdarlarının ruhu dolaşan bu yurd yerimizin tarixi o qədər zəngindir ki, indi gözümüzlə gördüklərimiz onun kiçik bir hissəsidir. Heyrətlə baxdığımız Metex qalasi, əslində, Mehdi qalasıdır, turk paşasının adını daşıyıb. 1819-cu ildə qalanı dağıdıb elə onun daşları ilə də dustaqxana tikiblər. 1938-ci ildə dustaqxana ləğv olunub, 1941–1945-ci illər müharibəsindən sonra sökülüb. Ötən əsrin 60-cı illərində Metex qalasının dayağı üzərində Vaxtanq Qorqasalın at belində heykəli qoyulub. Bu yerdə qədimdə türklərə məxsus "Narınqala" olub.

Aşağıda Kürün sahillərini birləşdirən Metex körpüsü üzərindən bir vaxtlar yalnız piyadalar və yük heyvanları hərəkət edirdi. Buna görə də tiflislilər bu yerə "Eşşək körpüsü" deyiblər. Ötən əsrin 50-ci illərinin əvvəlində yeni körpü salınanda Metex qalası ilə üzbəüz sal qaya üzərindəki keçmiş tikililər məhv edilib. Burada yaşayış binaları ilə yanaşı, Kürün sahilindəki karvansaralar, "Şah Abbas məscidi" də uçurulub. Bir maraqlı faktı da xatırladım ki, Bağdad Universitetinin məzunu, Qafqaz müsəlmanlarının ilk şeyxülislamı olmuş Məhəmmədəli Hüseynzadə həmin məsciddə axundluq edib.

Şeyxülislam olaraq Qafqazda böyük nüfuz qazanan Məhəmmədəli Hüseynzadə görkəmli publisist, yazıçı və ideoloq Əli bəy Hüseynzadənin babasıdır. Kürün dəli suları səngiyib aşağı düşəndə divarlarınının bəzi nişanələri görünən "Şah Abbas məscidi"nin əksi o dövrün rəsmlərində və fotolarında qalıb.

Bu məkanın Azərbaycan türklərinin tarixi məskəni olduğunu təsdiqləyən faktlar saysız-hesabsızdır. Qafqazın ən qaynar ticarət mərkəzi olmuş "Şeytanbazar", "Göy məscid"in qalıqları, "Narınqala" səmtində "Cümə məscidi", 150 illik tarixi olan Tiflis Azərbaycan Teatrı, "Nəbatat bağı"nda isə azərbaycanlıların məzarlığı təkcə dünənimiz deyil, həm də şərəf duyduğumuz bir tarixin yadigarlarıdır. Şübhəsiz, Heydər Əliyevin Gürcüstandakı tarixi irsimizə diqqət və qayğısı olmasaydı bunlar da məhv edilərdi. Ulu öndər Moskvadakı və regiondakı nüfuzu ilə bu dağıdıcı prosesin qarşısını almışdı.

***– Mahmud müəllim, Ümummilli lider Heydər Əliyevin bu missiyasının davamı olaraq qarşıda hansı zəruri işlər dayanır?***

– Əlbəttə, bu tarixi yadigarların qorunub saxlanılması, eləcə də tanıdılmasının tarixi önəmi var. Həm də bu dəyərlərə biz sahib çıxmasaq qeyri birisi gəlib bunu edən deyil. Vaxtilə dahi ədiblərimizin əsərlərində, tarixçilərin qeydlərində bu abidələr barədə bizə əhatəli məlumat çatıb. Amma bu zəngin irsin lazımi səviyyədə qorunması mümkün olmayıb. 1950-ci illərdə Metex qalası önündəki karvansaralar, Qafqazın ən gözəl məscid-camelərindən olan "Şah Abbas məscidi" Lavrenti Beriyanın əmri ilə dağıdılanda bunun qarşısını almaq mümkün olmayıb.

Amma xalq dəyərlərini mümkün qədər qorumağa, ona sahib çıxmağa çalışıb. Müasir Tiflisin fəaliyyətdə olan yeganə müsəlman ibadətgahı "Cümə məscidi" XVIII əsrin əvvəllərində osmanlılar dövründə inşa edilib, sonradan dağıdılıb. Şəhərin "Narınqala" səmtində qırmızı kərpicdən tikilmiş məscid iki mehrabı və iki minbəri olan memarlıq abidəsidir. 1864-cü ildə Hacı Zeynalabdin Tağıyevin ianəsi ilə təmir edilən məscid son dəfə Ulu öndərin göstərişi ilə 1998-ci ildə bərpa olunub. Böyük rəhbərin bu missiyasını daha da genişləndirmək üçün imkanlı adamlarımız irəli durmalıdırlar.

***– Bir vaxtlar öz sözünü demiş Tiflis ədəbi mühitinin canlandırılması, mədəni irsimizin dərindən öyrənilməsi də önəmli vəzifələrdir.***

– İndi dayandığımız və xoş duyğularla seyr etdiyimiz Şeytanbazar məhəlləsində, məhz bu tarixi məkanda milli ənənələrə sahibləndiyimiz Azərbaycan mədəni mühiti formalaşmışdır. A.Bakıxanov, M.F.Axundov, M.Ş.Vazeh, F.Köçərli, C.Məmmədquluzadə, Ə.Haqverdiyev, Ü.Hacıbəyli, H.Cavid, A.Şaiq, M.Kirmanşahlı, Ə.Salahlı, M.Mərdanov, Z.Hacıbəyov, M.Şahtaxtlı, İ.İsfahanlı kimi onlarca görkəmli şəxsiyyətin, H.Ərəblinski, S.Ruhulla, E.Sultanov, Ü.Rəcəb, Ö.F.Nemanzadə, H.Minasazov və adlarını unutduğum bəzilərini xatırlatmaqla bu mühitin nə qədər zəngin olduğunu təsdiq etmək olar. Bu adların Azərbaycan mədəniyyətinin, təhsilinin, mətbuatının, teatrının inkişafında rolu misilsizdir.

M.F.Axundovun əsərləri hələ XIX yüzilin əllinci illərindən Tiflisdə rus və gürcü dilində səhnələşdirilmişdir. Az sonra isə Azərbaycan türkcəsində ilk teatr tamaşası burada göstərilmişdir. Tiflis ədəbi mühitini və teatr tarixinin dəyərli araşdırıcılarından olan professor Abbas Hacıyevin yazdığı kimi, M.F.Axundovun "Sərgüzəşti-vəziri-xani sərab" əsərinin üçüncü pərdəsinin 1872-ci ildə Tiflisin "Paronbəyov karvansarası"nda səhnələşdirilməsi ilə Tiflis Azərbaycan teatrının, eləcə də milli teatrımızın tarixi bünövrəsi qoyulmuşdur.

Bu mühitin milli mətbuatımızın və təhsilimizin formalaşmasında və inkişafında da xüsusi yeri olmuşdur. "Ziya", "Ziyayi Qafqaziyyə", "Kəşkül", "Şərqi-Rus", "Molla Nəsrəddin" milli mətbuatımızın dəyərli nümunələri olmaqla, həm də Tiflis mühitinin yetişdirmələri idi. Burada formalaşan mili məfkurə dünyəvi təhsil ocaqlarının açılması ilə müşayət olunmuş, o cümlədən, Qori Seminariyasının maarifçi Azərbaycan ziyalılarının məşhur nümayəndələrinin yetişməsində xüsusi xidmətləri olmuşdur. Amma, təəsüf ki, bu məsələlər uzun illər unuduldu. Yalnız Heydər Əliyevin hakimiyyəti illərində yenidən gündəmə gətirildi.

***– Ulu öndər, bütövlükdə, Gürcüstanda Azərbaycan milli varlığının mövcudluğunu, inkişafını ciddi himayə edirdi.***

– Əlbbətə, bu işlər o qədər ardıcıl və böyük olub ki, onları görməmək və dəyərləndirməmək mümkün deyil. Halbuki, Heydər Əliyev bunları edəndə ən böyük dəyəri xalqın məhəbbəti oldu. Heydər Əliyevin azərbaycanlılar, o cümlədən, Gürcüstan azərbaycanlıları qarşısında xidmətləri unudulası məsələ deyil. Bu onun hakimiyyətinin həm 1-ci, həm də 2-ci dövründə özünü birmənalı təsdiqləyib. Hələ sovetlər dövründə Azərbaycan KP MK-nın 1-ci katibi olanda Gürcüstanda yaşayan azərbaycanlılar haqqında daim düşünüb, onlara hər cür diqqət və qayğı göstərib, onların vəzifə pilləsində irəli çəkilməsi, azad, firavan və xoşbəxt yaşamaları üçün lazımı dəstəyi verib.

Təbii ki, o dövrdə Moskvanın icazəsi olmadan nələrisə həyata keçirmək, milli ruhu oyatmaq nə qədər çətin olsa da, Ulu öndər həm qonşuluq, həm də Gürcüstanın rəhbərləri ilə dostluq münasibətlərindən istifadə edərək azərbaycanlılara sahib dururdu. Şəxsi həyatımda olan bir faktı yada salmaq istərdim. Mən elmi işimi 1989-cu ildə AMEA-nın Nəsimi adına Dilçilik İnistitunda müdafiə etmişəm. Elmi işim toponimlərlə əlaqəli olduğumdan AMEA-nın Coğrafiya İnstitunda da tez-tez olurdum. Rəhmətlik Budaq Budaqovun vasitəsi ilə akademik Həsən Əliyevlə də tanış olmuşdum və hər dəfə akademiyaya gələndə onlarla da görüşürdüm. Bu dəyərli alimlər saatlarla Gürcüstanda yaşayan azərbaycanlıların problemləri ilə maraqlanırdılar. Bu, ilk növbədə, Heydər Əliyevin kənarda yaşayan azərbaycanlılarla bağlı apardığı milli siyasətin bəhrəsi idi.

***– Bunları yaxşı bilən erməni daşnakları da Qarabağ iddialarını Heydər Əliyev hakimiyyətdən gedəndən sonra qaldırdılar...***

– Ümumən, keçmişə nəzər salanda Heydər Əliyevin siyasi fəaliyyətinin və həyatının hər bir anında Azərbaycan və azərbaycanlıların varlığı xüsusi önəm daşıyıb. Onun rəhbərliyi dövründə azərbaycanlıların yüksəlişi həm Gürcüstanda, həm də Ermənistanda açıq-aşkar görünürdü. Yaxşı qeyd etdiniz ki, erməni daşnakları da Qarabağ iddialarını Heydər Əliyev hakimiyyətdən gedəndən sonra qaldırdılar. Onlar yaxşı bilirdilər ki, Heydər Əliyevin önündə fitnə-fəsadları həyata vəsiqə ala bilməyəcək. Ulu öndərin yaxın dostlarından olan və uzun illər xalqlarımızın birliyinə çalışan Eduard Şevardnadze deyirdi ki, XX əsrin ikinci yarısında Azərbaycanın varlığı, Azərbaycan xalqının həyatı, başlıca uğurları və mühüm nailiyyətləri qırılmaz surətdə Heydər Əliyevin adı ilə bağlıdır.



Əslində, bu fikirin məsanı o qədər genişdir ki, Heydər Əliyevin təkcə Azərbaycan Respublikasının yox, bütün azərbaycanlıların prezidenti olduğunu təsdiqləyir. Onun 2-ci dəfə hakimiyyətə qayıdışı isə deyilənlərin bir daha təsdiqi oldu. Ulu öndər Gürcüstandakı azərbaycanlıların doğma yurd yuvalarından didərgin salınmasının qarşısını aldı, tarixi dəyərlərimizi yenidən özümüzə qaytardı. Bir az əvvəl haqqında danışdığım mədəniyyət abidələrinin kütləvi şəkildə dağıdılmasının qarşısı alındı. Azərbaycan dövlətinin həm mənəvi, həm də maddi dəstəyi ilə onların hər birinə sahib çıxıldı. İndi bu ənənəni, Heydər Əliyevdən gələn möhtəşəm missiyanı Prezident İlham Əliyev qətiyyətlə davam etdirir.

***– Ulu öndərlə bağlı iştirakçısı olduğunuz hadisə və ya görüş olubmu?***

– Ümummili lider Heydər Əliyevin həm Azərbaycanın, həm də Gürcüstanın müstəqilliyi ilərində gördüyü böyük işlərin şahidiyəm. Hətta Gürcüstana səfər və görüşlərində yaxından iştirak etmişəm. Düzdür, bu böyük şəxsiyyətlə şəxsən görüşməsəm də onun Gürcüstan azərbaycanlıalrının həyatında, onların problemlərinin həllindəki fəaliyyəti əvəzi olmayan hadisədir. Burada yaşayan hər bir azərbaycanlı bunun siyasi və iqtisadi bəhrəsini gördü və görməkdədir.

Vaxtı ilə Gürcüstandan başlanan köcün qarşısını ağıllı siyasəti ilə alan Heydər Əliyev Gürcüstana ilk rəsmi səfərində (8–10 mart 1996-cı il) Tbilisi "Nəbatət bağı"nda Fətəli Xan Xoyskinin abidəsinin açılış mərasimində iştirak etdi. Mirzə Fətəli Axundov və Mirzə Şəfi Vazehin məzarlarını ziyarət etdi. Tbilisi Cümə məscidində mömin azərbaycanlılarla, Z.Paliaşvili adına Dövlət Akademik Opera və Balet Teatrında azərbaycanlıların nümayəndələri ilə görüşdü, Gürcüstan Televiziyasına azərbaycanlıların problemlərinin həlli yollarını göstərən müsahibə verdi. Gürcüstan parlamentinin xüsusi iclasında çıxış edərək Azərbaycan və Gürcüstan əlaqələrinin tarixindən, müstəqillik dövründə üzləşdikləri çətinlikdən, separatizmə qarşı mübarizəsindən, münasibətlərin perspektivindən ətraflı bəhs etdi. Yəqin onun bu rəsmi səfərində söylədiyi məşhur deyim hər kəsin yadındadır: "Gürcüstanda yaşayan azərbaycanlılar diaspor deyil. Onlar, aborigen xalqdır. Ona görə də onları diaspor adlandırmaq düzgün deyil. Onlar bizim soydaşlarımızdırlar".

Ulu öndər Heydər Əliyev elə böyük siyasi xadimdir ki, onun hər bir sözünün və hər bir münasibətinin siyasi çəkisi olub. O, nə etdiyini də hər kəsdən yaxşı bilib. Heydər Əliyev soydaşlarımıza müraciətlərində deyirdi: "Gürcüstanda yaşayan azərbaycanlılar! Sizin ulu babalarınız, Azərbaycan və gürcü xalqları yadellilərə qarşı birgə mübarizə aparıblar. Öz torpaqlarını müdafiə ediblər. Bu dostluq bu gün də davam edir. Ona görə də əziz bacılar, qardaşlar, bu, sizin doğma vətəninizdir, bu, sizin doğma torpaqlarınızdır. Siz öz doğma vətəninizdə, torpaqlarınızda yaşayırsınız". Belə çağırışlar və Azərbaycan dövlətinin Gürcüstana verdiyi iqtisadi dəstək azərbaycanlıların Gürcüstanda daha da möhkəmlənməsinə xidmət edib.

**– Bəs bu gün Gürcüstan azərbaycanlıları hansı əhval-ruhiyyədədirlər?**

– Bu suala indi hər bir azərbaycanlının, dünyanın harasında olmasından asılı olmayaraq verəcəyi bir cavab var: xalqımız çox xoşbəxtdir, 30 illik işğala son qoyduğu tarixi qələbəsi ilə, qazandığı süverenliyi ilə! Onun Heydər Əliyev kimi Ulu öndəri, fövqəldünya şəxsiyyəti, indi də bu tarixi şəxsiyyətin siyasi məktəbini uğurla davam etdirən müdrik və qətiyyətli Prezidenti var.

Bu gün Azərbaycanla Gürcüstan arasında gündən-günə genişlənən dostluq əlaqələri var. Tbilisinin mərkəzində və Rustavi şəhərində Heydər Əliyev parkının salınması, şəhərin tarixi və məşhur yerində Ulu öndərin büstünün ucaldılması ölkələrimiz arasındakı möhkəm və sarsılmaz dostluğun bariz nümunəsidir. Tbilisidə M.F.Axundovun, Nəriman Nərimanovun, eləcə də Cəlil Məmmədquluzadənin ev muzeyləri fəaliyyət göstərir. Tbilisidəki küçələrin birinə Bakı, bir sıra digər küçələrə isə Azərbaycanın görkəmli şəxsiyyətlərinin adı verilib.

Bu yaxınlarda Prezident İlham Əliyev Gürcüstanda növbəti səfərdə oldu. Keçirilən görüşlərdə Cənubi Qafqazda yeni həyatın bünövrəsini qoyuldu, tarixi qələbədən sonra süverenliyinə nail olan Azərbaycanın lideri uzun illərdən bəri arzu edilən sülhün Cənubi Qafqazda bərqərər olmasının zəruriliyini bəyan etdi. Bütün bunlar Gürcüstanda yaşayan azərbaycanlılarda sabaha böyük ümidlər doğurur.

**– Maraqlı müsahibəyə görə sağ olun.**

***Söhbəti hazırladı:***
***Namiq ƏHMƏDOV***
***XQ***

**Bakı – Tbilisi – Bakı**

# "El bilir ki, sən mənimsən"

**Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı Bakı Xoreoqrafiya Akademiyası ilə birgə Ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "El bilir ki, sən mənimsən" adlı ədəbi-bədii kompozisiya təqdim edib.**

Teatrın aktyorları Xalq şairi Səməd Vurğunun Ümummilli liderin çox sevdiyi "Azərbaycan" şeirini, Heydər Əliyevə həsr olunmuş poeziya nümunələrini səsləndiriblər. Bundan əlavə Bakı Xoreoqrafiya Akademiyasının tələbələri "Küçələrə su səpmişəm", "Alagöz", "Yeddi gözəl", "Ay Laçın", "Azərbaycan" mahnılarının sədaları altında rəqslərlə çıxış ediblər.

Qeyd edək ki, rejissoru Əməkdar artist Nicat Kazımov olan tamaşada teatrın 55 aktyoru, Bakı Xoreoqrafiya məktəbinin isə 80-ə yaxın tələbəsi iştirak edib. Kompozisiyada Leyla Əliyevanın, Zəlimxan Yaqubun, Rafiq Yusifoğlunun, Elvin Elxanoğlunun, Qabil Ədalətin, Həsən Şirinovun, Zəminə Bayramovanın, Elşad



Baratın şeirlərindən, Üzeyr Hacıbəylinin, Hacı Xanməmədovun, Eldar Mansurovun bəstələrindən istifadə olunub.

***XQ***

# Qardaş xalqların ortaq təntənəsi

**AMEA-nın Naxçıvan Bölməsində Ümummillıi lider Heydər Əliyevin anadan olmçasının və qardaş Türkiyə Respublikasının yaranmasının 100 illiyi münasibətilə elmi konfrans keçirilib.**

Məclisi Bölmənin sədri, akademik İsmayıl Hacıyev açaraq bildirib ki, 2023-cü il Azərbaycanda və Türkiyədə Ümummilli lider Heydər Əliyevin anadan olmasının və qardaş ölkədə cümhuriyyət qurulmasının 100-cü ildönümünün qeyd olunması ilə əlamətdardır. Xalqımız həm də 2023-cü ildə Azərbaycanın ərazi bütövlüyünün təmin olunması kimi mühüm tarixi anlara şahidlik etdi.

Bir əsrdən artıq dövr ərzində Türkiyə tarixinə nəzər salan bölmə sədri böyük sərkərdə Mustafa Kamal Atatürkün rəhbərliyi ilə türk xalqının yazdığı şanlı tarixdən, İstiqlal savaşında öz tarixi torpaqları uğrunda apardıqları qətiyyətli mübarizədən, cümhuriyyət qurulduqdan sonra Atatürkün ölkənin gələcək inkişafı üçün həyata keçirdiyi islahatlardan danışıb.

Hər iki ölkənin bir-birinə göstərdiyi dəstəkdən söz açan İsmayıl Hacıyev qeyd edib ki, bu dostluq II Qarabağ müharibəsində daha da aydın göründü. 15 iyun 2021-ci ildə imzalanan Şuşa Bəyannaməsi qardaş ölkə ilə həm də müttəfiqliyimizin bəyanı



oldu. Akademik çıxışı zamanı iki ölkənin birgə həyata keçirdiyi layihələrdən, onların səmərəliliyindən və icrası nəzərdə tutulan işlərdən bəhs edib.

Türkiyənin Naxçıvandakı Baş konsulu Asip Kaya Türkiyə və Azərbaycanın sarsılmaz bağlarla bir-birinə bağlandığını söyləyib. Baş konsul yaxın tarixdə ölkələrimiz arasında inkişaf edən siyasi, iqtisadi və mədəni münasibətlərdən danışıb.

Konfans hər iki yubileylə bağlı məruzələrin təqdimatı ilə davam edib.

***XQ***

# Qardaş Türkiyə, Cümhuriyyət bayramın mübarək!

## Yüzilliyin reallığı: Türkiyə dünya gücüdür

### Ənənədən qaynaqlanan prinsiplər

**Osmanlı İmperiyasının bir neçə əsrlik şanlı tarixində türk millətinin ruhu, mənəviyyatı, əxlaqı və böyük dövləti idarəetmə fəlsəfəsi əbədi yaddaş kimi mövcuddur. Bütövlükdə, türk xalqlarının, o cümlədən, Anadolu türklərinin dövlətçiliyində nizam-intizam, sülh və vətənsevərliklə yanaşı, ədalət "qanunu" da mərkəzi yer tutmuşdur. Ədalətli olmaq türk dövlətçilik ənənəsində hüquqa uyğun davranmaq deməkdir. Türklər, bu mənada, haqq sahibi olmağı təbii saymışlar və bunu "məzlumların haqqı uğrunda mübarizə" formulu ilə dövlətçilik ənənəsinin yazılmamış qanunu halına gətirmişlər. Bununla türklər (yəni hər bir türk xalqı) dünyada analoqu olmayan bir dövlətçilik ənənəsi yaratmışlar.**

Bu ənənədə bir neçə prinsip vardır ki, tarix boyu dövlətçiliyimzdə fundamental rol oynamışdır. Bizim düşüncəyə görə, onlar aşağıdakılardır:

– Dövlət başçısı hüququ;
– Parlament (məclis, divan) hüququ;
– yosun hüququ;
– İlahi nizamın Yer üzündə bərqərar olması;
– İlahi ədalətin Yer üzündə bərqərar olması;
– irqindən, dinindən asılı olmayaraq bütün insanlar üçün sülh və barışın təminatı.

Bu anlayışların fəlsəfəsi üzərində dayanmaq imkanı burada yoxdur. Yalnız "Yosun hüququ"nu qısa izah etməyə çalışaq.

Türklərdə birgəyaşamın özəl qaydası, fəlsəfəsi mövcuddur. Onların sırasında türk toplumlarının formalaşması üsulu ayrıca yer tutur. "Yosun hüququ" buna aiddir və türklərin ailə qurmaq fəlsəfəsindən tutmuş qəbilə, tayfa, tayfalar birliyi, xalq və millət birgəyaşam miqyaslarına qədər bütün mərhələlərdə özünü yaratması fəlsəfəsinin təbii qanunu və hüquqi ifadəsidir. Deməli, "Yosun hüququ" türklərin cəmiyyət kimi özünü yaratmasının təbii əsası, həm də insan hüququ kimi başa düşülməlidir. Türklər üçün haqq sahibi olmaq təbii nizamdan gələn qanundur ki, onu heç zaman dəyişmək və ya arxa plana atmaq mümkün deyildir. O halda türk dövlətçiliyi böyük ziyan görür.

Osmanlının tarixini şanlı edən digər məqam İslamla bağlıdır. İslamda haqq, ədalət, məzluma arxa olmaq, daim iman yiyəsi olmaq (Həzrət Əlini (ə.) və imam Hüseyn şücaətini xatırlayaq) kökdən gələn dəyərlərdir. Osmanlı İmperiyası (İmperiya üsul-idarəsinin verdiyi imkanlar daxilində) əsrlərcə haqqı, hüququ, ədaləti, sülhü qorumuşdur və bu dəyərlər uğrunda böyük savaşlara girmişdir.

Keçən əsrin əvvəllərində dünyanın bir neçə şər qüvvəsi birləşib Osmanlını süqut etdirdikdən və imperiya parçalanandan sonra dünyanın ədalət, məzlumun hüququnun qorunması və sülh tərəfinin də böyük bir hissəsi itirilmiş oldu. Meydan əsasən ambisiyalı, iddialı və qərəzli qüvvələrə qaldı. Bu xaosda böyük Mustafa Kamal Atatürk Türkiyə Cümhuriyyəti dövlətini qurub, saxlaya bildi. Lakin artıq Türkiyə dünyanın söz sahiblərindən deyildi. Bundan əvvəl Osmanlı üç qitədə dominantlıq edirdisə, Türkiyə Cümhuriyyəti ancaq öz sərhədləri daxilində legitimliyi uğrunda mübarizə apara bilirdi.

İkinci dünya savaşı böyük güclərin geosiyasi, siyasi, ideoloji, təhlükəsizlik və inkişaf konsepsiyalarının ciddi böhranını üzə çıxardı. Onlar dünyanı yenidən qurmağa başladılar. Lakin bu mərhələdə də ədalət, haqq, hüquq söz səviyyəsində qaldı, əvəzində ayrı-ayrı böyük güclərin ağalıq iddiası önə çıxdı. BMT-ni qursalar da orada cəmi 5 dövlətin sözü real olaraq keçdi. Nəticədə dünya yenidən süründürməçi, lakin daha dərinlərə aparan qarşıdurma müstəvisinə sürükləndi. Burada baş oyunçu kimi ABŞ və SSRİ çıxış edirdi.

Bu çətin, ziddiyyətli və sonu proqnozlaşdırılmayan qarşıdurma, "soyuq" və "isti" müharibələrin bir-birinə qarışdığı, bütövlükdə, bəşəriyyət üçün risk və təhlükələrlə dolu tarixi mərhələ idi. Onun fonunda Türkiyə çox çətin və keşməkeşlərlə dolu tarixini yaşayırdı. Hər tərəfdən olan təzyiqləri neytrallaşdırmaqla yanaşı, dövlətin içində yaradılan separatçılıq, etnik radikalizm kimi tendensiyalarla ağır mübarizə aparırdı. Ancaq burada da sərbəst deyildi – bütövlükdə, NATO-nin, ayrıca Amerikanın diktəsi altında qalmışdı. Kıbrıs hərəkatından sonra vəziyyət daha da mürəkkəbləşdi.

Şübhəsiz ki, bütün bunları geniş mənada və əsaslı olaraq Türkiyə siyasi dairələrində dərindən bilənlər çox idi. Türkiyə həmin əsasda özünün tam baxımsızlığı və real inkişafı üçün mübarizəyə başlamışdı. Sol-sağ bölücülüyü, PKK, hərbi çevrilişlər və digər hadisələr məhz buna görə bir-birini əvəz etməyə başladı. O zaman, yəqin, çox az adam dərk edirdi ki, Türkiyə strateji bir savaşa girişmişdir. Məqsəd özünəgüvənən, dünyada söz sahibi olan, ədalətli güc halına gəlsin! Turqut Özal, Nəcməddin Ərbakan bu prosesdə ayrıca rolu olan siyasi xadimlərdən idilər!

Nəhayət, Türkiyə Cümhuriyyəti Rəcəb Tayyib Ərdoğanın hakimiyyətə gəlməsi ilə əl-qolunu bağlayan bütün "zəncirləri" qırmağa başladı. Dövlət tarixi baxımından qısa bir müddətdə bütün sferalarda sürətli inkişaf prosesinə başladı. Bu sırada təhlükəsizliyin təminatı, müdafiə qüdrətinin artması öncül yeri tuturdu. Çünki Türkiyə, hər şeydən əvvəl, xaricdən asılılığa son qoymalı idi ki, qərəzli qüvvələrin ölkə daxilində xaos yaratmaq rıçaqları minimuma ensin. Bütün təzyiqlərə və hətta, təhqirlərə, daxildəki satqınların fəallığına baxmayaraq, Türkiyə Cümhuriyyəti addım-addım öz əvvəlki qürurunu, müstəqilliyini, təsir dairəsini bərpa etməyə nail oldu. Bununla Türkiyə Cümhuriyyəti çox güclü inkişaf potensialına malik və dünyada yenidən ədalətin bərpa olunmasını təmin edəcək aparıcı güc olduğunu ortaya qoydu.

Yeri gəlmişkən, burada bir məqamı vurğulamaq yerinə düşərdi. R.T.Ərdoğanın şəxsiyyətinə, idarəetmə üsuluna, və həm də bütövlükdə Türkiyənin dövlət kimi geosiyasi, hərbi və iqtisadi imkanlarına yuxarıdan aşağı baxaraq, onu daim kiminsə yedəyində getməyə can atan, gah Qərbə, gah da Rusiyaya sığınmaq istəyən ikinci dərəcəli dövlət kimi tədqim etməyə çalışdılar. Gah Amerikada, gah İsraildə, gah da Rusiyada qurulan anti-Türkiyə planlarından ağızları köpüklənə-köpüklənə danışmağa başladılar.

Bütün bunlar Türkiyəni böyük güc kimi görmək istəməməkdən və əsrlərlə davam edən və qərblilərin, rusların, farsların siyasi şüurunda yuvalanmış eybəcərliklərin, pisliklərin son çırpıntıları idi. Bunu Türkiyə Cümhuriyyəti dövlət kimi, R.T.Ərdoğan isə lider-şəxsiyyət kimi hər kəsə sübut etdi. Necə?

**Hər şeydən öncə,** Türkiyə iqtisadiyyatını nəinki çökdürə bilmədilər, o, hətta, inkişaf sürətini artırdı. Qarşıya çoxlu sayda iqtisadi və maliyyə çətinlikləri çıxardılar. Hamısı Türkiyə dövlətinin və onun rəhbərliyinin dəmir iradəsinə dəyib çilik-çilik oldu. Bu proses indi də davam edir. KİV-də indi də "İsrail filan addımı atdı və İstanbul borsası çökdü" kimi xülyalarını dilə gətirənlərə rast gəlinir. Bu cəfəngiyyatı uyduranlar anlamırlar ki, bu cür gözügötürməzlik, türk dövlətçiliyinə mənfi münasibət onların özlərini tarixin və şüurun zibbilliyinə atır. Türkiyə Cümhuriyyəti oyun qurbanı deyildir, oyun qurandır!



**İkincisi,** Türkiyə Cümhuriyyəti cəmiyyətin mənəvi-ideoloji dəyişməsinə ciddi surətdə nail oldu. Türkiyəçilik, milli adət-ənənələri qorumaq, onlara cəmiyyətdə dominant status vermək istiqamətində çox vacib addımlar atıldı. O cümlədən, bayraq, dil məsələsi türk cəmiyyətinin şüurunda yenidən, tam mənasında, oturduldu. Bunun fonunda dini dəyərlərin qorunması və insanların həyatında daha geniş yer tutması üçün dünya miqyasında əhəmiyyəti olan dəyişikliklər edildi (məsələnin bu tərəfinin fəlsəfəsi dərin və genişdir, onu ayrıca təhlil etməyə böyük ehtiyac vardır).

**Üçüncüsü,** R.T.Ərdoğan dünyanın aparıcı analitiklərinin etiraf etdiyi kimi, cəmiyyətin topluma fayda verən orta təbəqəsini əsasən gənclərdən ibarət sahibkarlar vasitəsilə yaratdı. Bu barədə, məsələn, ABŞ-ın tanınmış "Stratfor" Beyin Mərkəzinin qurucusu, uzun müddət təhlükəsizlikdə xidmət etmiş Corc Fridman təhlil və proqnozlar vermişdir.

**Dördüncüsü,** R.T.Ərdoğan strateji əhəmiyyəti olan yeni təhsil sistemindən bəhs edir. Bu məqam o dərəcədə milli dövlətçilik baxımından əhəmiyyətli və həm də mürəkkəb prosesdir ki, xüsusi araşdırılmasına çox ciddi ehtiyac vardır. Çünki Türkiyə rəhbərinin təhsil konsepsiyası dünyada misli görünməmiş təhsil çevrilişidir. Bu, çox uzun müddətə Türkiyəni və bütün türk dövlətlərini dünyanın aparıcı gücü halına gətirə bilər. Lakin hələlik həmin konsepsiyanın tam məzmunlaşması, dərinləşməsi, özgürləşməsi, mövcud təhsil sisteminə güclü və faydalı alternativ ola bilməsinin şərtləri və strateji hədəflərinin türk dövlətlərinin sinerjisi kontekstində müəyyənləşməsi lazımdır.

**Beşincisi,** indi hər kəsin dilində əzbər olmuş Türkiyənin hərbi qüdrətinin yüksəlməsi və faktiki olaraq dünyada aparıcı yerlərdən birini tutmasıdır. Onun konkret təzahürü kimi "Bayraqdar"ları göstərirlər. Lakin proses daha dərində və fundamental olaraq gedir. Türkiyə hərbi texnologiyaların yeni nəslini yaradır və onlardan istifadənin yeni fəlsəfəsini ortaya qoyur. Bu fəlsəfə konkret təsdiqini Liviyada, Suriyanın şimalında, İraqda, Afrikanın bir sıra ölkələrində, Balkanlarda, Ukraynada və, nəhayət, Qarabağda tapdı!

Qarabağda Türkiynin rolu tam yeni bir nəfəsdir. İndi hətta Azərbaycanda belə bir-sıra kiçik düşüncəli insanlar, etnik məhdud baxışlardan qurtula bilməyən zavallılar Türkiyə – Azərbaycan müttəfiqiliynə səthi və reallığa uyğun olmayan mövqedən yanaşmağa çalışırlar. Onlar "qardaş dövlətlər" ifadəsinin həqiqi məzmun və məqsədini dərk etmək qabiliyyətindən məhrumdurlar. Şuşa Bəyannaməsinin siyasi, hüquqi, hərbi aspektləri ilə yanaşı, özündə daşıdığı dərin mənəvi-ideoloji məzmununu anlaya bilmirlər! Lakin "Bir millət, iki dövlət" kəlamı yığcam və konkret olaraq bütün sayıqlamaların ən gözəl cavabıdır! "Qarabağ Azərbaycandır!", "Sən azadsan, Şuşa!", "Biz qayıtdıq, Şuşa"... belələrinə cavab kimi ən gözəl məna, məzmun və siyasi ritorikadır!

Bəli, Türkiyə Cümhuriyyəti Azərbaycana əsl qardaş dövlət kimi fəal köməyini davam etdirir. Bu mənada, Türkiyə bizim qəlbimizdə, yaddaşımızda, özümüzdədir! Onu kimsə başqa yerə qoya bilməz!

Qayıdaq Türkyənin xarici siyasətinin indiki mərhələdə bir sıra məqamlarına. R.T.Ərdoğan iqtidarı regional və qlobal miqyasda möhtəşəm və konstruktiv xarici siyasət yeridir. Onun mərkəzi anlamı Türkiyənin kimlərinsə yanında dayanmaq deyildir. Tam əksinə – başqaları böyük güc olan Türkiyənin yanında həm regional, həm də qlobal miqyasda dayanmağa can atırlar. Türkiyə artıq bütün qonşuları, Yaxın Şərq, Balkanlar, Qafqaz, Mərkəzi Asiya dövlətləri ilə münasibətlərini əməkdaşlıq və təhlükəsizlik kontekstində qura bilən çox güclü dövlətdir! Bütövlükdə, ulu öndər Heydər Əliyevin Ki-Uest görüşündən sonra jurnalistlərə "Türkiyə böyük dövlətdir, çox böyük dövlətdir" deməsini tam mənası ilə indi-indi anlamağa başlayırıq. Prezident İlham Əliyevin G20-lərin İstanbul zirvəsindən sonra "Türkiyə çox güclü və böyük dövlətdir!" fikrinin nəyi ifadə etməsini indi başa düşürük.

Türkiyə hazırda Türk dünyasının konstruktiv kurs və məqsədlə, sülh, barış, əməkdaşlıq çərçivəsində birləşməsi üçün titanik səylər göstərir. Onu da deyək ki, Azərbaycan Prezidenti bu istiqamtdə çox təsirli, möhtəşəm, olduqca fəal və praktiki addımlar atır. Hətta, deyə bilərik ki, hazırda Azərbaycan Türk Dövlətləri Təşkilatında aparıcı rol oynayır. Özü də çox uğurlu və nəticəli, nəinki türk xalqlarına, hətta çox geniş geosiyasi məkanda yaşayan xalqlara fayda verəcək təşəbbüslər irəli sürür. Həmin sırada İlham Əliyevin Qafqaz platforması, "3+3" əməkdaşlıq formulu və yeni "yaşıl enerji" layihələri çox əhəmiyyətlidir!

Türkiyə Cümhuriyyəti Yaxın Şərq, Avropa, Amerika, Afrika, Balkanlar, Rusiya, Çin siyasətində də müstəqil, konstruktiv və qarşılıqlı fayda verən, sülhə, barışa xidmət edən siyasət həyata keçirir.

Artıq kimsə R.T.Ərdoğanla "sən kimsən?" məntiqi ilə danışa bilmir, əksinə, Türkiyə Prezidentinin simpatiyasını qazanmağa çalışır. Türkiyə heç bir dövlətin yanında dayanmaq xəttini tutmamışdır – o, dünyanın bir neçə siyasi və geosiyasi qütblərindən biri olmaq istiqamətində fəaliyyət göstərir. Bu həqiqəti Rusiya və onun Prezidenti qədər dərk edən böyük gücə rast gəlmirik. Şübhə yoxdur ki, Rusiya – Türkiyə – Azərbaycan geosiyasi ittifaqı (daha geniş miqyasda TDT-Rusiya müttəfiqliyi), bütövlükdə, Avrasiyada həlledici gücə çevrilir! Bu, böyük bir geosiyasi məkanda əsl inqilabdır! Avrasiyanın xilasıdır!

Çox sevindiricidir ki, Türkiyə Cümhuriyyəti 100 illiyini vurğuladığımızdan da geniş və dərin təsirli nailiyyətləri ilə qeyd edir! Bizim üçün Qarabağ sevinci ilə yanaşı, bu uğur da çox əhəmiyyətlidir! Türkiyəlilər "Yaşa, can Azərbaycan!" deyir, biz azərbaycanlılar da "Yaşa, Türkiyəmiz!" deyirik! İki qardaş dövlət, iki qardaş bayraq əbədi olaraq qoşa dayansın, qoşa dalğalansın!

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

## Güclü Türkiyə Azərbaycan üçün möhkəm arxadır

### *20 ildə qardaş ölkədə ÜDM 3 dəfədən çox artıb*

**Türkiyə Respublikasında bu il may ayının 14-də keçirilən prezident və parlament seçkiləri ərəfəsində qardaş ölkənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğan sədri olduğu Ədalət və İnkişaf Partiyasının Böyük Millət Məclisinin qrup toplantısında rəhbərlik etdiyi ölkəni inkişaf və güclənmək yolundan heç kimin saxlaya bilməyəcəyini diqqətə çatdıraraq növbəti dəfə xalqdan dəstək istədi: "Mərhum Menderes 1950-ci il mayın 14-də "Bəsdir daha, söz millətindir!" deyərək insanların qəlbinə girmiş və seçkilərdən qalib çıxmışdır. Millətimiz 73 il sonra eyni gündə bir daha müstəmləkədə qalmaq həvəsində olanlara "Bəsdir!" deyəcək. Söz də, qərar da, gələcək də millətindir. 2023-cü ildə də millətimizdən dəstək istəyirik".**

Türk milləti də Türkiyə Respublikasının 12-ci Prezidenti Rəcəb Tayyib Ərdoğanın ötən müddətdəki səmərəli fəaliyyəti qarşılığında ona dəstəyini əsirgəmədi, dövlət başçısının ölkəsində və beynəlxalq aləmdə qazandığı nüfuzu sayəsində mənəvi haqqı gerçəkləşdi. 2003–2014-cü illərdə Türkiyə Respublikasının Baş naziri, 2014-cü ildən isə Türkiyə Respublikasının Prezidenti olan Rəcəb Tayyib Ərdoğanın bu seçkidə də ölkəsinin inkişafı və tərəqqisi, habelə beynəlxalq təhlükəsizliyin təminatı yolunda atdığı misilsiz addımlara görə fəaliyyəti yüksək dəyərləndirildi.

Xatırladaq ki, Rəcəb Tayyib Ərdoğanın hakimiyyətdə olduğu illər ərzində Türkiyə əsrə bərabər inkişaf yolu keçib. Qardaş ölkə "G-20" daxilində ümumi daxili məhsulun (ÜDM) artım tempinə görə ilk beşliyə daxil olub. Türkiyə güclü iqtisadiyyata malik ölkə kimi ÜDM-in səviyyəsinə görə dünyada 18-ci yeri tutub. Bu göstərici ölkədə 736,716 milyard dollara yüksəlib.

Yeri gəlmişkən, Türkiyə ÜDM-in 8,9 faizi kənd təsərrüfatı, 27,3 faizi sənaye və 63,8 faizi xidmət sahələridir. Bu göstəricilərə baxmayaraq, hələ də əhalinin dörddə biri kənd təsərrüfatında çalışır.

Rəcəb Tayyib Ərdoğan hökuməti Cümhuriyyətin 100 illiyində–2023-cü ildə Türkiyəni dünyanın nəhəng 10-cu iqtisadiyatına çevirməyi qarşıya mühüm vəzifə kimi qoyub. Məhz möhtərəm dövlət başçısının gerçəkləşdirdiyi köklü iqtisadi islahatların nəticəsi olaraq ölkəyə investisiya axını davamlı xarakter alıb, ÜDM son 20 il ərzində iki dəfə, ixracat isə 10 dəfə artıb.

Dünyada peşəkar xidmət sahəsində nəhəng kompaniyalardan biri olan "Pricewaterhouse Coopers"in (PwC) apardığı tədqiqatların nəticələrinə görə, 2030-cuilədək Türkiyə iqtisadiyyatı dünyada 12-ci yerə yüksələcək, ÜDM isə 2,996 trilyon dollara çatacaq.

Qardaş ölkədə 1995-ci ildə fəaliyyətə başlayan və Türkiyənin xarici ticarət siyasətində önəmli yer tutan təşkilatlarından biri olan Avropa İttifaqı–Türkiyə Gömrük İttifaqı ötən müddətdə idxal–ixrac əməliyyatlarının yüksək səviyyəyə çatmasına əhəmiyyətli təsir göstərib. Bunun sayəsində Türkiyə ixracatının həcmi ildən-ilə artıb. Ən çox məhsul ixrac olunan ölkələr sırasında isə Almaniya, İraq, İngiltərə, İtaliya və Fransa qeydə alınıb.

Türkiyə gəmi inşaatında da son 20 ildir ki, davamlı olaraq böyük uğurlar əldə edir. Bu sahədə ən böyük bazarlar Malta, Norveç, İngiltərə və Marşall adalarındadır. Hazırda Türkiyədə 100-ə yaxın türk gəmiqayırma zavodu fəaliyyət göstərir. Tuzla, Yalova və İzmit gəmiqayırma sənayesinin əsas mərkəzləridir. Qardaş ölkə iqtisadiyyatının digər vacib sahələri arasında bankçılıq, tikinti, məişət texnikası, elektronika, tekstil, neft emalı, neft-kimya məhsulları, qida, dağ-mədən, dəmir-polad və maşınqayırma sektorları da yer alır.

Toxuculuq sənayesi üzrə dünya bazarında önəmli yer tutan Türkiyə bununla bağlı daxili istehsal üçün tədarük etdiyi pambığın müəyyən bir qismini Özbəkistan və ya Türkmənistandan alır. Bu ticarətin gerçəkləşməsi üçün əlverişli nəqliyyat infrastrukturu da mövcuddur. Bu yolda Azərbaycan və Türkmənistan arasında olan mövcud marşrutlardan istifadə daşınma sürətini önəmli dərəcədə artırır.

Türkiyə iqtisadi dirçəlişin ilk illərində xarici ticarət üzərində dövlət nəzarətini azaldaraq tədricən iqtisadi tənzimləmə yolu ilə müxtəlif bazarlar açıb və müxtəlif qurumları özəlləşdirməyə başlayıb. Dövlət borcunun ÜDM-ə nisbəti 2010-cu ilin üçüncü yarısında 46 faizə yüksəlib. Həmin ərəfədə illik ÜDM artım tempi orta hesabla 6,8 faiz müəyyənləşib. Bu rəqəm Türkiyəni ən sürətli böyüyən iqtisadiyyatlardan birinə çevirib.

Onu da qeyd edək ki, Türkiyədə turizm hər il daha da inkişaf edərək iqtisadiyyatın vacib sektorlarından birinə çevrilib. Ötən dövr ərzində qardaş ölkənin Mədəniyyət və Turizm Nazirliyi "Evim Türkiyə" adı altında türk turizminin təbliğini uğurla gerçəkləşdirib. Bunun nəticəsidir ki, Türkiyə hazırda ən çox xarici qonağı olan ölkələr sırasında qeydə alınıb. Almaniya və Rusiyadan sonra Azərbaycan bu siyahıda 10-cu yerdə qərarlaşıb.

Türkiyə "İstanbulun tarixi əraziləri", "Kapadokiya qayalıqları", "Çatalhöyük", "Xattusa: Hetin paytaxtı", "Troya" kimi 17 UNESCO ümumdünya irsinə sahibdir. Qardaş ölkədə dünyanın yeddi möcüzəsindən ikisi, dünyanın ən qədim dini məskunlaşma mərkəzi Göbəklitəpə və bir çox digər irslərə rast gəlmək mümkündür.

Son 20 il ərzində Türkiyə iqtisadiyyatında nəzərə çarpan volatilliyə, məzənnə enişlərinə və inflyasiyaya baxmayaraq, qardaş ölkə iqtisadiyyatı real ifadədə 3 dəfə böyüyüb. Belə ki, 2003-cü ildə 314 milyard dollar ÜDM-ə malik olan Türkiyə iqtisadiyyatı hazırda 900 milyard dolları keçib. Beynəlxalq Valyuta Fondunun hesablamalarına görə, bu il Türkiyədə ÜDM-in 1 trilyon 29 milyard dollara çatması proqnozlaşdırılıb.

Onu da qeyd edək ki, 20 il əvvələ qədər daha çox aqrar və xidmət sektorları üzrə ixtisaslaşmışdırsa, indi ölkə müasir sənaye dövlətinə çevrilməkdədir. Türkiyə hazırda hərbi, avtomobil sənayesində xüsusi üstünlüyə malik olan ölkə kimi diqqət çəkir. Məsələn, təhsil sahəsində 10,3 milyard türk lirəsi olan illik büdcə 304 milyard türk lirəsindən çox artırılıb. Ümumi daxili məhsul 238 milyard ABŞ dollarından 1 trilyon ABŞ dollarına, satınalma gücü nisbətinə görə isə Türkiyə dünyanın ən böyük 11-ci, Avropanın 4-cü iqtisadiyyatı səviyyəsinə yüksəlib, ixracat 36 milyard dollardan 250 milyard dollara qədər artırılıb, dünyanın 228 ölkə və bölgəsinə ixracat həyata keçirilməyə başlanılıb.

Bu dövrdə Türkiyənin ÜDM-i 238 milyard ABŞ dollarından 1 trilyon ABŞ dollarına qədər artıb. Satınalma gücü nisbətinə görə Türkiyə dünyanın ən böyük 11-ci, Avropanın 4-cü iqtisadiyyatı səviyyəsinə yüksəlib.

Qardaş ölkənin xarici ticarət potensialı 500 milyard dollara çatdırılıb. Müdafiə sənayesi üzrə Türkiyə öz tələbatını qarşılamaqdan başqa, İHA, SİHA, Akıncı, quru vasitələri, dəniz platformaları başda olmaqla, 170 ölkəyə müdafiə sənayesi məhsulları ixrac edən bir ölkə səviyyəsinə yüksəlib, sənaye və texnologiya istiqamətində qurulan 152 yeni mütəşəkkil sənaye zonası, 29 sənaye zonası və 94 texnoparkla ölkənin istehsal gücü artırılıb, yerli avtomobil TOGG-un istehsalı başa çatdırılıb.

***V.BAYRAMOV***
***XQ***

# Bu gün Türkiyə Cümhuriyyəti bir əsri başa vurur

## Qoşa bayrağın kölgəsində türk qardaşlığı

*100 yaşlı Türkiyə Cümhuriyyəti Turana gedən yolumuzda lokomotivdir*

*(əvvəli 1-ci səhifədə)*

"Türkiyə Cümhuriyyəti" – deyəndə, mən hər şeydən və hər kəsdən əvvəl Məhməd Akif Ərsoyun yazdığı "İstiqlal marşı"nı xatırlayıram. On il əvvəl İstanbuldakı Lütfi Kirdar adına Mədəniyyət Sarayında möhtəşəm bir beynəlxalq tədbirdə iştirak edirdik. Axşam oteldə Cənubi Azərbaycandan, İraqdan və Gürcüstandan gəlmiş türklərlə xeyli və əhatəli söhbət etdik. Mən ortaya hamıya ünvanlanan bir sual atdım: "Türkiyə Cümhuriyyəti – deyəndə öncə kimi və ya nəyi xatırlayırsınız?" Urmiyadan gələn türk dedi ki, Atatürkü. Gürcüstandan gəlmiş türk dedi ki, türk dünyası ölkələrinin Atatürkü tək qoymamasını. Bizim o zaman Türkiyəyə qızıl və pul yardımı etməyimizi nəzərdə tuturdu. İraqdan gəlmiş türk isə ayağa qalxaraq, Məhməd Akif Ərsoyun "İstiqlal marşı"nı oxumağa başladı. O, marşın altıncı bəndini oxuyanda, artıq özünün də gözlərindən "leysan" tökülürdü, biz də özümüzü ağlamaqdan saxlaya bilmirdik:

*Basdığın yerləri "torpaq"*
*deyib keçmə, tanı!*
*Düşün altındakı minlərlə*
*kəfənsiz yatanı!*
*Sən şəhid oğlusan, incitmə,*
*yazıqdır, atanı,*
*Vermə, dünyaları alsan da*
*bu cənnət vatanı!*

O, marşı oxuyb qurtarandan, ürəyini və gözlərini boşaldandan dərhal sonra otel xidmətçilərindən biri əlindəki məcməyini bayraq kimi yuxarı qaldıraraq, marşın ilk sətirini təkrar elədi:

### Qorxma, sönməz bu şəfəqlərdə üzən al bayraq…

Olduqca unudulmaz lövhə idi və nə yaxşı ki, Allah mənə həmin anların qürurunu yaşamağı qismət eləmişdi. Mən o gün bir daha əmin oldum ki, türk xalqı Atatürk Türkiyəsini əbədi yaşadacaq.

Bu məqamda başqa bir faktı da xatırlatmaq istəyirəm. Belə ki, Osmanlı dövlətinə, onun sultanlarına bütün türk xalqları kimi, bizim də böyük hörmət və ehtiramımız var və həmişə də olacaq. Çünki həmin dövrlər türk xalqının keçdiyi böyük və unudulmaz tarixdir. Yeri gəlmişkən, xatırladaq ki, 2019-cu ildə bu dövlətin qurulmasının 720-ci ildönümü qeyd olunmuşdu. Bu, öz yerində. Ancaq türk ziyalıları sosial şəbəkələrdə Atatürk haqqında danışarkən bir faktı yada salırlar: "Mustafa Kamal paşa müasir Türkiyə Cümhuriyyətinin yaradılmasına çalışarkən, öz tərəfdarlarına ilk müraciətini "Ey böyük türk milləti!" xitab ilə başlamışdı. Ondan əvvəlki türk rəhbərləri isə öz müraciətlərinə "Ey mənim təbəələrim!" və digər bu kimi ifadələrlə başlayırdılar. Yəni, Atatürk təkcə Türkiyə Cümhuriyyətini yaratmamışdı, həm də türk xalqının hörmətinin, izzətinin, ləyaqətinin yeni mərhələsinin təməlini qoymuşdu.



İndi isə bəzi tarixi faktları yada salaq. Türkiyə Cümhuriyyəti 1923-ci il oktyabrın 29-da Türkiyə Böyük Millət Məclisi tərəfindən elan edilmişdir. 1925-ci ildə isə həmin günün türk dövlətinin yaranması günü kimi qeyd olunması barədə qanun qəbul olunub. Tarixçilər yazırlar ki, müasir türk dövlətinin qurulması türk milləti və bu ölkənin varlığı uğrunda mübarizə aparanlar üçün böyük sınaqlar hesabına başa gəlib. Türkiyə Cümhuriyyətinin yaradılması Birinci dünya müharibəsi illərində və ondan sonra Osmanlı dövlətini parçalayıb məhv etmək istəyənlər üzərində qələbənin nəticəsidir.

Məlum faktdır ki, Birinici dünya müharibəsində Osmanlı Dövləti məğlubiyyətə uğradıqdan sonra ərazisi işğala məruz qalmışdı. O zaman Mustafa Kamal Atatürkün başçılıq etdiyi hərəkatın mübarizəsi 1923-cü ildə milli qüvvələrin qələbəsi ilə başa çatdı. 1920-i il aprelin 23-də Ankarada Böyük Millət Məclisi quruldu. 1922-ci il noyabrın 1-də isə Osmanlı dövlətinin fəaliyyətinin dayandırıldığı elan edildi. 1923-cü ildən Türkiyə parlament üsul-idarəsi ilə idarə olunurdu. 2018-ci ildən isə ölkə prezident üsul-idarəsinə keçdi. Ölkənin ilk Prezidenti Mustafa Kamal Atatürk (1923-1938) oldu. Hazırda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğandır. Bu gün ölkə əhalisinin sayı 85 milyon nəfərdən çoxdur.

Xüsusilə vurğulanmalı məqamlardan biri də odur ki, geridə qalan bir əsrdə çox proseslər dəyişsə də, Türkiyə Cümhuriyyətinin düşmənləri dəyişməyib. Həmin qüvvələr bu gün başqa fəndlərlə, ssenarilərlə cümhuriyyəti məhv etmək istəyirlər. Ancaq tarixin çox sınaqlarından uğurla çıxmış Türkiyə Cümhuriyyəti Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi altında nəinki kiminsə təzyiqlərindən sarsılmır, əksinə, daha da qüdrətlənərək bölgədə və dünyada öz mövqeyini yaxşılaşdırmaqda davam edir.

Ərdoğan Türkiyəsi bu gün nəinki Türk Dövlətləri Təşkilatının flaqmanı, Turan ideyasının əsas lokomotivlərindən biri, İslam Əməkdaşlıq Təşkilatının aparıcı mərkəzlərinin ən öndə olanı kimi, həm də Avropada, Asiyada, Afrikada öz sözünü deyib, öz siyasətini uğurla davam etdirən qüdrətli NATO ölkəsidir.

Beynəlxalq aləmdəki haqsızlıqlara, ikili standartlara, eləcə də islamofobiya və türkfobiya meyillərinə açıq şəkildə etiraz edən Türkiyə Prezidenti BMT tribunasından dəfələrlə bəyan etmişdir ki, "Dünya beşdən böyükdür!" Yəni, Türkiyə dövləti BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan beş ölkənin beynəlxalq aləmdə baş verən prosesləri, yaranmış münaqişələrin həllini öz istədikləri şəkildə istiqamətləndirməsinə açıq şəkildə etiraz edir.

Türkiyə Cümhuriyyətinin qüdrətli və qətiyyətli olmasının müsbət nəticələrini biz – azərbaycanlıar da görmüşük. Belə ki, Prezident İlham Əliyevin dediyi kimi, İkinci Qarabağ müharibəsinin başladığı ilk saatdan etibarən Türkiyə bizim yanımızda olmuşdur. Elə Azərbaycan da Türkiyədəki məlum çevriliş cəhdi, dağıdıcı zəlzələlər, meşə yanğınları kimi, mənfi hallarla yanaşı, bütün xoş günlərdə və sevindirici məqamlarda da Türkiyənin yanında dayanmışdır.

Bu sətirləri iki qardaş dövlətin prezidentlərinin böyük tarixi hadisələr zamanı səsləndirdikləri fikirlərlə tamamlamaq istəyirik. Azərbaycan Prezidenti İlham Əliyev bu il aprelin 29-da İstanbulda keçirilən "TEKNOFEST" aerokosmik və texnologiya festivalındakı çıxışında demişdir: "Bu gün Türkiyə Avrasiyanın ticarət, enerji, nəqliyyat, siyasi mərkəzidir. Gündən-günə Türkiyənin önəmi, rolu artır. Türkiyənin güclü sənayesi həm Türkiyəni gücləndirir, həm də Türkiyənin müttəfiqlərini gücləndirir. Türk Ordusu bu gün dünya çapında ən öndə olan orduların sırasındadır. Türkiyənin müdafiə sənayesi bu gün bütün dünya tərəfindən qəbul edilir. Ən inkişaf etmiş, ən çağdaş, ən modern müdafiə sənayesi həm Türkiyəni, həm bizi gücləndirir və uzun illər bundan sonra Türkiyənin təhlükəsizliyini təmin edəcəkdir".

Cənab Prezident Rəcəb Tayyib Ərdoğan isə 2021-ci il oktyabrın 26-da Zəngilanda mətbuat üçün verdiyi bəyanatda bunları bildirmişdir: " Biz bölgədə davamlı sülhün və hərtərəfli normallaşmanın tərəfdarıyıq. Bu coğrafiyadan keçəcək quru və dəmir yolu xətləri təkcə Azərbaycan və Türkiyə üçün deyil, bütün bölgə ölkələri üçün iqtisadi və ticari fürsətlər yaradacaq... Mehriban qonşuluğun əsasını məhz bu anlayış təşkil edir. Bu məsələlərdə Ermənistanın Azərbaycana qarşı münasibətdə səmimi iradəsinə zərurət var. Əgər Ermənistan Azərbaycana qarşı xoş məram nümayiş etdirərsə, Ermənistanla Türkiyə arasında münasibətlərin normallaşmasına maneə qalmayacaq".

Sonda onu da deməliyik ki, mütəxəssislərin fikrincə, dövlət başçılarımızın ən böyük uğuru 2021-ci il iyunun 15-də imzalanmış "Qarşılıqlı müttəfiqlik fəaliyyəti haqqında Şuşa Bəyannaməsi"dir.

***İttifaq MİRZƏBƏYLİ***
***XQ***




## Anadolu – haqq, ədalət torpağı

**Bu gün dünyada gərgin siyasi proseslər gedir, faktiki olaraq yeni düzən formalaşır. Bu, planetin gələcəyi üçün olduqca mühüm önəmi olan bir hadisədir. Əlamətdar haldır ki, Türkiyə dövləti bu mühüm prosesdə qlobal güc mərkəzi olaraq iştirak edir.**



Bakı Dövlət Universitetinin Türk filologiyası kafedrasının müdiri, filologiya elmləri doktoru, professor, yazıçı-publisist Rüfət Rüstəmov Türkiyənin dünya siyasəsətində yeri və rolu barədə söz düşəndə bunları dedi:

– Əvvəla onu qeyd etmək lazımdır ki, müasir Türkiyə zəngin ənənələri olan sivil, demokratik ölkədir. Bu il mayın 14-ü və 28-də bu ölkədə keçirilən prezident seçkiləri bunu bir daha təsdiq etdi. Ankara bu prosesdən daha güclü və qüdrətli bir siyasət mərkəzi olaraq çıxdı.

Seçkilərin təkcə Türkiyə üçün deyil, bütün region dövlətləri, eləcə də türkdilli xalqlar üçün böyük əhəmiyyəti var idi. Belə ki, bu gün dünyanın yeni düzəni formalaşır. Bu proses artıq həlledici mərhələyə qədəm qoyub. Belə bir taleyüklü məqamda Türkiyənin güclü və qüdrətli olması son dərəcə vacibdir.

Türkiyənin güclənməsinin qarşısını almaq istəyən bədnam qüvvələr var və bunu hətta açıq şəkildə etiraf edirlər. Amma onlar unudurlar ki, türk ruhu hər zaman güclüdür və heç vaxt yenilməyib. Türklər müstəqil dövlət qurmağı bacaran və onu yaşadan xalqlardandır. Onlar tarix boyu 25-dən çox dövlət və imperiyalar qurublar. Bu gün Türkiyə hər zaman olduğundan daha güclüdür və haqqın-ədalətin dayanan, sözünü deyən bir ölkədir.

Bu məqamda bir faktı yadınıza salmaq istəyirəm. Məlumdur ki, Osmanlı imperiyası Birinci Dünya Müharibəsində məğlub olmuşdu və onun torpaqlarının bir hissəsini qalib dövlətlər yağmalamışdı. Bu, düşmənlərin sevincinə səbəb olmuşdu. Amma onlar türk ruhunun nəyə qadir olduğunu unutmuşdular.

Qərbin heç gözləmədiyi bir halda ortaya Qazi Mustafa Kamal Atatürk kimi bir qəhrəman sərkərdə çıxdı və milli gücləri öz ətrafında birləşdirərək Qurtuluş Savaşına başladı. "Əhalisi, əsasən, türklərdən ibarət bölgələr türk sərhədi olaraq da qalmalıdır" fikrindən yola çıxan mübarizlərin 30 avqust 1922-ci ildə Meydan Savaşını qazanması nəticəsində işğalçı güclər indiki Türkiyə torpaqlarından geri çəkilməyə məcbur oldular.

İstanbulun qurtuluşundan sonra isə Lozanna sülh müqaviləsi imzalandı: Osmanlı imperiyası tarix səhnəsindən silindi, yerində yeni dövlət – Türkiyə adlı respublika quruldu. 29 oktyabr 1923-cü ilə qədər sürən danışıqlardan sonra Cümhuriyyətin yaranması və Ankaranın paytaxt olması bütün dünyaya bəyan edildi. Fəxrlə demək lazımdır ki, bizim müdrik ulu babalarımız o ağır günlərdə türk qardaşlarının yanında olublar.

Bu gün bu cümhuriyyətin 100 yaşı tamam olur. Bu an qeyri-ixtiyari olaraq qəlbimdən dilimə Böyük Atatürkün söylədiyi bu ecazkar sözlər axır: Nə mutlu türkəm deyənə!

Hazırda Türkiyə dünyanın ən sivil və demokratik dövlətlərindən biridir. Xoşbəxtlikdən son iyirmi ildə qardaş ölkəyə çağdaş dünyanın ən müdrik və xarizmatik siyasətçilərindən olan Rəcəb Tayib Ərdoğan rəhbərlik edir. Onu haqlı olaraq "Əzilən dünyanın gur səsi" adlandırırlar. "Dünya beşdən böyükdür!" deyən Türkiyə lideri qlobal siyasətdə mərdliyin, mənəviyyatın, ədalətin rəmzinə çevrilib. Bütün bunlar bizim gözlərimiz önündə cərəyan edir. Bundan necə qürur duymamaq olar!

Azərbaycan–Türkiyə dostluğu və qardaşlığı əbədi və sarsılmazdır! Xalqımızın üç il bundan əvvəl Qarabağda düşmənə qarşı apardığı 44 günlük şanlı savaş günlərində də türk qardaşlarımız bizimlə birlikdə olublar. Qədirbilən Azərbaycan xalqı bunu heç vaxt unutmayacaq!

Bu gün möhtərəm prezidentlərimiz, müzəffər Ali Baş Komandan İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın şəxsi dostluq münasibətlərinə bütün dünya heyran qalıbdır. Dostlarımız buna görə çox sevinir, şad olur, düşmənlər isə qəm dəryasına düçar olurlar.

Bakı və Ankara əl-ələ verərək regionda sülhü, təhlükəsizliyi və sabitliyi qorumaq üçün çalışır. Azərbaycan regionun iqtisadi lokomotivinə çevrilir. Düşünürəm ki, türk dünyasını quru yolla birləşdirəcək Zəngəzur dəhlizinin açılması zamanın tələbidir və bu, mütləq həyata keçiriləcək.

Əlahəzrət Zaman Türkiyənin və dünyadakı bütün türklərin xeyrinə işləyir. Üfüqdən regiona və bütün dünyaya sülh və təhlükəsizlik missiyasını icra etməyə hazır olan Böyük Turan boylanır.

***Söhbəti qələmə aldı:***
***Məsaim ABDULLAYEV***
***XQ***

## Çanaqqala – tarixdə Zəfər zirvəsi

*Qurtuluş savaşının dastana çevrilən şanlı səhifəsi*

**Çanaqqala türk əsgərinin özünün şərəfi və ləyaqəti, əqidəsi sandığı Vətəni qoruma gücündə olduğunu, eyni zamanda, millətin yenilməz ruhunu göstərən bir savaş meydanıdır. Məhz türk əsgərinin şücaəti sayəsində "Çanaqqala dəniz döyüşü" Antanta üçün hərbi səriştəsizlik və fəlakət simvolu kimi tarixə yazıldı. Bu zəfər sonradan bütün Türk dünyasının qürur mənbəyinə çevrildi. Həmin qələbənin qazanılmasında Azərbaycanın da payı var. Qafqazdan qardaş Türkiyəyə köməyə gedən müsəlmanların arasında 3 minə yaxın azərbaycanlı əsgər və zabit vardı.**

259 gün (1915-ci il aprelin 25-dən 1916-cı il yanvarın 9-dək) davam edən, böyük insan itkisi ilə (türklər – 250869, ingilislər – 216014 və fransızlar – 47745) ilə nəticələnən Çanaqqala döyüşü həm də yurd sevgisinin, mənəvi gücün hərbi-texniki üstünlüklər üzərində qalibiyyət rəmzidir.

Bir çox maraqlı fakt və hadisələri ilə dünya hərb tarixinə düşən Çanaqqala döyüşünün bəzi özəlliklərini oxucuların nəzərinə çatdıtraq:

– Bu savaşda hər kvadratmetrə orta hesabla 6000 güllə atılıb. Bu, dünya müharibələri tarixində ən yüksək göstərici hesab olunur;

– iki güllənin havada toqquşma ehtimalı 600 milyonda bir olsa da, o döyüşdə bir neçə güllənin havada bir-birinə yapışması faktı qeydə alınıb;

– türk topçuları cəmi 6 saat ərzində İngiltərə–Fransa donamasının 5 hərbi gəmisini batırıblar;

– Çanaqqala savaşında türk əsgəri ilə çiyin-çiyinə qadın piyadalar və snayperlər də döyüşüblər.

Çanaqqala dastanının qəhrəmanlıq qollarından biri də topçu Seyid onbaşının adı ilə bağlıdır. Düşmən gəmisi sahilə yaxınlaşırdı və əgər boğaza girsəydi, Anadolunun taleyi həll olunacaq, müttəfiqlər İstanbulu işğal edəcəkdilər. Yanındakı topçuların hamısı şəhid olandan sonra tək qalan Seyid çavuş 256 kiloqramlıq sonuncu top mərmisi ilə üz-üzə dayanmışdı. O, Tanrının verdiyi güclə mərmini çətinliklə olsa da götürüb, topa qoyur və gəmiyə atəş açır. Mərmi gəminin gövdəsini dağıdır və onu batırır. Seyid çavuşun bu şücaəti düşmənin geri çəkilməsinə səbəb olur. Beləliklə, bir topçu bir mərmi ilə Çanaqqala döyüşündə dönüş yaradır.

Döyüş meydanını təyyarədən izləyən britaniyalı pilot sahildən 50 metr aralıda dənizin al-qırmızı rəngə boyandığını görür və bunu həyatının ən qorxulu hadisəsi adlandırır.

Çanaqqalada türk əsgərinin göstərdiyi əzm və şücaət düşmən generallarını, siyasi xadimlərini belə heyrətə gətirmişdi. İngiltərənin Baş naziri Uinston Çörçill "Türklər Çanaqqalada ən müasir texnika ilə silahlanmış müttəfiq güclərin qarşısında qala kimi dayanmışdılar", ingilis generalı Oqlander isə "Türk əsgərinin döyüşkənliyinin nəzərə alınmaması ingilislər üçün fəlakət oldu" – demişdilər.

Türkiyəni Cümhuriyyətə aparan yolda həlledici nöqtə sayılan Çanaqqala döyüşü zamanı Mustafa Kamal gənc polkovnik-leytenant olsa da, artıq sərkərdəlik bacarığını, hərbi dühasını isbat etmişdi. O, 1915-ci il aprelin 25-də 57-ci piyada alayını ilk döyüşə aparmışdı. Avqust ayındakı döyüşlərdə isə Qazi Mustafa Kamal Atatürkün hərbi istedadından hamı xəbər tutdu. Çanaqqala döyüşləri məhz onun iştirakına görə Qurtuluş savaşının hazırlıq mərhələsi hesab olunur.

Hər il martın 18-i bir millətin hürriyyət, Vətən və torpaq uğrunda gücünü ortaya çıxaran və onun nəyə qadir olduğunu göstərən, bu şərəfli döyüşdə canlarını fəda etmiş igid oğul və qızlarını – Çanaqqala Şəhidlərini Anma Günü kimi qeyd olunur. Çanaqqala döyüşü məhvolma vəziyyəti ilə üzləşmiş bir ölkənin möhtəşəm Qələbəsi kimi hər bir türkün mübarizliyinin rəmzi kimi əbədiləşib.




Türk əsgəri Vətən uğrunda savaşmağın nümunəsini ortaya qoydu, dünyaya bir hərbi dərs keçdi və qalib gəldi. Çanaqqala döyüşü və zəfəri olmasaydı, Birinci dünya müharibəsinin nəticələri, elə dünyanın özü də tamam başqa cür olardı.

Yüz il əvvəl olduğu kimi, bu gün də tarixin şanlı səhifələrini hilallı-ayparalı bayraqları yanaşı dalğalanan Türkiyə və Azərbaycan bir yerdə yazır.

***İ.HƏSƏNQALA***
***XQ***

***Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 oktyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir***

# Xarici ölkədə çətin həyat şəraitində olan yetkinlik yaşına çatmayan Azərbaycan Respublikası vətəndaşlarının repatriasiyası və reabilitasiyası QAYDALARI

**1. Ümumi müddəalar**

1.1. Bu Qaydalar valideyninin və ya digər qanuni nümayəndəsinin müşayiəti olmadan xarici ölkədə aşkar edilmiş, çətin həyat şəraitində olan yetkinlik yaşına çatmayan Azərbaycan Respublikası vətəndaşlarının repatriasiyası və reabilitasiyası ilə bağlı təşkilati və hüquqi məsələləri tənzimləyir.

1.2. Bu Qaydaların məqsədi valideyninin və ya digər qanuni nümayəndəsinin müşayiəti olmadan xarici ölkədə aşkar edilmiş, çətin həyat şəraitində olan yetkinlik yaşına çatmayan Azərbaycan Respublikası vətəndaşlarının repatriasiyası və reabilitasiyası üzrə aidiyyəti dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsi, baxımsız və sosial təhlükəli vəziyyətdə olan şəxslərin hüquqlarının müdafiəsidir.

1.3. Valideyninin və ya digər qanuni nümayəndəsinin müşayiəti olmadan xarici ölkədə aşkar edilmiş, çətin həyat şəraitində olan yetkinlik yaşına çatmayan Azərbaycan Respublikası vətəndaşlarının repatriasiyası və reabilitasiyası üzrə tədbirlər həyata keçirilərkən Azərbaycan Respublikası Ailə Məcəlləsinin, Azərbaycan Respublikası Mülki Məcəlləsinin, "Uşaq hüquqları haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" və "Sosial xidmət haqqında" Azərbaycan Respublikası qanunlarının, bu Qaydaların və digər normativ hüquqi aktların tələbləri rəhbər tutulur.

1.4. Bu Qaydaların məqsədləri üçün aşağıdakı əsas anlayışlardan istifadə edilir:

1.4.1. repatriasiya – valideyninin və ya digər qanuni nümayəndəsinin müşayiəti olmadan xarici ölkədə aşkar edilmiş, çətin həyat şəraitində olan yetkinlik yaşına çatmayan Azərbaycan Respublikası vətəndaşının Azərbaycan Respublikasına (bundan sonra – ölkə) gətirilməsi ilə bağlı həyata keçirilən tədbirlərin məcmusu;

1.4.2. repatriant – valideyninin və ya digər qanuni nümayəndəsinin müşayiəti olmadan xarici ölkədə aşkar edilmiş, çətin həyat şəraitində olan və repatriasiya edilməsi nəzərdə tutulan yetkinlik yaşına çatmayan şəxs;

1.4.3. reabilitasiya – repatriantın itirilmiş sosial əlaqələrinin bərpası, çatışmazlıqların korreksiyası üçün həyata keçirilən tibbi, sosial və psixoloji tədbirlərin məcmusu.

1.5. Bu Qaydalarda istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" və "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında, eləcə də Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarında nəzərdə tutulmuş mənaları ifadə edir.

1.6. Repatriantın repatriasiyası və reabilitasiyası, fəaliyyət istiqamətlərinə uyğun olaraq, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti, Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi və Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası tərəfindən həyata keçirilir.

1.7. Repatriantların repatriasiyası və reabilitasiyası üzrə tədbirlərin əlaqələndirilməsi məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən bu Qaydaların 1.6-cı bəndində qeyd edilən dövlət orqanlarının (qurumlarının) nümayəndələrindən ibarət İşçi qrup (bundan sonra – İşçi qrup) yaradılır.

1.8. Bu Qaydalarda nəzərdə tutulan reabilitasiya tədbirləri readmissiya sazişləri əsasında Azərbaycan Respublikasına qaytarılan çətin həyat şəraitində yaşayan yetkinlik yaşına çatmayan şəxslərə də şamil edilir.

**2. Repatriantın repatriasiyası üzrə tədbirlər**

2.1. Repatriantın aşkarlanması istiqamətində tədbirlər daxil olmuş məlumatlar əsasında Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti və Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası tərəfindən həyata keçirilir.

2.2. Repatriantın Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyətinin müəyyənləşdirilməsi ilə bağlı Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinə sorğu verilməsi və repatriantın şəxsiyyətinin müəyyən edilməsi üçün dezoksiribonuklein turşusu (bundan sonra – DNT) analizinin aparılması Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəlikləri və ya konsulluqları vasitəsilə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi tərəfindən təşkil edilir.

2.3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi repatriantın Azərbaycan Respublikasına gətirilməsi ilə bağlı onun aşkar edildiyi xarici ölkənin səlahiyyətli orqanları (qurumları) ilə danışıqlar aparır.

2.4. Repatriasiya repatriantın həyat və sağlamlığı üçün təhlükəli olduğu hallarda Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi repatriasiya prosesini həmin təhlükə aradan qalxanadək dayandırır, repatriantın hüquqlarının və qanuni mənafelərinin qorunması istiqamətində onun olduğu xarici ölkənin müvafiq dövlət orqanı (qurumu) ilə əlaqələndirilmiş şəkildə zəruri tədbirlər görür.

2.5. Repatriasiya prosesinin dayandırılmasına səbəb olan hallar aradan qaldırıldıqdan sonra repatriantın ölkəyə gətirilməsi məqsədilə bu Qaydalarla müəyyən edilmiş tədbirlər davam etdirilir.

2.6. Repatriant barədə aşağıdakı məlumatlar və sənədlər (hər hansı biri olmadıqda, bu barədə qeyd əlavə edilməklə) Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi tərəfindən Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə və Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə təqdim edilir:

2.6.1. repatriant haqqında məlumatlar (soyadı, adı, atasının adı, cinsiyyəti, doğum tarixi, doğulduğu yer, fotoşəkli);

2.6.2. repatriantın doğum faktını təsdiq edən sənəd;

2.6.3. aşkarolunma şəraiti və yeri barədə məlumat;

2.6.4. Azərbaycan Respublikasının vətəndaşlığını təsdiq edən sənəd və ya Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyətinin tanınmasına dair sənəd;

2.6.5. valideynləri və ya digər qanuni nümayəndələri (olduqda) və ya valideyn himayəsindən məhrum olma səbəbləri haqqında məlumat;

2.6.6. sağlamlıq vəziyyəti barədə məlumat.

2.7. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi bu Qaydaların 2.6-cı bəndində qeyd olunmuş məlumatlar və sənədlər əsasında repatriantın şəxsiyyəti, ailə üzvləri, qohumluq əlaqələri, həmin şəxslərin yaşayış ünvanları və əlaqə vasitələrinin müəyyən edilməsi məqsədilə ilkin araşdırma aparır və bu barədə məlumatları repatriantın Azərbaycan Respublikasında yaşayan valideyninin qeydiyyatda olduğu ərazi üzrə, repatriantın Azərbaycan Respublikasında yaşayan valideyni olmadıqda, Azərbaycan Respublikasında yaşayan digər ailə üzvlərinin və ya qohumlarının qeydiyyatda olduqları ərazi üzrə qəyyumluq və himayə orqanına, bu barədə də məlumat olmadıqda Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yerləşdiyi ərazi (rəsmi ünvanı) üzrə qəyyumluq və himayə orqanına (bundan sonra – qəyyumluq və himayə orqanı) təqdim edir.

2.8. Bu Qaydaların 2.6-cı bəndində qeyd olunmuş məlumatlar və sənədlər Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə də təqdim edilir.

2.9. Qəyyumluq və himayə orqanı valideyn himayəsindən məhrum olan repatriant haqqında təqdim olunmuş sənədləri və məlumatları Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminə daxil edir.

2.10. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi repatriantın olduğu xarici ölkənin müvafiq səlahiyyətli orqanı (qurumu) ilə birlikdə repatriantın ölkəyə gətirilmə tarixini müəyyən edir.

2.11. İşçi qrup repatriantın ölkəyə gətirilməsi üçün müəyyən edilmiş tarixdən 5 (beş) gün əvvəl iclas keçirir. İclasda repatriantın repatriasiyası və reabilitasiyası ilə bağlı İşçi qrupun tərkibinə daxil olan dövlət orqanları (qurumları) tərəfindən fəaliyyət istiqamətlərinə uyğun olaraq həyata keçirilmiş və keçirilməsi nəzərdə tutulan məsələlər müzakirə edilir.

2.12. Repatriantın ölkəyə gətirilməsi Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin müraciəti əsasında Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq tapşırığına əsasən, İşçi qrupun aidiyyəti üzvlərindən ibarət heyətin xarici ölkəyə ezam olunması yolu ilə həyata keçirilir. Heyətin tərkibində 1 (bir) nəfər psixoloq olmalıdır. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi repatriantın sərhədkeçmə sənədinin rəsmiləşdirilməsini, Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqəsinə qədər gətirilməsini və təşkilati məsələlərin müvafiq xarici dövlətin səlahiyyətli orqanları (qurumları) ilə razılaşdırılmasını bu Qaydaların 1.6-cı bəndində qeyd edilən dövlət orqanları (qurumları) ilə birlikdə təşkil edir.

2.13. Ölkəyə gətirilən repatriantın dövlət sərhədindən buraxılış məntəqələrində qarşılanması Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin müraciəti əsasında Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq tapşırığına əsasən, İşçi qrupun aidiyyəti üzvlərindən ibarət heyətin iştirakı ilə həyata keçirilir.

2.14. Repatriantın ölkəyə gətirilməsi üçün nəzərdə tutulan təşkilati, nəqliyyat, səhiyyə (DNT analizi daxil olmaqla) və digər xərclərin, o cümlədən repatriantın doğum faktının müəyyən edilməsi ilə bağlı tələb olunan xərclərin maliyyələşdirilməsi Azərbaycan Respublikasının dövlət büdcəsinin vəsaiti hesabına təmin edilir. Bu xərclər Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin təqdim etdiyi müvafiq hesablamalar əsasında, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmaqla, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə məqsədli şəkildə ayrılır.

2.15. Sağlamlıq vəziyyətinə görə repatriasiya prosesində həkim nəzarəti tələb edilən repatriantın ölkəyə gətirilməsi təcili və təxirəsalınmaz tibbi yardım həkiminin iştirakı ilə həyata keçirilir. Repatriasiya prosesində tibb işçilərinin iştirakı və repatriantın sağlamlıq vəziyyəti xüsusi tibbi avadanlıqlar tələb etdikdə, həmin avadanlıqlar Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi tərəfindən təmin edilir.

**3. Repatriantın reabilitasiyası üzrə tədbirlər**

3.1. Repatriant ölkəyə gətirildikdən dərhal sonra Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin qərarı əsasında müvəqqəti olaraq müvafiq sosial xidmət müəssisəsinə yerləşdirilir və onun reabilitasiyası 2 (iki) ay müddətində təşkil edilir. Repatriantın sosial xidmət müəssisələrinə qəbulu və ona xidmət göstərilməsi ilə bağlı tədbirlər Azərbaycan Respublikası Mülki Məcəlləsinin 35.4-cü maddəsinə, "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" və "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq həyata keçirilir.

3.2. Repatriant üçün fərdi plan Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən İşçi qrupla razılaşdırılmaqla hazırlanır və həyata keçirilir.

3.3. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin sosial işçiləri tərəfindən reabilitasiya müddətinin sonunda yekun qiymətləndirmə hesabatı tərtib edilərək İşçi qrupa təqdim edilir.

3.4. Reabilitasiya mərhələsində olan və ya reabilitasiyadan keçmiş repatriantın mənafeyinə uyğun şəkildə valideyninə və ya onu əvəz edən şəxsə qaytarılması istiqamətində Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və qəyyumluq və himayə orqanı ilə birgə tədbirlər həyata keçirir.

3.5. Repatriantın valideyninə və ya onu əvəz edən şəxsə qaytarılması həyat və sağlamlığı üçün birbaşa təhlükə yaratdığı hallarda, Azərbaycan Respublikası Ailə Məcəlləsinin 72-ci maddəsi ilə müəyyən edilmiş tədbirlər həyata keçirilir.

3.6. Valideyn himayəsindən məhrum olan repatriant Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin qərarı əsasında Azərbaycan Respublikası Ailə Məcəlləsinin 116-cı maddəsinə uyğun yerləşdirilir.

3.7. Repatriant valideyninə və ya onu əvəz edən şəxsə qaytarıldıqdan və ya bu Qaydaların 3.6-cı bəndinə əsasən yerləşdirildikdən sonra həmin repatrianta münasibətdə sosial-psixoloji reabilitasiya işi bu Qaydaların 3.2-ci bəndində nəzərdə tutulan plan əsasında Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müvafiq yerli qurumlarının mütəxəssisləri və digər aidiyyəti dövlət orqanlarının (qurumlarının) mütəxəssisləri ilə birgə davam etdirilir.

3.8. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, repatriantın yaşadığı yer üzrə təhsilə cəlb edilməsi Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən təmin edilir.

**4. Monitorinqlərin və nəzarət tədbirlərinin keçirilməsi**

4.1. Repatriant qəyyumluq və ya himayəyə verildiyi halda, qəyyumluq və himayə orqanı repatriantın qəyyumluğa və ya himayəyə verildiyi andan həmin il hər rüb, növbəti illərdə 18 yaşına çatanadək ildə 2 (iki) dəfə olmaqla onun saxlanılması, tərbiyəsi, eləcə də əqli, fiziki, psixoloji və psixi sağlamlıq vəziyyətinin öyrənilməsi məqsədilə monitorinqlər aparır.

4.2. Hər monitorinqdən sonra hesabat hazırlanır və hesabatın bir nüsxəsi repatriantın hüquqlarının və qanuni mənafelərinin qorunmasına səmərəli nəzarətin təşkili məqsədilə İşçi qrupa təqdim edilir.

4.3. Monitorinq nəticəsində repatriantın hüquqlarını və qanuni mənafelərini pozan, onun tərbiyəsinə, fiziki və psixi vəziyyətinə mənfi təsir göstərən hallar aşkar edildikdə, qəyyumluq və himayə orqanı bu barədə yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə yerli komissiyaya məlumat verir və Azərbaycan Respublikasının mülki və ailə qanunvericiliyinin tələblərinə əsasən qəyyumluğa və himayəçiliyə xitam verilməsi, uşağın sosial xidmət müəssisəsinə yerləşdirilməsi ilə bağlı dərhal Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə məlumat verir.

4.4. Repatriant övladlığa götürüldüyü hallarda monitorinqlər Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 fevral tarixli 946 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsi, o cümlədən Azərbaycan Respublikasının vətəndaşı olan uşaqların əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürülməsi Qaydası"na, himayədar ailəyə verildiyi hallarda isə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq həyata keçirilir.

4.5. Repatriant valideyn himayəsindən məhrum olan uşaqlar üçün sosial xidmət müəssisələrinə yerləşdirildiyi hallarda monitorinqlər Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli 626 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"na uyğun həyata keçirilir.

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 382** **Bakı şəhəri, 26 oktyabr 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 26 avqust tarixli 292 nömrəli Qərarı ilə təsdiq edilmiş "Qeyri-hökumət təşkilatları tərəfindən mədəniyyət sahəsində keçirilən tədbirlərin dövlət maliyyələşdirilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 26 avqust tarixli 292 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 8, maddə 1024; 2016, № 3, maddə 598; 2019, № 3, maddələr 517, 527; 2020, № 10, maddə 1308; 2021, № 9, maddə 1064) ilə təsdiq edilmiş "Qeyri-hökumət təşkilatları tərəfindən mədəniyyət sahəsində keçirilən tədbirlərin dövlət maliyyələşdirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1.1-ci bəndə "tədbirlərin" sözündən sonra "və layihələrin (bundan sonra - tədbir)" sözləri əlavə edilsin.

**2.** 1.2-ci bənddə "layihələri" sözü "tədbirləri" sözü ilə, "tədbirlər" sözü isə "fəaliyyətlər" sözü ilə əvəz edilsin.

**3.** 2.1-ci bənddən "yanvarın 31-dək" sözləri çıxarılsın və həmin bənddə "3 (üç) iş günü müddətində" sözləri "ərizələrin təqdim edilməsi üçün müəyyənləşdirilmiş son tarixdən ən azı 10 (on) gün əvvəl" sözləri ilə əvəz edilsin.

**4.** 2.1-ci, 2.11-ci, 3.3-cü bəndlərdə "elektron saytında" sözləri "internet səhifəsində" sözləri ilə əvəz edilsin.

**5.** 2.2-ci bənddə "hər il martın 1-dək" sözləri "elanda müəyyən edilmiş müddət ərzində" sözləri ilə əvəz edilsin.

**6.** 2.3-cü bənddə "düzgünlüyünün və tamlığının yoxlanılması üçün müvafiq şöbəyə təqdim edilir" sözləri "düzgünlüyü və tamlığı yoxlanılır" sözləri ilə əvəz edilsin.

**7.** 2.4-cü bəndə "qəbulu üçün" sözlərindən sonra "elanda" sözü əlavə edilsin, "müddətdə" sözü "müddət ərzində" sözləri ilə əvəz edilsin.

**8.** 3.1-ci bənddən "hər il mayın 1-dək" sözləri çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 383** **Bakı şəhəri, 26 oktyabr 2023-cü il**

***"Qida və yem məhsullarına sağlamlıq sertifikatlarının verilməsi Qaydası və forması"nın təsdiq edilməsi haqqında***

"Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VIQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 26 yanvar tarixli 267 nömrəli, "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı əlavə tədbirlər barədə" 2003-cü il 23 oktyabr tarixli 969 nömrəli fərmanlarının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 24 iyun tarixli 1723 nömrəli Fərmanının 1.1.11-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Qida və yem məhsullarına sağlamlıq sertifikatlarının verilməsi Qaydası və forması" təsdiq edilsin (əlavə olunur).

**2.** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

***Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.***

# Fövqəladə hallar naziri Tovuzda vətəndaşları dinləyib



**Prezident İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin respublikanın bölgələrində vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, oktyabrın 28-də fövqəladə hallar naziri Kəmaləddin Heydərov Tovuz şəhərində, Olimpiya İdman Kompleksinin inzibati binasında Tovuz, Ağstafa və Qazax rayonlarının sakinləri ilə görüş keçirib.**

FHN-in mətbuat xidmətindən verilən məlumata görə, əvvəlcə nazir xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Tovuz şəhərindəki abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub, əziz xatirəsini dərin ehtiramla anıb.

Sonra fövqəladə hallar naziri tərəfindən qəbul edilən Tovuz, Ağstafa və Qazax rayonlarının sakinlərinin müraciətlərinin əksəriyyəti yerində həllini tapıb. Bir sıra məsələlərlə bağlı qanunvericiliyə uyğun dərhal zəruri tədbirlərin görülməsi barədə nazirliyin aidiyyəti strukturlarının rəhbərlərinə tapşırıqlar verilib.

Fövqəladə hallar naziri ilə yanaşı, nazir müavinləri, nazirliyin müvafiq baş idarə və qurum rəhbərləri də vətəndaşlarla görüşüb.

Görüşə gələn vətəndaşlar onların müraciətlərinə yerində və operativ yanaşılması üçün yaradılan şəraitə görə dövlətimizin başçısına minnətdarlıq ediblər.

# Ermənistan irqçi siyasəti davam etdirir

**Məlumdur ki, Ermənistan azərbaycanlıları etnik təmizləməyə məruz qoyması, Azərbaycana qarşı münaqişə başlatması və regionda özünütəcrid siyasəti nəticəsində ciddi demoqrafik böhranla üzləşib.**

Bu günlərdə Ermənistan Cenevrədə demoqrafiya mövzusunda keçirilmiş regional konfransda özünün 2023-2040-cı illər üzrə demoqrafiya strategiyasını təqdim edib.

Strategiya Ermənistan hökumətinin etnik ayrı-seçkiliyə əsaslanan irqçi siyasətini bir daha sübut edir. Belə ki, strategiyada Ermənistandan qovulmuş azərbaycanlıların qayıdışı məsələsi yer almır. Sənəddə repatriasiya bir hüquq və dövlətin təşviq etməli olduğu məqsəd kimi ancaq etnik ermənilərə aid edilir. Ciddi demoqrafik böhranla üzləşmiş bir ölkənin oranın qanuni sakinləri olan əhali qrupunun öz evlərinə qayıdışına etnik mənsubiyyət səbəbindən imkan verməməsi onun irqçi siyasətinin göstəricisidir.

Bu barədə Qərbi Azərbaycan İcmasının bəyanatında bildirilib.

Qərbi Azərbaycan İcması bəyanatında vurğulayır ki, Ermənistanın demoqrafik problemlərinin həlli regionda sülhün bərqərar edilməsindən və Ermənistandan qovulmuş azərbaycanlıların qayıdış hüquqlarının təmin edilməsindən keçir.

İcma Ermənistan hökumətini sülhü seçməyə, monoetniklik siyasətindən əl çəkməyə, etnik müxtəlifliyə əsaslanan birgəyaşayış prinsiplərinə hörmət etməyə və Ermənistandan qovulmuş azərbaycanlıların təhlükəsiz şəkildə və ləyaqətlə qayıdışını təmin etməyə çağırır.

***XQ***

# Vergi islahatları iqtisadi inkişafı stimullaşdırıb

## *9 ayda bu sahədən daxilolmalar 12,8 milyard manata yüksəlib*

**Son illər ərzində vergi sistemində həyata keçirilən genişmiqyaslı islahatlar nəticəsində sahənin maddi-texniki bazası müasirləşdirilib, vergi inzibatçılığı texnoloji cəhətdən yenidən qurulub, biznes mühiti münbitləşib. Nəticədə vergi daxilolmalarının davamlı artımına nail olunub.**



Dövlət Vergi Xidmətinin (DVX) məlumatına əsasən, 2002-ci ildən indiyədək vergi daxilolmalarında artım 23 dəfəyədək artıb. Cari ilin yanvar-sentyabr aylarında isə DVX tərəfindən toplanan vergi daxilolmaları 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 22,6 faiz yüksələrək 12 milyard 810 milyon manat təşkil edib.

Bu dövrdə qeyri-neft-qaz sektorundan vergi daxilolmaları əvvəlki ilin eyni dövrü ilə müqayisədə 19,3 faiz artaraq 7 milyard 425,8 milyon manata çatıb. Belə bir müsbət tendensiyanın davamlı olması üçün DVX biznes mühitində şəffaflığın artırılması və vergi inzibatçılığının təkmilləşdirilməsi istiqamətində bundan sonra da səyləri davam etdirəcəyini bildirib.

Son illərdə DVX-də "kölgə iqtisadiyyatı" ilə mübarizə və şəffaflığa əməl edilməsi, biznes mühitinin səmərəliliyinin artırılması kimi məsələrə xüsusi önəm verilib. Bütün bunlar vergi daxilolmalarının əhəmiyyətli artımı ilə nəticələnib, ölkəmizin maliyyə imkanlarının genişlənməsini, sahibkarların sayının getdikcə artmasını şərtləndirib. Belə ki, əgər 2002-ci ildə respublikada cəmi 180 minə yaxın sahibkarlıq subyekti mövcud idisə, 2022-ci ilin sonuna qeydiyyatda olan vergiödəyicilərinin sayı 1,4 milyonu keçib, fəal vergiödəyicilərinin sayı isə 2022-ci ilin sonuna 712 mini ötüb.

Vergi sistemində həyata keçirilən islahatlar nəticəsində ötən il ilk dəfə dövlət büdcəsinə 15,5 milyard manat həcmində vergi daxilolması reallaşdırılıb. Prezident İlham Əliyev bununla bağlı deyib: "İqtisadi sahədə aparılan islahatlar imkan verdi ki, 6 ayda vergilər sahəsində proqnozdan əlavə 2 milyard manat pul yığıldı, çünki şəffaflıq var, dürüstlük var, hesabatlılıq var. Biznes dairələrinə bir neçə il bundan əvvəl möhlət verilmişdi ki, onlar da normal relslərə keçsinlər, daha o kölgə iqtisadiyyatından əl çəksinlər. Onlara himayədarlıq edənlərə də, necə deyərlər, dərs verildi. Ona görə, 6 ayda 2 milyard manat əlavə ancaq vergi orqanları yığıbdır və biz bundan istifadə edirik. İlin sonuna hələ təxminən 6 ay var. Budur, bizim maliyyə-iqtisadi imkanlarımızın əsas faktoru".

Qarşıdakı dövrdə də vergi siyasətinin, ilk növbədə, iqtisadi təşviq, səmərəli nəzarət, rəqəmsallaşma prinsipləri əsasında həyata keçirilməsi nəzərdə tutulub. Bundan başqa, iqtisadiyyatın şaxələndirilməsi və investisiyaların cəlb olunmasında vergi siyasətinin tənzimləyici rolunun davam etdiriləcəyi, "kölgə iqtisadiyyatı" ilə sistemli mübarizənin miqyasının genişləndiriləcəyi planlaşdırılıb.

Bütün bu məsələlər haqqında DVX və Azərbaycanda Amerika Ticarət Palatasının ("AmCham Azərbaycan") birgə təşkilatçılığı ilə "Vergi şəffaflığı: nailiyyətlər və çağırışlar" mövzusunda keçirilən konfransda ətraflı danışılıb, vergi islahatlarında dövlət-biznes dialoqu, qarşılıqlı etimadın artırılması və ictimai əməkdaşlığın gücləndirilməsi kimi təşəbbüslərin önəmi xüsusi vurğulanıb, eyni zamanda, biznes–vergi siyasətinin yumşaq və ya sərt deyil, balanslı olmasına üstünlük verilməsinin zəruriliyi diqqətə çatdırılıb.

Konfransda, həmçinin "kölgə iqtisadiyyatı"nın azaldılması istiqamətində ciddi dəyişikliklərin əsasının qoyulduğu, sahibkarlıq subyektləri üçün açıq reyestr çıxışı olan məlumat bazasının qurulması ilə kontragentlərin seçilməsi prosesinin sürətləndirilməsi, bütün bunlarla yanaşı, gələcəkdə vergi və kapitala amnistiyanın şəffaflığının artırılması, ümumbəyannamə sisteminə keçidin reallaşdırılması layihələrinin həyata keçirilməsinin nəzərdə tutulduğu qeyd edilib.

Tədbirdə DVX-də aparılan struktur dəyişikliklərinə də toxunulub, qurumun mövcud strukturunun vergiödəyici təsnifatı və ərazi prinsipi üzrə qurulduğu, eyni zamanda, müraciət və şikayətlərə daha keyfiyyətli baxmaq imkanı yaratmaq məqsədilə vergiödəyicilərinin risklərinin təhlili və onun monitorinqi ilə bağlı yeni strukturun yaradıldığı bildirilib. Növbəti mərhələdə isə DVX-də funksional sahə üzrə idarəetmə prinsipinə keçiləcəyi, bunun isə vergi siyasəti və inzibatçılığını vahid bir şəkildə idarə etməyə, fiskal orqanla vergiödəyiciləri arasında daha şəffaf münasibətlərin formalaşmasına imkan yaradacağı vurğulanıb.

Yeri gəlmişkən, xatırladaq ki, respublikada fiskal sahədə gerçəkləşdirilən şəffaflıq sayəsində vergi daxilolmalarının nominal artım tempi ÜDM-in nominal artım tempini 7,7 faiz üstələyib, bu, iqtisadiyyatın böyüməsinə, sahibkarların dayanıqlı gəlirlər sisteminin formalaşmasına əsaslı təsir göstərib. Xüsusilə mikro sahibkarlıq subyektlərinin kiçiyə, kiçikdən ortaya çevrilməsinin iqtisadiyyatda keyfiyyət dəyişikliklərini daha da artıra biləcəyinə əlverişli şərait, eyni zamanda, perspektivdə haqsız rəqabətin aradan qaldırılmasına müsbət zəmin yaradıb.

Respublikada vergi sisteminin davamlı şəkildə təkmilləşdirilməsi qeyri-neft sektorunun inkişafında da özünü qabarıq büruzə verib. Başqa sözlə, bu istiqamətdə icra olunan vergi islahatları yeni qurulan iqtisadi zonalarda əlverişli biznes şəraitinə müsbət təsir göstərib. Məsələn, son illərdə texnologiya və sənaye parklarının rezidentləri üçün səmərəli vergi mühiti yaradılıb. Hər bir startap üç il müddətinə gəlir vergisindən azad edilib. Həmçinin kənd təsərrüfatı sahəsində vergi dərəcələri azaldılıb və sahibkarlıq fəaliyyətinin təşviqi diqqət mərkəzində saxlanılıb. Biznes fəaliyyətinin inkişafında bütünlükdə rəqəmsallaşma böyük rol oynayıb. Şübhəsiz ki, bu məsələnin həllinə hər bir sahibkar üçün əlçatan dövlət vergi sisteminin yaradılması önəmli təsir göstərib.

Qeyd edək ki, son illər ərzində sahibkarlıq subyektlərinin vergi yükünün azaldılması və sahibkarlıq fəaliyyətinin təşviqi, sosial xarakterli güzəştlər vasitəsilə əhalinin vergi yükünün aşağı salınması, vergitutma bazasının genişləndirilməsi, vergi nəzarəti mexanizminin və vergi inzibatçılığının təkmilləşdirilməsi əsas prioritet istiqamətlərdir. Vergi siyasətinin hədəfləri yenə də biznesin təşviqi, vergi yükünün optimallaşdırılması və risklərin minimallaşdırılmasıdır. Şübhəsiz ki, bu məsələlərin gerçəkləşdirilməsi də "kölgə iqtisadiyyatı"nın azalmasına, iqtisadiyyatda şəffaflaşma indikatorları üzrə müşahidə olunan göstəricilərin yüksəlməsinə, qeyri-neft sektorunda daha sürətli artımın əldə edilməsinə gətirib çıxarır.

Hazırda vergi inzibatçılığının keyfiyyətinin artması şəraitində qarşıda duran fiskal öhdəliklər üzrə proqnozların icra edilməsi, vergiödəyicilərinə xidmətlərin çeşidinin və keyfiyyətinin artırılması, risk əsaslı nəzarət sisteminin genişləndirilməsi, ortamüddətli perspektiv üçün vergi siyasəti üzrə məqsədlərin həyata keçirilməsi əsas istiqamətlərdir. Beləliklə, vergi siyasətinin iqtisadiyyatın, o cümlədən sahibkarlığın inkişafında, böyüməsində və güclənməsində iştirakı artmaqda davam edir.

***Vaqif BAYRAMOV***
***XQ***

**İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətindən verilən məlumata görə, cari ilin yanvar–sentyabr aylarında respublikada 373 min 647 daşınmaz əmlak üzərində mülkiyyət hüququ dövlət qeydiyyatına alınıb. Məlumata görə, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 43,8 faiz çoxdur.**

# Daşınmaz əmlakın dövlət qeydiyyatı 44 faiz artıb




9 aylıq göstəricinin 58 min 314-ü və yaxud 15,6 faizi ilkin, 315 min 333-ü və yaxud 84,4 faizi isə təkrar qeydiyyatın payına düşüb.

Hesabat dövründə 300 min 179 daşınmaz əmlakın texniki inventarlaşdırılması aparılıb və texniki pasportu tərtib edilib. Bu, bir il əvvələ nisbətən 47,7 faiz çoxdur. Son bir ildə qeydiyyata alınan ipoteka müqavilələrinin sayı isə 19,6 faiz artaraq 61 min 393 təşkil edib.

# Respublikada qazlaşdırma yekun mərhələyə daxil olub

**Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) "Azəriqaz" İstehsalat Birliyinin məlumatına görə, bu ilin noyabr ayından etibarən respublikamızda daha 40 kənd və yaşayış massivinin qazlaşdırılmasına başlanılacağı planlaşdırılıb.**



Cari il ərzində isə ölkədə 150 kənd və yaşayış massivinin qazlaşdırılması nəzərdə tutulub ki, artıq onlardan 110-da işlər yekunlaşmaq üzrədir. Bu yaşayış məntəqələrinin qazlaşdırılmasının növbəti ilin birinci rübündə yekunlaşması nəzərdə tutulub.

Qeyd edək ki, artıq ölkə üzrə qazlaşdırma səviyyəsi 96,4 faiz təşkil edir. Hazırda ölkədə 900-ə yaxın qazlaşmayan kənd və yaşayış massivi mövcuddur. Bunlardan da 250-yə yaxını qazlaşdırılması texniki və iqtisadi cəhətdən səmərəsiz kimi qiymətləndirilir. Ancaq digər kənd və yaşayış massivlərinin "Azəriqaz"ın daxili maliyyə resursları hesabına mərhələli şəkildə həyata keçiriləcəyi nəzərdə tutulur.

***XQ***

# TAP Avropanın 10-dan çox ölkəsinə Azərbaycan qazı nəql edəcək

**Trans Adriatik Boru Kəməri (TAP) ən mürəkkəb dövrdə Avropanın enerji təchizatını şaxələndirən və etibarlı mənbədən təbii qazın fasiləsiz tədarükünü təmin edən strateji layihədir.**




Energetika naziri Pərviz Şahbazov İtaliyanın "Formiche" saytına müsahibəsində bu fikrinə əlavə olaraq qeyd edib ki, TAP çox qısa müddətdə tam gücü ilə işləyərək, ötən il Avropaya qaz tədarükünü 40 faiz artırmaqla 11,4 milyard kubmetrə çatdırıb. Bu həcmin 84 faizindən çoxu, yəni 9,6 milyard kubmetri yalnız İtaliyanın payına düşüb.

P.Şahbazov müsahibəsində daha sonra TAP-ın enerji təhlükəsizliyinə xidmət etməklə yanaşı, enerjidə əlçatanlığına və ətraf mühitin qorunmasna töhfə verən layihə olduğunu da vurğulayıb. Energetika naziri boru kəmərinin Avropanın 10-dan çox ölkəsini Azərbaycan qazı ilə təchiz etmək perspektivinə malik olduğunu və dayanıqlı enerji təhlükəsizliyi üçün bu layihənin inkişafının zəruriliyini də bildirib. O, "REPowerEU" planının, eləcə də Avropa İttifaqı ilə Azərbaycanın enerji sahəsində yenilənmiş strateji tərəfdaşlıq sənədinin məhz TAP-ın rolunun gücləndirilməsini ehtiva etdiyini xatırladaraq boru kəmərinin avropalı tərəfdaşlar üçün "təhlükəsizlik yastığı" rolu daşıdığını diqqətə çatdırıb.

Müsahibədə, həmçinin TAP layihəsinin İtaliya üçün strateji əhəmiyyətindən, boru kəmərinin ötən üçillik dövrdə "köhnə qitə"nin enerji təhlükəsizliyinə verdiyi töhfədən və kəmərin ötürücülük qabiliyyətinin artırılmasının önəmindən bəhs olunub.

Qeyd edək ki, TAP vasitəsilə Avropaya qaz tədarükü 2020-ci ilin dekabrın 31-də başlayıb. İndiyədək qitəyə 28,7 milyard kubmetr Azərbaycan qazı göndərilib.

# Ölkəmizdə regionun ən böyük külək elektrik stansiyası tikilir

**Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) yaydığı məlumata əsasən, bu maliyyə qurumu respublikamızın şərqində 240 meqavatt gücündə külək enerjisi stansiyasının tikintisini maliyyələşdirir. Bu, külək enerjisi sahəsində ölkədə ilk təşəbbüs olmaqla Qafqazda bu cür ən böyük layihədir. Stansiyası istismara verildikdən sonra ildə 893 qiqavatt-saatadək xalis elektrik enerjisinin hasil olunacağı gözlənilir.**



Qeyd edək ki, AYİB 2022-ci lin dekabr ayında Azərbaycanla birgə imzaladığı Anlaşma Memorandumu ilə təsdiqlənən investisiyalar, eləcə də texniki əməkdaşlıq və siyasi dialoq vasitəsilə "yaşıl proqram"ın həyata keçirilməsini qarşıya mühüm vəzifə kimi qoyub.

AYİB Qafqaz regionunda mühüm institusional investorudur. Bu gün bank Azərbaycanda 188 layihəyə 3,6 milyard avrodan çox investisiya qoyub və əsas diqqəti ölkə iqtisadiyyatının diversifikasiyasına yardım göstərməyə yönəldib.

***XQ***

# Sənaye zonaları qeyri-neft sektorunu gücləndirir

## *Hacıqabul Sənaye Məhəlləsində ilin əvvəlindən 50 milyon manatlıq məhsul istehsal olunub*

***(əvvəli 1-ci səhifədə)***



Sənaye parkı və məhəllələrində ötən müddət ərzində, ümumilikdə, 10,23 milyard manatlıq məhsul istehsal edilib və onun 3,35 milyard manatlıq hissəsi ixrac olunub. Cari ilin birinci yarısında isə bu müəssisələrin satdığı 1,4 milyard manat dəyərində məhsulun 33,2 faizi, yəni 470,6 milyon manatlığı ixraca yönəldilib. Bu dövrdə sənaye zonalarının qeyri-neft sektorunda xüsusi çəkisi isə 16,5 faiz, qeyri-neft sənaye məhsullarının ixracında isə 20,7 faiz (470,6 milyon manat) olub. Ötən 9 ayda sənaye zonalarının müəssisələrində məhsul istehsalının dəyəri 2022-ci ilin eyni dövrü ilə müqayisədə 7 faiz artaraq 2,3 milyard manata çatıb. Bunun da 31,2 faizi 50-dən artıq ölkəyə satılıb.

Sənaye zonalarının dinamik inkişafı Hacıqabul Sənaye Məhəlləsində fəaliyyət göstərən "Penoplex Prikavkazye" MMC-nin istilik izolyasiya lövhələrinin istehsalı müəssisəsinin timsalında daha aydın nəzərə çarpır. İqtisadiyyat Nazirliyinin İqtisadi Zonaların İnkişafı Agentliyinin məlumata görə, innovativ texnologiya əsasında müəssisədə istilik izolyasiya lövhələrinin istehsalı həyata keçirilir və istehsal prosesində xammal kimi ümumi təyinatlı polistiroldan istifadə edilir. 100 faiz Rusiya kapitalı olan müəssisənin investisiya dəyəri 18,4 milyon manatdır.

İllik istehsal gücü 100 min kubmetr olan müəssisədə istehsal olunan məhsulların 60 faizinin daxili, 40 faizinin isə xarici bazarlara satılması planlaşdırılır.

Sənaye məhəlləsinin 6,7 hektar ərazisində inşa edilmiş müəssisə dövlət vəsaiti hesabına hazır infrastrukturla (qaz, işıq, su, kanalizasiya, yol) təmin olunub. Eyni zamanda, İqtisadiyyat Nazirliyi tərəfindən verilmiş investisiya təşviq sənədi sayəsində texnika, texnoloji avadanlıqlar və qurğuların idxalına görə 12,9 milyon manat vəsaitə qənaət (gömrük rüsumu və ƏDV) edilib.

Xatırladaq ki, Hacıqabul Sənaye Məhəlləsi mikro, kiçik və orta sahibkarların fəaliyyətinin dəstəklənməsi, qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi, əhalinin istehsal sahəsində məşğulluğunun artırılması məqsədilə dövlət başçısının 2017-ci il 25 iyul tarixli sərəncamı ilə yaradılıb. 200 nəfərdən çox insanın daimi işlə təmin edildiyi bu sənaye məhəlləsində ümumi investisiya həcmi 163 milyon manatdan çox olan 14 sahibkarlıq subyekti rezident kimi qeydiyyatdan keçib və bunlardan 8-i artıq fəaliyyətə başlayıb. Mövcud layihələr üzrə əlavə olaraq sənaye məhəlləsinə 120 milyon manata yaxın investisiyanın yatırılması, 1500-dən artıq iş yerinin yaradılması nəzərdə tutulub.

2023-cü ilin 9 ayında Hacıqabul Sənaye Məhəlləsində 50 milyon manatlıq məhsul istehsal edilib ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 97 faiz artım (2022-ci ilin 9 ayında 25,8 milyon manatlıq məhsul istehsal edilib) deməkdir.

İndiyədək sənaye məhəlləsinin rezidentləri tərəfindən 95 milyon manata yaxın məhsul istehsal olunub ki, bunun da 1 milyon manatlıq hissəsi ixracın payına düşür.

***XQ***

Cümhuriyyət tarixi ekranda

# İstiqlalın şair qəhrəmanı

**Savaşlarda zəfər təkcə silahla qazanılmır, söz səfərbərliyi də mühüm rol oynayır. Bu baxımdan, Türkiyə Cümhuriyyətinin qurulmasında istiqlalçı Mehmet Akif Ərsoyun mənəvi xidmətləri danılmazdır. O, şair, natiq, jurnalist və siyasətçi kimi alovlu çıxışları ilə İstiqlal savaşının mənəvi liderlərindən biri olub, yazdığı "İstiqlal Marşı" nın sözləri isə 102 ildir ki, qardaş ölkənin dövlət himni kimi hər kəsi saygı duruşuna vadar edir. İnişil ekranlaşdırılan "Akif" filmi istiqlal şairinin həyat və mübarizə hekayəsini tamaşaçılara dolğun çatdırır.**




"Darçın" kinostudiyasında ərsəyə gələn filmin rejissoru Sədulla Şəntürk, ssenari müəllifi isə Hakan Haksundur. Ekran əsərinin məsləhətçiləri Mehmet Akif Ərsoyun nəvəsi Səlma Ərsoy Argon, "İstiqlal marşı"nın ilk dəfə nəşr olunduğu "Sebilürreşad" jurnalının baş redaktoru Fatih Bayhan, Türkiyənin sabiq dövlət xadimi Yüksel Yalova və professor Yasin Aktaydır. Əsas rollarda Fikrət Quçqan, Yavuz Bingöl, Kıvanç Aktan və başqaları oynayıblar.

...İstanbul, 1920 ci il. Şəhər İngiltərə işğalının kölgəsinə düşür. Mədəniyyət adlanan təkdişli canavar Mehmet Akifin 13 yaşlı oğlu Eminin məktəbini zəbt edir. Eminin nəzərində bu, bütövlükdə Vətənin işğalı anlamına gəlir. Emin qismən həyatdan küsür, amma daxilində düşmənlərə qarşı savaş hissini də qorumuş olur. Mehmet Akif övladı ilə birlikdə doğma ailəsi və İstanbuldan ayrılmalı olur. Səfərə çıxarkən oğlu atasından hansı duanı etməli olduqlarını soruşarkən şair belə cavab verir:" Allahım, getdiyim yerdə qarşılaşdığımız insanlar bizi sevsinlər. Biz də onları sevək". Bu dua filmin əsas motivinə çevrilir. Bundan da belə bir nəticə hasil olur ki, hürriyyət uğrunda savaşda əsas olan insan sevgisidir. Sevda, ümid dolu səfərlərdə Mehmet Akif və oğlu ölümlə də üz-üzə gəlirlər. Lakin milli mücadilə tərəfdarı Kuşçubaşı Əşrəf bəy onları xilas edir.

...Ankara. İstanbuldan fərqli olaraq, bura işğala dirənən bir şəhərdir. Mustafa Kamal Paşaya ölüm fərmanları çıxarılsa da, milli mücadiləçilər yollarından dönmürlər. Mustafa Kamal Emini görərkən istiqlal savaşının həm də uşaqlar üçün məktəblərin açılması məqsədilə aparıldığını söyləyir. Bunla da aparılan mübarizədə məqsədin gerçək mədəniyyəti inşa etmək olduğu anlaşılır.

Filmdə Qurtuluş savaşının siyasi və mənəvi liderlərini birləşdirən bir dəyər də onların ata-babalarının ərazilərinin işğal ərazisində olmasıyla bağlıdır. Atatürk həm də bu baxımdan Mehmet Akifin onu daha yaxşı anlayacağını deyir.

Film boyu görünür ki, türk milləti İstiqlal savaşını yoxluq, ehtiyac içində aparıb. Savaşdan yorulmuş toplumu yeni hərbə hazırlamaq elə də asan məsələ deyildi. Bu, azmış kimi, milli mücadiləçiləri dinsiz adlandıraraq, onları xalqdan uzaq salmaq tendensiyası güclü idi. Siyasi hiylələr ingilis imperyalizminin İslam adına qurduğu oyunun tərkib hissəsi idi. Mustafa Kamal bunun fərqində olduğundan Mehmet Akifə hava və su kimi ehtiyac duymuşdu. Şair bir vaiz kimi, Allah adına aldadılan insanları aydınlatmağa çalışırdı. Filmdə onun bu səyləri öz əksini Konyada məscid önündəki çıxışda tapır. O, insanlara milli mücadiləyə qoşulmayacaqları təqdirdə hindular və digər əsir-yesir xalqlar kimi acı tale yaşayacaqları barədə xəbərdarlıq edir. Şairin arqumentləri hər kəsə inandırıcı gəlir və təsirsiz ötüşmür.

## Vermə, dünyaları alsan da, bu cənnət Vətəni

*Mehmet Akif Ərsoyun "İstiqlal marşı" şeirindən:*

*Basdığın yerləri "torpaq" deyərək keçmə, tanı,*
*Düşün altındakı minlərcə kəfənsiz yatanı.*
*Sən şəhid oğlusan, incitmə, yazıqdır, atanı,*
*Vermə, dünyaları alsan da, bu cənnət vətanı.*

* * *

*Ruhumun səndən, İlahi, budur ancaq diləyi:*
*Dəyməsin məbədimin köksünə naməhrəm əli.*
*Bu azanlar ki, şəhadətləri dinin təməli,*
*Əbədi yurdumun üstündə mənim inləməli.*

* * *

*Qorxma, sönməz bu şəfəqlərdə üzən al bayraq;*
*Sönmədən yurdumun üstündə yanan ən son ocaq.*
*O mənim millətimin ulduzudur, parlayacaq;*
*O mənimdir, o mənim millətimindir ancaq.*

* * *

*Çatma, qurban olum, çöhrəni ey nazlı hilal!*
*Qəhrəman xalqıma bir gül! Nə bu şiddət, bu cəlal?*
*Sənə olmaz tökülən qanlarımız sonra halal…*
*Haqqıdır, haqqa tapan, millətimin istiqlal!*

Mehmet Akifin insan sevgisi ilə bağlı duası da gerçəkləşmiş olur. Filmdə bu məqam şəhid anasının bir jestində öz əksini tapır: övladını Vətən uğrunda şəhid vermiş ana onun üçün toxuduğu corabları mücadiləçilərə ərməğan edir. Bu, o deməkdir ki, nə qədər çətinliklər olsa da, xalqda böyük zəfərə böyük inam var. Bu inam Vətən sevginin məhz imandan irəli gəldiyinə işarədir.

...Tacəddin dərgahı. Bu yer "İstiqlal Marşı"nı doğuran mənəvi ərazidir. Milli marş üçün müsabiqəyə 724 şeir təqdim edilsə də, heç biri qəbul olunmur. Mustafa Kamal Paşanın marşın sözlərinin Mehmet Akif tərəfindən yazılmasında maraqlı olduğunu bilən o



zamankı maarif naziri Həmdullah Sübhi bəy şairə məktub göndərərək ondan kömək istəyir. Mehmet Akif himnin mətni üzərində düz 10 gün ciddi şəkildə çalışır. Filmdə bu məqamlar öz əksini real kadrlarda tapır. Mehmet Akif marşı qələmə alanda ətrafdakılar onun yenidən şairliyə qayıtmasını sevinclə qarşılayırlar.

Nəhayət, böyük gün gəlir və "İstiqlal Marşı" Millət Məclisi tərəfindən qəbul olunur. Bu barədə qərar Mustafa Kamal Atatürkün "Bu marş bizim inqilabımızın ruhunu anladır" sözlərinə istinadla verilir. Məclisdəkilər ilkin adı "Qəhrəman Ordumuza" olan şeiri müəllifin səsləndirməsini istəyirlər, amma onun orada olmadığını görürlər. Bu şərəf Böyük Millət Məclisinin kürsüsündən Həmdullah Sübhi bəyə nəsib olur və şeir ayaqüstə dinlənilir… Sonra marşın sözləri ingilis, alman, fransız, macar və fars dillərinə tərcümə edilərək ölkə daxilində və xaricində dərc olunur. Bir müddət müxtəlif musiqilərlə ifa edilən marşa Türkiyənin tanınmış bəstəkarı Osman Zəki Üngör mübariz himn səviyyəsində musiqi bəstələyir.

Onu da xatırladaq ki, həm də "Çanaqqala şəhidləri" adlı şeiri dillər əzbəri olan hürriyyətin şair qəhrəmanı, "İstiqlaliyyət" medalı ilə təltif edilən millət vəkili Mehmet Akif Ərsoy "İstiqlal marşı" üçün ona verilən 500 lirə məbləğində mükafatı Qızıl Aypara Cəmiyyətinin xəttilə yoxsul qadın və uşaqlara iş öyrədən "Darül məsai" qurumuna bağışlayıb. O, özünün mənəvi missiyasını layiqincə yerinə yetirməsindən məmnun qalsa da, həmin tarixi olaylarla bağlı belə demişdi: "Allah bu millətə bir daha "İstiqlal Marşı" yazdırmasın". Yəni, cümhuriyyət, istiqlal əbədi olsun. Filmin sonunda bu cümlənin xatırladılması bir xalqın hürriyyətinin davamlı olmasının necə də ürəkdən arzu edildiyini, onu itirməyin nə kimi faciələr törədə biləcəyini seyrçilərin diqqətinə çatdırmaq məqsədi daşıyır.

**Sonda xatırladaq ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan 2021-ci ili "Mehmet Akif və İstiqlal marşı ili" elan etmişdi. Bu münasibətlə həyata keçirilən layihələrdən biri də haqqında danışdığımız filmdir.**

***Ceyhun MİRZƏLİ,***
***Əli NƏCƏFXANLI***
***XQ***

---

Yaddaşlarda yaşayanlar

## *Canəli Əkbərov:*
## Mənim Xan Şuşinskidən öyrənmədiyim bircə məsələ qalmışdı

**Kəndimizdə Məhəmmədiyyə dayı deyilən bir ağsaqqal var idi. Sıravi kolxozçu idi. Nə zaman musiqidən, muğamdan, xanəndədən söz düşürdüsə, dərhal deyirdi ki, mən Soltannuxa kəndində Xan Şuşinskinin oxuduğu toyda iştirak eləmişəm. Əlavə edirdi ki, Xan həmin toya Bakıdan cavan bir xanəndə də gətirmişdi. O cavanın səsi eeeeyyy... göylərə çatırdı.**

***

Sonra öyrəndim ki, Xan Şuşinski Soltannuxa kəndinə, kolxoz sədrinin oğlunun toyuna gəlibmiş. Özüylə gətirdiyi cavan xanəndə isə Canəli Əkbərov imiş.

***

Canəli Əkbərovun səsini, ifasını çox eşitmişdim. Hətta, oxuduğu "Mirzə Hüseyn" segahının plastinkasını yataqxanada qoruyub saxladığım radionun üstündə yüz dəfələrlə səsləndirmişdim. Ancaq bir gün oxuduğu edəndə Mövlud Süleymanlı tapşırdı ki, xanəndələrdən canlı yayımda ifa xahiş etməyin. Mən də Canəli müəllimdən elə xahiş etmədim. Amma sonda xanəndə "bir ağız" oxudu və belə bir gülməcə əlavə etdi: "Dinləyicilər bilsinlər ki, verilişin qonağı rəssam yox, xanəndədir".

***

Məni tez-tez paytaxtın müxtəlif mədəniyyət müəssisələrində keçirilən tədbirlərə dəvət edirlər. Mən də iş yoldaşlarımızdan kimlərləsə birlik-



ğum İncəsənət İnstitutunun hansısa auditoriyasından – bəli, zaldan və ya klubdan yox, məhz sinifdən onun səsini eşitdim. Qrup yoldaşımız, Segah muğamını məharətlə oxuyan Nüsrət Nəsirovla yaxınlaşdıq. Məlum oldu ki, Qulu Əsgərovun dərsidir və Canəli Əkbərov tələbə kimi oxuyur.

Xatırladım ki, 1963–64-cü illərdə Azərbaycan Dövlət Filarmoniyası yanında muğam məktəbində Seyid Şuşinskinin, 1969–1972-ci illərdə isə Xan Şuşinskinin tələbəsi olmuş Canəli 70-ci illərin sonlarında İncəsənət İnstitunda qiyabi təhsil alırdı. Halbuki, o, 1965-ci ildən Azərbaycan Dövlət Filarmoniyasının, 1976-cı ildən isə Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti idi.

***

Qərəz, yetmişinci illərin sonlarında Bakı kəndlərinin hansındasa toyda idik. Orada dostum Nüsrətin tanıdığı xanəndələrdən birini də gördük. Nüsrət həmin xanəndədən soruşdu ki, bu toyda sən də oxuyacaqsan? Dedi, yox, nə danışırsan, başda o boyda əjdaha oturub. Onun yanında oxumaq olar?

Canəli Əkbərovu nəzərdə tuturdu.

***

Sonralar Canəli Əkbərovla yüz dəfələrlə görüşdük. Teleradio Şirkətinin sədr müavini Mövlud Süleymanlı radioda dörd saatlıq canlı yayım proqramı yaratmışdı. Şəfəq Əlixanlı və Zərxanım Əhmədlidən sonra məni də həmin proqramın aparıcıları sırasına yazdılar. O vaxt radioya kifayət qədər sənət adamlarını dəvət etmişdik. Mən Canəli Əkbərovu dəvət

də gedirəm. 2018-ci il fevralın 15-də Beynəlxalq Muğam Mərkəzində Kor Əhəd kimi tanınan məşhur qarmon ustası Əhəd Əliyevin 125 illik yubileyi münasibətilə keçirilən tədbirə də redaksiyamızdan bir neçə nəfəri dəvət etmişdim. Əliqismət Bədəlov həmin tədbirə Qəbələnin Soltannuxa kəndində yaşayan qayınatası Nəcəf Mustafayev və əmisi oğlu, peşəkar dənizçi Gülbala Bədəlovla birlikdə gəlmişdi.

Tədbirdən əvvəl biz Canəli Əkbərovla söhbət edəndə 90 yaşlı ( Allah ömrünü uzun eləsin, hazırda 96 yaşı var!) Nəcəf dayı yaxınlaşaraq dedi ki, Canəli müəllim, mən sizi 48 il qabaq öz kəndimizdə görmüşdüm. Xanəndə soruşdu ki, hansı kənddə? Ağsaqqal dedi, Qəbələnin Soltannuxa kəndində. Canəli Əkbərov isə qayıtdı ki, orada məni yox, Xan Şuşinskini və onun cavan tələbəsi Canəli Xanəli oğlunu görmüsünüz.

Ağsaqqal soydaşımız xanəndəyə jurnalistsayağı sual verdi: – Xan Şuşinskidən hər şeyi öyrənə bildinizmi?

–Yox, qəlyan çəkməyi öyrənə bilmədim! – deyə, xanəndə həmin sualı zarafatla cavablandırdı.

Şəkildə: Sağdan – Saatlını və Azərbaycanı okeanlarda və beynəlxalq dənizlərdə təmsil edən peşəkar dənizçi Gülbala Bədəlov, Əliqismət Bədəlov, Canəli Əkbərov, Nəcəf Mustafayev, İttifaq Mirzəbəyli və Canəli Əkbərovun tələbəsi.

***İttifaq MİRZƏBƏYLİ***
***XQ***

**Foto Rafiq Salmanovundur**

---




# XQ-nin kitab rəfi

## "Yaxşılıq bir güldür, solmaz dünyada"

Ötən əsrin ortalarında yazıb-yaratmış el şairi Nəbi Dilsuzun (Molla Nəbi Kəlbəcərli) eyni adlı kitabının Azərbaycan Yazıçılar Birliyinin "Natəvan" klubunda təqdimatı keçirilib.

Övladları Novruz və Həbib Nəbioğlunun nəşrə hazırladıqları topluya müəllifin ayrı-ayrı arxivlərdən toplanmış müxtəlif mövzuları əhatə edən şeirləri – qoşma, təcnis, gəraylı, gözəlləmə və deyişmələri, eləcə də hələ 1939-cu ildə "Azərbaycan xalq dastanları" seriyası ilə buraxılmış "Dilsuz və Xəzangül", "Fəzli və Məhluqa" dastanları daxil edilib.

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, dosent İlham Məmmədlinin "Ön söz" yazdığı toplunun redaktoru AYB üzvü Namiq Dəlidağlıdır.

**Mən Nəbiyəm, soran yoxdu əhvalım,**
**Müddətdir çaşqındır huşum, xəyalım...**

– deyən və ermənilər Kəlbəcəri işğal edən zaman bir çox əlyazmaları orada qalan şairin bədii irsi bir çox maraqlı cəhətləri ilə fərqlənir.

## Gənc şairlərin debütü




Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzində sənətə yeni başlayan Azərbaycan şairlərinin "Qəlbimizin hissləri" şeirlər toplusu işıq üzü görüb.

Layihənin təşkilatçısı Lalə Həsənovadır. Gənc istedadların yaradıcılığının dəstəklənməsi baxımından əhəmiyyətli olan poeziya toplusuna 20 müəllifin əsərləri daxil edilib. Onlar Günatay Hüseynova, Aytən Həsənzadə, Türkan Bayramzadə,Ləman Həsənova, Mariya Petriyenko, Bayram Məhərrəmov, Fidan Nəzərova, Timur Mirzəliyev, Aydan Allahyarova, Fidan Cəfərova, Lalə Muxtarova, Olqa Şalayeva, Lalə Əliyeva-Klıçkova, Nəzrin Hacı-Məmmədova, Zülfiyə Babayeva, Günel Mahmudova, Aysel Məhərrəmova, Nina Tişşenko, Dilarə Mehdiyeva, Arzu Manaflıdır.

## "Əgər ölsəm, eləyin cismimə bayrağı kəfən"

Cəlilabad rayon Veteranlar Təşkilatının təşəbbüsü ilə Vətən müharibəsi şəhidi Əlikram Xanışovun yadigar şeirlərindən ibarət kitabı nəşr etdirib.

"Elm və təhsil" nəşriyyatında işıq üzü görən "Vətən uğrunda ölərəm" kitabın redaktoru rayon Veteranlar Təşkilatının sədri, Azərbaycan Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü, "Sözün işığı" qəzetinin baş redaktoru Ədalət Salmandır. O, həm də kitaba "Azərbaycan yad eyləyəcək" sərlövhəli ön söz də yazıb.

Əlikram Xanışov 2000-ci ildə Göytəpə şəhərində anadan olub. MAXE hərbi qulluqçusu idi. Vətən müharibəsi zamanı Suqovuşan uğrunda döyüşlərdə şəhadətə ucalıb. "Əgər ölsəm, eləyin cismimə bayrağı kəfən", – deyərək muradına yetən, doğulduğu şəhərdə adına bulaq tikilən şəhidin şeirləri də göstərir ki, onun şair təbi bulaq kimi qaynar olub.

***Ə.DOSTƏLİ***
***XQ***

Beynəlxalq həyat

# Rusiya–Ukrayna müharibəsi: mövqe döyüşləri davam edir

**Son günlər Ukraynanın Donetsk vilayətinin Avdeyevka kəndi ətrafında gərgin döyüşlər gedir. Hər iki tərəfin ağır itkilər verdiyi bildirilir. Məlumatı UNİAN agentliyi yayıb.**



Bütövlükdə, hansısa bir tərəfin ciddi irəliləyişə nail olması hiss olunmur. Hərbi mütəxəssislər cəbhədə əsasən mövqe döyüşlərinin getdiyini vurğulayırlar. Bu, ona dəlalət edir ki, rəqiblər ağır itikilərə yol verməkdən çəkinirlər.

Qarşıdan isə şaxtalı qış günləri gəlir. Artıq Ukraynada temperaturun kəskin aşağı düşməsi müşahidə olunur. Bu amil də geniş hərbi əməliyyatların aparılmasına maneçilik törədir.

Bu arada dünən Maltada Ukraynaya dair üçüncü sülh sammitinin işə başladığı barədə xəbərlər yayılıb. Tədbirdə dünyanın 65-dən çox ölkəsinin təmsilçisi iştirak edir. Ukrayna Prezidenti ofisinin rəhbəri Andrey Yermak "Telegram"da bildirib ki, sammitdə Qərb və Qlobal Cənub ölkələrinin xarici siyasət və milli təhlükəsizlik üzrə müşavirləri iştirak edir.

Yermak, həmçinin qeyd edib ki, üçüncü sammitdə Ukrayna sülh formulunun beş maddəsinin icrası planları təqdim olunacaq və müzakirə ediləcək: nüvə, enerji və ərzaq təhlükəsizliyi, humanitar istiqamət (əsir və deportasiya olunan şəxslərin azad edilməsi), Ukraynanın ərazi bütövlüyünün və dünya nizamının bərpası. "Bu planlar müxtəlif ölkələrin səfirliklərinin təmsilçilərinin, eləcə də beynəlxalq ekspertlərin daxil olduğu işçi qruplar tərəfindən hazırlanıb", – deyə Andrey Yermak yazıb.

Xatırladaq ki, bundan əvvəlki iki görüş Kopenhagendə və Ciddədə keçirilib. O vaxt Ukrayna təkcə birbaşa tərəfdaşları və müttəfiqləri deyil, həm də Ukraynaya dair neytral mövqe tutan Qlobal Cənub ölkələrinin təmsilçilərini cəlb etməyə müvəffəq olmuşdu.

Avropanın bəzi ölkələrinin Ukraynaya hərbi yardımları dayandırmaq fikrində olduqları barədə məlumatlar da yayılır. Lakin Böyük Britaniya hökuməti rəsmən elan edib ki, Fələstin–İsrail müharibəsinə baxmayaraq, London Kiyevə dəstəyini dayandırmayacaq.

Belə ki, Birləşmiş Krallığın hökumət başçısı Rişi Sunak ilə Ukrayna Prezidenti Volodimir Zelenski arasında telefon danışığı olub. Britaniya hökumətinin başçısı Ukraynanın ərazi bütövlüyü və suverenliyi məsələsində ölkəsinin sarsılmaz öhdəliyini qeyd edib.

Rişi Sunak və Volodimir Zelenski, həmçinin Ukraynada hərbi əməliyyatların gedişini, kritik infrastrukturun müdafiəsi və taxıl ixracı məsələlərini də müzakirə ediblər.

**XQ**

# Karateçimiz üçqat dünya çempionu oldu



**Azərbaycan karateçisi İrina Zaretska (68 kq) Macarıstanın paytaxtı Budapeştdə keçirilən dünya çempionatında uğurla çıxış edib.**

Finala qədər rəqib tanımayan idmançımız həlledici mərhələdə İsveçrə təmsilçisi Yelena Quriç ilə üz-üzə gəlib. Rəqibini 4:3 hesabı ilə məğlub edən Azərbaycan təmsilçisi üçqat dünya çempionu titulunu qazanıb.

Qeyd edək ki, İrina Zaretska 2018 və 2021-ci illərdə təşkil edilən dünya çempionatlarının qalibi olub.

**XQ**

# Yaxın Şərq: Yerüstü hərbi əməliyyatlara start verilib



**Bu il oktyabrın 7-də HƏMAS yaraqlılarının İsrailin yaşayış məntəqələrinə qəfil hücumu və bu zaman dinc sakinlərə qarşı ağır zorakılıqlar törətməsi, xüsusilə, girovlarla qəddar rəftar beynəlxalq ictimaiyyət tərəfindən ilk gündən birmənalı olaraq qınanılır. Çünki, harada baş verməsindən asılı olmayaraq, terrorun hər bir təzahürü yolverilməzdir.**

Bununla bərabər, regionda gərginliyin kəskin artması, son 22 gündə İsrail Müdafiə Qüvvələri tərəfindən Qəzza sakinlərinin aramsız aviazərbələrə məruz qalması, dinc, günahsız insanların həyatlarını itirməsi bəşəriyyəti narahat etməyə bilməz. Bu gün planetimizdə sağlam düşüncəli hər kəs başa düşür ki, sülhə alternativ yoxdur və nəyin bahasına olursa-olsun regionda zorakılıqların qarşısı alınmalıdır.

Təəssüf ki, indi Yaxın Şərqdə ürəkağrıdan hadisələr baş verir və bunun sonu görünmür. Dünən İsrail Ordusunun rəsmisi məlumat yayıb ki, bu ölkənin hərbçiləri Qəzza zolağının şimal hissəsinə daxil olaraq quru hərbi əməliyyatın miqyasını genişləndiriblər. Bildirilib ki, hələlik, İsrail hərbçiləri arasında itki yoxdur.

İsrail hərbçiləri bir neçə cəbhədə döyüşlər aparır. Dünən İsrail aviasiyası Livandan ölkə ərazisinə hücumlara cavab olaraq bu ölkəyə raket zərbəsi endirib. TASS xəbər verir ki, İsrail ordusuna məxsus qırıcı təyyarə "Hizbullah"ın hərbi obyektini gecə saatlarında vurub. Livan rəsmiləri bu faktı nə təsdiq, nə də təkzib ediblər.

Ən son məlumatlara görə, İsrail ordusu Fələstinin HƏMAS hərəkatının hava qüvvələrinin rəhbəri Asem Əbu Rakabanı məhv edib. Rusiyanın "Kommersant" nəşri xəbər verir ki, o, sıradan biri deyil, belə ki, HƏMAS-ın dron hücumlarına və hava hücumundan müdafiə sisteminə cavabdeh şəxs olub.

Xəbərdə, həmçinin qeyd olunur ki, Asem Əbu Rakaba oktyabrın 7-də Qəzza zolağı ətrafında yəhudi icmalarının qırğınının planlaşdırılmasında fəal iştirak edib. O, İsrailə daxil olan yaraqlılara rəhbərlik edib və İsrail Ordusunun postlarına pilotsuz təyyarələrin hücumuna görə məsuliyyət daşıyıb.

Hadisə yerindən reportaj hazırlayan jurnalistlər bildirirlər ki, Qəzza zolağında əhalinin vəziyyəti olduqca ağırdır. Burada son günlər yaşanan yanacaq qıtlığı ərzaq yardımlarının dayanmasına səbəb olur. Belə ki, yanacaq tədarükü çörək istehsalı, istiliklə təminat və yardımların nəqliyyat vasitələri ilə müvafiq yerlərə daşınması üçün mühüm əhəmiyyət kəsb edir. Yanacaq isə demək olar ki, yoxdur.

İtaliyanın paytaxtı Romada yerləşən BMT-nin Ümumdünya Ərzaq Proqramının rəsmisi bildirib ki, Qəzzada, təxminən, 1,1 milyon insana ərzaq yardımı çatdırılması üçün qarşıdakı iki ay ərzində buraya hər gün, azı, 40 yük avtomobili daxil olmalıdır. Humanitar yardımların daxil olması dayandırılıb.

Sonda bir daha xatırladaq ki, bu il oktyabrın 7-də sübh tezdən HƏMAS yaraqlıları İsrail ərazisinə bir neçə min raket atıb. Bunun fonunda İsrailin milli təhlükəsizlik naziri İtamar Ben-Qvir həmin gün ölkədə fövqəladə vəziyyət elan edib. İsrailin Baş naziri Binyamin Netanyahu isə ölkənin müharibə vəziyyətində olduğunu bəyan edib.

HƏMAS–İsrail müharibəsi başlanan gündən son ana qədər, təxminən, 1,4 min İsrail vətəndaşı, 7 mindən çox fələstinli həlak olub. Ölən və yaralananların sayının artacağı ehtimal olunur.

**M.HACIXANLI**
**XQ**

Ekspert rəyi

**Şahbaz ŞAMIOĞLU,**
**BSU-nun professoru,**
**siyasi şərhçi**



**– İsrail–Fələstin müharibəsində kəskin eskalasiya baş verir. İsrail Silahlı Qüvvələri HƏMAS-ın 7 oktyabr hücumundan sonra yaraqlıları cəzalandırmaq üçün Qəzza bölgəsinin şimal hissəsinə daxil olublar. Bu, o deməkdir, çoxdan gözlənilərn yerüstü hərbi əməliyyatlara start verilib.**

**Bu, həm də o deməkdir ki, yaxın günlər ərzində tərəflər arasında döyüşlər daha da gücləncək. HƏMAS Qəzzada geniş yeraltı sığınacaqlar və bunkerlər şəbəkəsi qurub. Yaraqlıların ciddi müqavimət göstərəcəyi ehtimal olunur.**

**Sual olunur: Bölgədə gərginliyin qarşısını almaq olardımı? Cavab bəllidir: Əlbəttə, olardı. Lakin təəssüf ki, böyük güclər bunu istəmədilər.**

**Məlumdur ki, ABŞ bölgəyə əlavə döyüş təyyarələri və gəmiləri göndərib. Makron Fransası isə xüsusilə destruktiv mövqe nümayiş etdirir. Belə ki, Paris tərəfləri sülhə çağırmaq əvəzinə, HƏMAS-a qarşı beynəlxalq koalisiya təşkil etməyi təklif edir. Bununla da, Fransa Prezidenti klassik səlibçi konsepsiyasından çıxış edir.**

**Dünya bunun fərqindədir. Bəli, Makron problemə səlibçi təfəkkürü ilə yanaşır. Yaxın Şərqdə hadisələrin gərginləşməsi Üçüncü Dünya müharibəsi təhlükəsini aktuallaşdırır. Siyasi təhlilçilər bu qənaətdədirlər ki, Qərbin müdaxiləsi qızışdırması bu təhlükəni daha da real edir.**

**Özünü "sivil, demokratik dövlət" adlandıran, başqa vaxt insan hüquqlarından dəm vuran Yelisey sarayını hər gün Qəzzada ağır və aramsız aviazərbələr altında həlak olan yüzlərlə günahsız insanın faciəsi qətiyyən düşündürmür. Qərb imperializminin xisləti budur!**

Ehtiyatlı olun!

**Səhiyyə Nazirliyinin Şəkidə qızılca infeksiyasının yayılmasına dair yaydığı məlumatda bildirilir ki, Azərbaycanda son illər yoluxucu xəstəliklərə qarşı aparılan profilaktik tədbirlər nəticəsində qızılca və məxmərək xəstəlikləri üzrə sabit epidemioloji vəziyyət müşahidə olunur. Bununla belə, cari ilin ötən dövründə Türkiyə, Rusiya Federasiyası, İran, Qazaxıstan, Gürcüstandan gətirilmə sporadik yoluxma halları müşahidə edilib. Təxirəsalınmaz profilaktik tədbirlər nəticəsində yoluxmanın geniş yayılmasının qarşısı vaxtında alınıb.**

# Qızılca: köhnə infeksiya yenidən baş qaldırıb

## *Şəkidə aşkar edilmiş yoluxma nəzarətdə saxlanılır*



Məlumata görə, Şəki Şəhər İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziyanın şagirdləri arasında ötən ayın sonlarından başlayaraq, qızılca infeksiyasına yoluxma halları baş verib. Belə ki, gimnaziyanın 22 sinfindən 18-də tək-tək yoluxma halları müşahidə olunub. Araşdırmalar nəticəsində məlum olub ki, bu hallar, əsasən, qızılcaya qarşı peyvənd olunmayan uşaqlar arasında baş verib.

Xəstəlik aşkarlanan uşaqlar izolyasiya edilib, onlardan laborator müayinə üçün nümunələr götürülüb. Alınan nəticələrə əsasən, uşaqlara xəstəxana şəraitində tibbi yardım göstərilib. Amma gimnaziya fəaliyyətini dayandırmayıb. Dərslər xəstələrlə sıx təmasda olan digər uşaqlara gündəlik həkim baxışı və hərarət ölçülməsi həyata keçirilməklə davam edir.

Hazırda gimnaziyada epidemioloji vəziyyət ciddi nəzarət altındadır. Son yoluxma hadisəsi oktyabrın 6-da qeyd edilib. Bu tarixdən etibarən xəstəliyin inkubasiya dövrü tamamlanana qədər (21 gün) ocaqda nəzarət işləri davam etdiriləcək.

Qeyd edək ki, bu ilin fevral ayında da poliklinikalara qızılca xəstəliyi ilə bağlı çoxlu müraciət olmuşdu. Həmin müraciətlərdə də xəstəliyə yoluxanların sırf vaksin almayanlar olduğu aşkarlanmışdı.

**Pediatr Vaqif Qarayev qızılca xəstəliyi, peyvəndin vacibliyi, həmçinin Azərbaycanda bununla bağlı vəziyyət barədə sorğumuza münasibət bildirdi:**

– Qızılca infeksion xəstəlik olaraq, adətən, uşaqlar arasında yayılır. Amma peyvənd almayan böyük yaşlı insanlar da hər hansı yaşda qızılcaya yoluxa bilirlər. Pandemiyadan öncə qızılca bizdə də geniş yayılmışdı. Yoluxmanın artması, xəstəliyə qarşı peyvənd vurdurmamaqla bağlıdır. Hətta bir müddət əvvəl ÜST həyəcan təbili çalırdı ki, uşaqları peyvənd olunmayan ölkələrdə qızılcanın epidemiyası müşahidə edilir.

Bütün yoluxucu xəstəliklər kimi, qızılca da uşaqlara, eləcə də böyüklərə hava-damcı yolu ilə keçir. Əlamətləri mərhələlərlə gedir. İlkin mərhələ üç-dörd gün çəkir. Hərarət 37,5–38 dərəcə olur. Burun axır, öskürək başlayır, gözlər qızarır, konyuktivit əlamətləri müşahidə edilir. Sonrakı üç gündə səpki dövrü başlayır. Öncə üzdə, qulağın arxasında, sonrakı gün bədəndə, üçüncü gün əllərdə və ayaqlarda qırmızı ləkəli səpkilər müşahidə edilir. Qızılca xəstəliyində ağırlaşma olmasa, sonrakı üç-dörd gündə səpkilər sönməyə doğru gedir və uşağın vəziyyəti yaxşılaşır. Amma müalicə qaydasına düzgün əməl edilməyəndə xəstəlik ağır formaya keçir. Xəstəliyin ən qorxulu ağırlaşması uşaqda qızılca pnevmoniyası, bir də ensefalitin (baş beyininin zədələnməsi) baş verməsidir.

Qızılca, məxmərək, epidemik parotit kimi yoluxucu xəstəliklərdən qo-



runmaq üçün yeganə üsul peyvənd vurdurmaqdır. Ümumiyyətlə, bütün yoluxucu xəstəliklərdən qorunmağın düzgün yolu vaksinasiyadır. Təəssüf ki, bizdə son vaxtlar peyvəndə qarşı əks münasibət yaranıb. Heç bir əsası olmadığı halda, cəmiyyətdə "peyvənd ağırlaşma verir", "peyvənddən sonra qolu tutuldu, ayağı tutldu" – kimi əsassız fikirlər səslənir. Əslində, düzgün yol uşağın vaxtında peyvənd olunmasıdır. Peyvənd təyiminə uyğun olaraq uşaqlar iki dəfə – 1 yaşında və 6 yaşında qızılca əleyhinə vaksin almalıdırlar.

Pediatr açıqlamasının sonunda dedi: "Buna görə də övladının sağlamlığını düşünən hər kəs Səhiyyə Nazirliyinin yaydığı məlumata biganə qalmamalıdır. Çünki qurum belə halların qarşısının alınması məqsədilə bir daha vaksinasiyanın vacibliyini vurğulayır və hər hansı səbəbdən peyvənddən kənarda qalan uşaqların yaşayış yeri üzrə uyğun əhalinin ambulator-poliklinik xidmət göstərən tibb müəssisələrində qızılca, epidemik parotit və məxmərək infeksiyaları əleyhinə peyvənd edilməsini tövsiyə edir".

*Zərifə BƏŞİRQIZI*
**XQ**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 237 (30353) 29 oktyabr 2023-cü il, bazar

İdman xəbərləri

## Güləşçimiz dünya ikincisi olub

***23 yaşadək güləşçilər arasında dünya birinciliyində qadın güləşçilərimiz uğurla çıxış ediblər.***




Albaniyanın paytaxtı Tiranada keçirilən yarışda komandamızın üzvlərindən Jalə Əliyeva (57 kq) ilk mərhələdə hindistanlı Rina Rinaya, 1/4 finalda isə rusiyalı Mariya Buzarovaya qalib gəlib. J.Əliyeva yarımfinalda kanadalı Mia Frizeni mübarizədən kənarlaşdırıb. İdmançımız finalda yaponiyalı Sara Natamiyə uduzaraq gümüş medalla kifayətlənib.

Digər güləşçimiz Elnurə Məmmədova (50 kq) 1/8 finalda kanadalı Kelin Yanqa, 1/4 finalda isə rusiyalı Mariya Tyumerekovaya qalib gələrək yarımfinala yüksəlib. E.Məmmədova finalın bir addımlığında amerikalı Audri Ximenesə uduzub. İdmançımız 3-cü yer uğrunda hindistanlı Nilam Nilama qalib gələrək bürünc medal qazanıb.

## Stolüstü tennisçilərimiz Riqada 2 mükafat qazanıblar

***Latviyanın paytaxtı Riqada keçirilən "Riga City Council's Youth Cup" turnirində Azərbaycanın stolüstü tennisçiləri 2 medala sahib olublar.***



Yığmanın aktivinə gümüş medalı 13 yaşadək idmançılar arasında yarışan Tunar Bağırov yazdırıb. Xədicə Eylazova isə həmin yaş kateqoriyasında da bürünc mükafata layiq görülüb.

## Dünya Döyüş Oyunlarında qızıl medal

***Azərbaycan idmançısı Dünya Döyüş Oyunlarının ("World Combat Games") pankration yarışının qalibi olub.***



Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyad şəhərində keçirilən turnirdə millimizin üzvü Əli Quliyev (66 kq) finala gedən yolda bütün rəqiblərini məğlub edib. Həlledici mərhələdə Sabit Jussipan (Qazaxıstan) üzərində də qələbə qazanan pankrationçu qızıl medala layiq görülüb.

## Multiidman yarışında uğur

***Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyadda keçirilən III Ümumdünya Kombat Oyunlarında Azərbaycan kikboksçusu Amin Quliyev (60 kq) qalib adını qazanıb.***



İdmançımız finalda Türkiyə təmsilçisi Əli Atabərk Gürbüzcanla qarşılaşıb. "Lou kik" üzrə keçirilən döyüşdə komandamızın üzvü rəqibə qalib gələrək multiidman yarışının qızıl medalına yiyələnib.

**Leyla SABİRQIZI**
**XQ**

Kosmos

## Kainat yenidən kəşf edilir

**Astronomlar kainatın təkamül prosesini araşdırmaq üçün ən böyük kompüter simulyasiyalarından istifadə ediblər. Flamingo adı verilən layihə kainatın bütün komponentlərini – qaranlıq maddə və qaranlıq enerjini özündə birləşdirir. Bütün bu proseslər fizika qanunlarına uyğun olaraq hesablanıb.**



Layihə çərçivəsində Avropa Kosmik Agentliyi (ESA) tərəfindən kainata buraxılmış Evklid Kosmik Teleskopu və NASA-nın Ceyms Uebb Kosmik Teleskopu kimi qurğular qalaktikalar, kvazarlar və ulduzlar haqqında məlumatlar toplayır.

Tədqiqatçılar ümid edirlər ki, simulyasiyalar onlara kainatı yenidən kəşf etməyə imkan verəcək.

Qeyd edək ki, layihə Avropa Tədqiqat Şurası, Böyük Britaniyanın Elm və Texnologiya Obyektləri Şurası, Hollandiya Elmi Tədqiqatlar Təşkilatı və İsveçrə Milli Elm Fondunun dəstəyi ilə həyata keçirilir. Araşdırma ilə bağlı yazı Kral Astronomiya Cəmiyyətinin "Monthly Notices" jurnalında dərc olunub.

**F.YAQUBLU**
**XQ**

## Yeni qalaktika – Nube

**Beynəlxalq astronomlar qrupu Nube adlı yeni qalaktika kəşf edib. Tədqiqatın nəticələrinə görə, obyekt çox aşağı səth parlaqlığına və Kiçik Magellan Buludunun kütləsi ilə müqayisə edilə bilən kütləyə malikdir.**

Mərkəzi səth parlaqlığı saniyədə 26 baldan az olan qalaktikalar qaranlıq qalaktikalar kimi tanınır. Nube səma ekvatoru boyunca yerləşən Stripe 82 kimi tanınan səmanın bölgəsində zəif səth parlaqlığı obyektləri axtaran "IAC Stripe 82 Legacy" tədqiqatının bir hissəsi olaraq tapılıb.

Qalaktika, təqribən, 350 milyon işıq ili məsafəsində yerləşir və onun 10 milyard il yaşı olduğu güman edilir. Qalaktikanın kütləsinin yarısının yerləşdiyi radius 390 milyon günəş kütləsi olaraq qiymətləndirilir.



Alimlər belə nəticəyə gəliblər ki, Nube bu günə qədər kəşf edilmiş ən böyük və geniş qalaktikadır. Qalaktika 10 dəfə sönükdür və onun radiusu oxşar ulduz kütlələrinə malik tipik ultradiffuz qalaktikalardan üç dəfə böyükdür.

**XQ**

Maraq dünyamız

## Okeanda çaylar axır

**Okeanların dibində əsl sualtı çaylar, daha doğrusu, "soyuq axınlar" var.**



Hidrogen sulfid, metan və digər karbohidrogenlər okeanın dibindəki çatlardan sızıb dəniz suyu ilə qarışır və sonra çaylar kimi yavaş-yavaş hərəkət edir. Üstəlik, buradakı "soyuq" sözü həqiqəti əks etdirmir. Bu, çaylardakı mayenin onu əhatə edən dəniz suyundan aşağı temperatura malik olması demək deyil. Bəzən temperatur hətta bir qədər yüksəkdir.

Alimlər hesab edirlər ki, soyuq sızma okeanların tektonik cəhətdən aktiv zonaları ilə məhdudlaşır. Məsələn, bu hadisə okean qabığının materik qabığının altına batdığı Yaponiya yarımadasında qeydə alınıb.

**P.ƏFƏNDİ**
**XQ**

Hava

# Hava yağmursuz və dumanlı olacaq



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, oktyabrın 29-da Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Gecə və səhər bəzi yerlərdə duman olacaq.Gündüz arabir güclənən şimal-qərb küləyi əsəcək. Gecə 15-18°, gündüz 21-25° isti olacaq. Atmosfer təzyiqi 758 mm civə sütunundan 762 mm civə sütununa yüksələcək, nisbi rütubət 60-65 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Mülayim qərb küləyi əsəcək.Havanın temperaturu gecə 14-19°, gündüz 25-30°, dağlarda gecə 5-10°, gündüz 14-19° isti olacaq.

**Q. QASIMOV**
**XQ**

## Türkan Şorayın bayraq sevgisi



Aktrisanın fanatlarının bir çoxu qeyd edib ki, Türkan Şoray milli bayrağın fonunda xüsusilə gözəl və cazibədar təsir bağışlayır.

**Məşhur aktrisa Türkan Şoray evinin balkonuna Türkiyə bayrağı asıb. Onun bayraq asdığı anların fotosu sosial şəbəkələrdə yayımlanıb. Türk kinosunun "sultanı" ləqəbini almış gözəl aktrisa "Teleqram" kanalında "Bayraqlarımızı asaq. Dövlətim, çox yaşa" şərhini yazıb. Aktrisanın bu fotosuna minlərlə bəyənmə işarəsi gəlib.**

Qeyd edək ki, qardaş ölkədə vətəndaşların milli bayrağa diqqət və sayğısı son dərəcə böyükdür. Yeri gəlmişkən, bu gün Türkiyə Cümhuriyyətinin yaranmasının 100-cü ildönümüdür. Allaha əmanət, Türkiyəm!

**XQ**

Sağlamlıq

## İtburnunun şirəsi – vitamin möcüzəsi

**İtburnu yabanı qızılgül bitkisinin meyvəsidir və əsrlər boyu istifadə edilmişdir. O, C, A, E vitaminləri, kalsium, maqnezium və dəmir kimi müxtəlif minerallar və vacib qidalarla zəngin, həm də güclü antioksidant mənbəyidir. Tərkibindəki yüksək C vitamini immuniteti gücləndirir, infeksiya və xəstəliklərə qarşı mübarizə aparır. İltihab əleyhinə birləşmələri ilə osteoartrit və revmatoid artritdə də kömək edir.**



İtburnudakı antioksidantlar dəriyə də fayda verir. Ondan alınan yağ dərini nəmləndirməyə, çapıqların görünüşünü azaltmağa, ekzema və sızanaq kimi problemlərə kömək edir. Antioksidantlar, həm də oksidləşdirici stressi azaldır, qan dövranını yaxşılaşdırır və təzyiqi aşağı salır. İtburnu çayı, həmçinin şirəsi qara ciyər və böyrək problemlərində əvəzsizdir. Tərkibindəki lif toxluq hissi yaradır. Yüksək A vitamini görmə və ümumi göz sağlamlığını qorumaq üçün vacibdir.

## Sümüklü ət – sümüyünü möhkəmlət

**İnsanlar onurğa və oynaq ağrıları zamanı qülükozamin xondroitin tərkibli sintetik dərman preparatlarından istifadə edirlər. Ancaq bu baxımdan ən gözəl təbii qida sümük (sümüklü ətin) suyudur. Sümük suyu oynaqların, immun və həzm sisteminin ən yaxşı qoruyucusu hesab edilir, osteoartrozda, osteoxondrozda, sümüklərin travmatik zədələnmələrində, paradontopiyada, poliartritdə olduqca faydalı qidadır. Sümüklü ət vam odda bişəndə kolagen, qlütamin, prolin, qlisin kimi aminositləri üzə çıxır.**



Kalsium, maqnezium, fosfor, kükürd kimi minerallar sümük suyunun tərkibində boldur. Onun daha dadlı olması üçün 2–3 qaşıq alma sirkəsi, sarımsaq və cəfəri əlavə edirlər. Həmilələrə, uşaqlara, yaşlılara, kalsium çatmazlığı olanlara hər gün 1– 2 stəkan sümük suyu içmək lazımdır. Sümük suyunu soyuducuda dondurub 3 ay saxladıqdan sonra da istifadə etmək olar. Sümük hüceyrələri daim yenilənir.

## Saç bitirmək olarmı?

**Stress, vitamin çatmazlığı, hamiləlik və südvermə dövrü, hormonal pozulma saç tökülməsini yaradan səbəblərdir. Mütəxəssislər əsəb pozulması olanlara 1 ay müddətində gündə 3 dəfə yeməkdən əvvəl əsəb sakitləşdirici çay (Sedativ çay) içməyi məsləhət görürlər.**



Vitamin və mineral çatışmazlığını aradan qaldırmaq üçün mövsümi meyvələr və göyərtilər yemək önəmlidir. Bu üsul kömək etməyəndə maskalardan istifadə köməyə çatır. Maska yeni tökülmüş saçları bərpa edir və ağarmağa başlayan saçları qaraldır.

Maska hazırlamaq üçün 1 ədəd kənd yumurtasının sarısı, 2 xörək qaşığı alma sirkəsi, 2 xörək qaşığı gənəgərçək yağı bir-birinə qarışdırılıb saça çəkilir. 2 saat gözlədikdən sonra saç yuyulmalıdır. Bu maskanı həftədə 3 dəfə etmək olar.

**Z.HÜSEYNLİ**
**XQ**

Hadisə

## Qazaxıstanda mədən qəzası

**Qazaxıstanın Karağandı vilayətində yerləşən Kostenko mədənində baş vermiş partlayış nəticəsində ölənlərin sayı 21 nəfərə yüksəlib. Daha 23 şaxtaçının isə, hələlik, dağıntılar altından çıxarmaq mümkün olmayıb.**



Kazinform agentliyi xəbər verir ki, hadisə zamanı şaxtada olan 252 nəfərdən 208-si xilas edilib, onlardan 18-i xəstəxanalara yerləşdirilib. Axtarış-xilasetmə işləri davam edir.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev həlak olan şaxtaçıların ailələrinə başsağlığı verib. Hüquq-mühafizə orqanları hadisə ilə bağlı istintaqa başlayıblar.

**FİDAN**
**XQ**

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Müxbirlər: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4795
SİFARİŞ 2716
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır
00:00